# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

*11 mart 2017-ci il №09(8725)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


# Fənn müsabiqələrinin birinci mərhələsi keçirilib



Martın 5-də ölkənin bütün şəhər və rayonlarında VI və VII sinif şagirdləri arasında fənn müsabiqələrinin birinci mərhələsi keçirilib.

Fizika, kimya, biologiya, riyaziyyat və informatika fənləri üzrə keçirilən fənn müsabiqələrinin ilk mərhələsində 14 mindən çox şagird iştirak edib. Bu, ötən tədris ilinə nisbətən 5000 nəfər çoxdur.

Fənn müsabiqələrinin keçirilməsində əsas məqsəd istedadlı uşaqların aşkar edilməsi, aşağı sinif şagirdlərinin fənlərə olan marağının artırılması və onlarla məqsədyönlü işlərin aparılmasıdır.

İki mərhələdən ibarət olan fənn müsabiqələrinin final mərhələsinin cari ilin iyun ayında keçirilməsi planlaşdırılır.

Müsabiqənin final mərhələsinin nəticələrinə əsasən, şagirdlər fərdi mükafatlandırılmaqla bərabər, rayon və şəhərlərin reytinq cədvəlinə uyğun olaraq ölkə üzrə qalib komandalar müəyyən ediləcək. Yüksək nəticə göstərmiş şagirdlərin fənn müəllimləri də təltif olunacaq. Eyni zamanda ölkə üzrə istedadlı şagirdlər bazası yaradılacaq və həmin şagirdlər müvafiq fənlər üzrə müxtəlif beynəlxalq fənn və layihə olimpiadalarına hazırlıqlara dəvət ediləcəklər.

# Təhsil Nazirliyi yanında Daimi Şuralar yaradılıb

Təhsil siyasətinin cəmiyyətdə hər bir vətəndaşın həyatına təsir etdiyini və ölkəmizdə insan kapitalının formalaşdırılmasında mühüm rol oynadığını nəzərə alaraq, bu sahədə həyata keçirilən islahatların səmərəliliyini və nəticəyönümlülüyünü artırmaq məqsədilə Təhsil Nazirliyi yanında Daimi Şuralar yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq olunması və ölkəmizdə son dövrdə bütün sahələrdə aparılan islahatlar dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan yanaşmaların tətbiqini ön plana çəkir. İnkişaf etmiş təhsil sistemlərinin təcrübəsindən aydın olur ki, dayanıqlı inkişafın təmin edilməsi baxımından təhsilin idarəolunması, çatdırılması və təkmilləşdirilməsində iştirak edən tərəflər arasında əlaqələr genişləndirilməli və işəgötürənlərlə six əməkdaşlıq qurulmalıdır.

İlkin mərhələdə iki sahə üzrə yaradılan Daimi Şuralar dövlət qurumları nümayəndələri, özəl sektor, təhsil mütəxəssislərinin və digər aidiyyəti tərəflərin təmsil olunduğu, təhsil sahəsində hazırlanan və həyata keçirilən proqram və layihələrin təhsil siyasəti və strategiyası ilə uyğunlaşdırılması ilə bağlı rəy, təklif və tövsiyələrin hazırlanması, təhsilin inkişafı ilə bağlı qərarların müzakirəsini əlaqələndirən məşvərətçi orqan kimi fəaliyyət göstərəcəkdir.

"Təhsilin məzmunu və dərsliklər" üzrə Daimi Şura dərslik və təhsil məzmunu sahəsində problemləri və təklifləri bütün maraqlı tərəflərlə - dövlət qurumları, nəşriyyatlar, valideyn icmaları və məktəb rəhbərlərinə ən yüksək səviyyədə müzakirə etmək imkanı yaradacaq. "Təhsilin məzmunu və dərsliklər" üzrə Daimi Şuranın rəhbəri təhsil nazirinin müavini Ceyhun Bayramovdur.

"Təhsil və məşğulluq" üzrə Daimi Şura təhsilin aşıladığı səriştə və biliklərin əmək bazarına uyğunluğu, ölkəmizdə rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması və digər mövzuları dövlət qurumları, özəl sektor, təhsil müəssisələri və işəgötürənlərin iştirakı ilə müzakirə etmək üçün açıq və konstruktiv platforma rolunu oynayacaq. "Təhsil və məşğulluq" üzrə Daimi Şuranın rəhbəri Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayevdir.

Daimi Şuralar Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş əsasnamələrə uyğun fəaliyyət göstərəcək.

## T.M.Mütəllimova "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması və ədəbiyyatşünaslıq sahəsindəki xidmətlərinə görə Təhsin Mütəllim oğlu Mütəllimova "Əməkdar elm xadimi" fəxri adı verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 mart 2017-ci il*

## RƏSMİ XRONİKA

- Martın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikası Senatının Fransa-Qafqaz Dostluq Qrupunun sədri Andre Reyşarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev martın 10-da Səudiyyə Ərəbistanı Krallığının körfəz məsələləri üzrə dövlət naziri Tamer Al-Sabhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Dövlət başçısı İlham Əliyev martın 10-da Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuska Prezident vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.
- Martın 10-da ölkə başçısı İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.
- Martın 6-da Prezident İlham Əliyev 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib.
- Dövlət başçısı İlham Əliyev martın 6-da Larisa Yefimovna Reyxrudelin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva martın 6-da Respublika Müalicəvi Diaqnostika Mərkəzinin nəzdində "Ürək Mərkəzi"nin açılışında iştirak ediblər.
- Martın 6-da dövlət başçısı İlham Əliyev Böyük Britaniyanın xarici işlər nazirinin müavini, Birləşmiş Krallığın diplomatik xidmətinin rəhbəri Saymon Makdonaldın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də İran İslam Respublikasında rəsmi səfərdə olub. Səfər çərçivəsində dövlət başçısı İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin məhdud tərkibdə görüşü və geniş tərkibdə danışıqları olub, hər iki ölkə prezidentinin iştirakı ilə sənədlər imzalanıb. Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xameneinin görüşü olub.

## AzTU-da qanvermə aksiyası

Hər il olduğu kimi, bu il də martın 10-da Azərbaycan Texniki Universitetində qanvermə aksiyası keçirilib. Universitetdə fəaliyyət göstərən bütün işçilər, o cümlədən tələbələr qana ehtiyacı olan insanlara kömək məqsədilə könüllü olaraq qan veriblər. Aksiyada iştirak edənlər müayinədən keçirilib, qan analizi götürülərək sağlam olub-olmamaları müəyyənləşdirildikdən sonra qan veriblər. Qan verən iştirakçılar daha sonra şirniyyat süfrəsinə dəvət olunublar.

Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunacaq.

Çıxış edənlər aksiyanın xeyirxahlıq və mərhəmət naminə keçirildiyini bildirərək qan verən universitet əməkdaşlarına, tələbələrə tədbirdə fəal iştirak etdiklərinə görə təşəkkür ediblər.

**Mətbuat xidməti**

## Tələbələr üçün "Gənc Elçilər" proqramı çərçivəsində təqdimat

Martın 10-da Azərbaycan Dillər Universitetində (ADU) Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası tərəfindən həyata keçirilən "Gənc Elçilər" proqramı çərçivəsində ilk tədbir keçirilib.

Universitetin regionşünaslıq və beynəlxalq münasibətlər fakültəsinin tələbələrinin iştirak etdiyi təqdimat mərasimində Gənclər Təşkilatları Milli Şurasının beynəlxalq əlaqələr üzrə katibi İlhamə Qasımzadə və sədr müavini Aysun Zeynalova Gənclər Təşkilatları Milli Şurası, onun missiyası, məqsədi və strategiyası haqqında məlumat veriblər. Onlar "Gənc Elçilər" proqramının əsas məqsədinin Azərbaycanı əhəmiyyətli beynəlxalq tədbirlərdə layiqli təmsil edəcək gənc elçilərin yetişdirilməsi və gənclərin beynəlxalq əməkdaşlığının dəstəklənməsi olduğunu qeyd ediblər. Proqramın faydaları və meyarlarından danışan təlimçilər iştirak etmək istəyən tələbələrə seçim formasının müsahibə və müsabiqədən ibarət olduğunu bildiriblər.

**Mətbuat xidməti**

# "ADA"-nın aparat rəhbəri BDU-nun jurnalistika fakültəsində mühazirə oxuyub

"ADA" Universitetinin aparat rəhbəri Şəfəq Mehrəliyeva Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin ingilisdilli qruplarının tələbələrinə mühazirə oxuyub.

Dekan müavini, dosent Könül Niftəliyeva qonağı fakültədə görməkdən məmnunluğunu ifadə edərək onun fəaliyyəti barədə tələbələrə məlumat verib. Bildirib ki, Şəfəq Mehrəliyeva uzun illər AZƏRTAC, "Space" müstəqil teleşirkəti və CNN dünya xəbərlərində peşəkar jurnalist kimi fəaliyyət göstərib. İngilis dili qruplarının müəllimləri Vəfa İsgəndərova və Anzulə Əmirovanın təşəbbüsü ilə baş tutan görüşün tələbələr üçün mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib, öz təcrübəsini bölüşəcəyi üçün Şəfəq Mehrəliyevaya minnətdarlığını bildirib.



Öz növbəsində, dəvətə görə təşəkkür edən Şəfəq Mehrəliyeva jurnalistikanın əsasları, ənənəvi və yeni media, PR, informasiya texnologiyalarının jurnalistikada tətbiqi ilə bağlı ingilis dilində mühazirə oxuyub. İyirmi illik təcrübəsini bölüşən Şəfəq Mehrəliyeva CNN dünya xəbərlərinə Dağlıq Qarabağ münaqişəsi, o cümlədən Xocalı faciəsi, Qanlı Yanvar hadisələri ilə bağlı hazırladığı materiallardan, onların təsirindən bəhs edib.

Sonda tələbə-jurnalistlərin suallarını cavablandırılıb.

**Mətbuat xidməti**

# Təhsil naziri Ağdaş şəhərində vətəndaşları qəbul edib





Martın 6-da təhsil naziri Mikayıl Cabbarov Ağdaş şəhərindəki Heydər Əliyev Mərkəzində Ağdaş, Yevlax, Bərdə rayon və Mingəçevir şəhər sakinlərini qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Ağdaş, Yevlax, Bərdə rayonlarında və Mingəçevir şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib. Bir sıra müraciətlər yerindəcə həllini tapıb.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və ya iş yerinin bir məktəbdən, həmçinin bir rayondan digərinə dəyişdirilməsi, tələbə köçürülməsi, təhsil sənədlərinin tanınması və digər məsələlərlə əlaqədar müraciət ediblər. Əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

***

Təhsil naziri Qəbələ Peşə Məktəbinin yeni tikilən tədris binası ilə tanış olub.

Açılışı bu ilin ilk yarısında planlaşdırılan yeni peşə məktəbi kənd təsərrüfatı üzrə ixtisaslı kadr və mütəxəssislər hazırlayacaq. Peşə məktəbində tədris olunacaq proqramların məzmunu BMT-nin İnkişaf Proqramı (UNDP) tərəfindən həyata keçirilmiş "Heyvandarlıq mütəxəssisi" ixtisası və BP tərəfindən həyata keçirilən "Kənd təsərrüfatı peşə təhsili üçün yeni ixtisasların hazırlanması" layihələrinə uyğun formalaşacaqdır.

# Təhsil naziri "Salaam Şalom Qardaşlığı" təşkilatının nümayəndə heyəti ilə görüşüb

Martın 10-da təhsil naziri Mikayıl Cabbarov ölkəmizdə səfərdə olan ABŞ-ın qeyri-hökumət təşkilatı "Salaam Şalom Qardaşlığı" təşkilatının nümayəndə heyəti ilə görüşüb.

"Salaam Şalom Qardaşlığı" təşkilatı yəhudi və müsəlman qadınlardan ibarətdir. Təşkilatın əsas məqsədlərindən biri antisemitizm və islamofobiyaya qarşı mübarizədir.

Görüşdə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində aparılan islahatlar, Azərbaycanın təhsil sahəsində gender bərabərliyi, dinlərarası dialoq, tolerantlıq və multikulturalizm haqqında məlumat verilib. Həmçinin qonaqların çoxsaylı sualları cavablandırılıb və gələcək əməkdaşlıq imkanları müzakirə edilib.



# "Məktəblinin dostu" layihəsinin iştirakçılarına sertifikatlar verilib





Martın 10-da Təhsil Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə həyata keçirilən "Məktəblinin dostu" pilot layihəsi çərçivəsində ASAN Könüllülərinə sertifikatların təqdim olunması mərasimi keçirilib.

Tədbirdən öncə martın 9-da Bakı-Sumqayıt yolunda baş verən yol-nəqliyyat hadisəsi nəticəsində Sumqayıt Dövlət Universitetinin həlak olmuş tələbələrinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə təhsil nazirinin müavini Ceyhun Bayramov, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, ümumi təhsil məktəblərinin direktorları və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə "Məktəblinin dostu" pilot layihəsindən bəhs edən videoçarx nümayiş olunub.

Təhsil nazirinin müavini Ceyhun Bayramov bildirib ki, cari tədris ilində də təhsil sahəsində bir sıra mühüm əhəmiyyətə malik layihələr həyata keçirilib. Həmin layihələrdən biri olan "Məktəblinin dostu" Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən həyata keçirilir.

Ceyhun Bayramov qısa müddətdə əhəmiyyətli işlərin görülməsinin layihənin ideyasının aydın olmasından və bu işə peşəkar yanaşmadan xəbər verdiyini deyib. Nazir müavini qeyd edib ki, müəllim-şagird-valideyn üçbucağında münasibətlərin daha səmərəli müstəviyə çıxarılması baxımından "Məktəblinin dostu"nun üzərinə mühüm vəzifələr düşür.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev könüllülük fəaliyyətinin əhəmiyyətindən danışaraq, könüllülük hərəkatının inkişafını, gənclərin mövcud bilik və bacarıqların daha da təkmilləşməsindəki rolunu xüsusi vurğulayıb. O, həmçinin "Məktəblinin dostu" layihəsinə məzun ASAN könüllülərinin cəlb olunması və onların bu layihəyə müsbət töhfə verməsindən məmnunluğunu ifadə edib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva paytaxtın 30 ümumi təhsil müəssisəsini əhatə edən layihə üzrə 112 nəfər əməkdaşın çalışdığını bildirib. Layihə çərçivəsində indiyədək çoxsaylı tədbirlərin keçirildiyini nəzərə çatdıran BŞTİ-nin müdiri bütün bunların məktəb mühitinin səmərəliliyini daha da artırdığını qeyd edib.

Daha sonra "ASAN Xidmət" mərkəzlərində könüllülük fəaliyyətində iştirak edən "Məktəblinin dostu" seçilmiş şəxslərə sertifikatlar təqdim olunub.

Tədbirdə ASAN Könüllülərinin hazırladıqları bədii kompozisiyalar nümayiş etdirilib.

Qeyd edək ki, "Məktəblinin dostu" pilot layihəsi üzrə seçilmiş şəxslər ötən ilin dekabr ayından fəaliyyətə başlayıblar.

**www.edu.gov.az**

# Əmrdə dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" ilə müəyyən edilən xüsusi təhsilin keyfiyyətinin təminatı istiqamətində tədbirlərin davam etdirilməsi "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 31 may 2002-ci il tarixli 551 nömrəli əmrinin 1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

- "5 il pedaqoji təcrübəsi olan psixoloq, defektoloq yaxud ibtidai sinif müəllimi- komissiyanın sədri;
- pediatr - komissiya sədrinin müavini;
- Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinin əməkdaşı - komissiyanın üzvü;
- pedaqoq - komissiyanın üzvü;
- pedaqoq-katib - komissiyanın üzvü.

**2.** Respublika psixoloji-tibbi-pedaqoji komissiyasına (A.Xələfov) tapşırılsın ki, yerli psixoloji-tibbi-pedaqoji komissiyasının tərkibinə dair təklifləri 1 ay müddətində Nazirliyə təqdim etsin.

**3.** İnformasiya şöbəsi (E.Əliyev) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavininə (M. Eynullayev) həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*3 mart 2017-ci il*

# Xocalı məktəblilərinə kitablar hədiyyə olunub

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun əməkdaşları Pirşağıda yerləşən Xocalı rayonu 2 nömrəli tam orta məktəbində olublar.

Məktəblilərlə görüşən sektor müdiri Xatirə Hüseynova, aparıcı məsləhətçi Ramilə Qurbanlı, məsləhətçi Elvin Hətəmov onlara hərtərəfli inkişaf etmək və cəmiyyətdə öz yerini tutaraq layiqli vətəndaş kimi yetişmək üçün kitabların rolundan danışıblar. Uşaqların mütaliəyə marağını stimullaşdırmaq məqsədilə bu dəfə Xocalı məktəblilərinə Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcidin hədiyyə etdiyi 50 adda bədii kitab bağışlanıb. Şagirdlər öz yazdıqları şeirlərdən parçalar səsləndiriblər.

Məktəblilərlə görüşdə iştirak edən "Qaranquş" jurnalının baş redaktoru Aysel Zahidqızı nəşrin yeni sayını onlara hədiyyə edib. Baş redaktor onu da bildirib ki, məktəblilərin yaradıcılıq nümunələri vaxtaşırı jurnalda işıqlandırılacaq.

Şagirdlər Bilik Fondunun əməkdaşları ilə görüşdən məmnun olduqlarını bildiriblər.

Qeyd edək ki, ötən ay Bilik Fondunun "İmzalı görüş" layihəsi çərçivəsində Xocalı rayonu 2 nömrəli tam orta məktəbində "Qiraət saatı" keçirilib və uşaqlar yazar Mehriban Nağıyeva ilə görüşüblər.

# "Novruz mühazirələri" keçirilib

## Azərbaycan Dövlət İqtisad Universitetində



Martın 6-da Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) növbəti "Novruz mühazirəsi" keçirilib.

Budəfəki görüşdə UNEC-in iqtisadiyyatın tənzimlənməsi kafedrasının müdiri Məhiş Əhmədovun "Milli iqtisadiyyat üzrə strateji yol xəritəsi davamlı inkişafa keçid konsepsiyası kimi" mövzusunda mühazirəsi dinlənilib.

Mühazirədə UNEC-in rektoru Ədalət Muradov, universitetin professor-müəllim heyəti, təhsil ekspertləri və tələbələr iştirak ediblər.

Məhiş Əhmədov Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planından, 2025-ci ilədək və ondan sonrakı dövr üçün hədəf baxışdan ibarət olduğunu bildirib.

Mühazirəçi sənədin təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin SWOT təhlilini (GZİT- güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələrin təhlili), görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə etdiyini vurğulayıb.

Məhiş Əhmədov mühüm sənədin strateji hədəflərini açıqlayıb. Mövzuya Azərbaycan üçün qlobal və regional kontekstdən baxaraq, onilliklər ərzində iqtisadiyyata təsirlərin ilk əlamətlərinin artıq indidən görünməkdə olduğunu diqqətə çatdırıb.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Azərbaycan Dövlət Neft və Sənaye Universitetində



Martın 7-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) növbəti "Novruz mühazirəsi" keçirilib.

Görüşdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlının "Yeni texnologiyalar, yeni materiallar: gələcəyə baxış" mövzusunda mühazirəsi dinlənilib.

Mühazirədə ADNSU-nun professor-müəllim heyəti, universitetin İctimai Etimad Şurasının üzvləri, KİV təmsilçiləri iştirak ediblər.

Mustafa Babanlı mühazirəsində materialşünaslığın inkişaf tarixi, yeni texnologiyalar, onların həyatımızda rolu, materialşünaslıq və mühəndislik arasında sıx əlaqədən danışıb. Rektor smart materiallar, onların bugünkü və gələcək tətbiq sahələri haqqında məsələlərə toxunub.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## 6 nömrəli məktəb-liseydə



Martın 3-də Təhsil Nazirliyinin tabeliyindəki 6 nömrəli məktəb-liseydə növbəti "Novruz mühazirəsi" keçirilib.

Budəfəki görüşdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsil fakültəsinin dekanı Fərrux Rüstəmovun "Keyfiyyətli və səriştəli ibtidai təhsil müəllimi hazırlığının müasir problemləri" mövzusunda mühazirəsi dinlənilib.

Mühazirədə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, universitetin professor-müəllim heyəti, Bakı şəhərinin ümumi təhsil müəssisələrinin direktor və müəllimləri, təhsil ekspertləri iştirak ediblər.

Fərrux Rüstəmov mühazirəsində "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda səriştəli müəllim hazırlığı məsələlərinə xüsusi diqqət yetirildiyini, təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyinin önə çəkildiyini vurğulayıb.

Fərrux Rüstəmov müəllim əməyinin sosiyyəvi xüsusiyyətləri, peşə keyfiyyətləri barədə danışıb, pedaqoji ustalıq anlayışının mahiyyətinə aydınlıq gətirib. Müəllimlərin peşəkarlığının yüksəldilməsi sahəsində görülən işləri təqdir edən Fərrux Rüstəmov ibtidai sinif müəllimi hazırlığının təkmilləşdirilməsi ilə bağlı fikirlərini bildirib.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## IT STEP akademiyasında



Martın 9-da IT STEP akademiyasında növbəti "Novruz mühazirəsi" keçirilib.

Tədbirdən öncə martın 9-da Bakı-Sumqayıt yolunda baş verən yol-nəqliyyat hadisəsi nəticəsində Sumqayıt Dövlət Universitetinin həlak olmuş tələbələrinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Təhsil Nazirliyinin nümayəndələri, təhsil ekspertləri, ali təhsil müəssisələrinin müəllim və tələbələri iştirak edib.

Görüşdə millət vəkili Tahir Mirkişilinin "İnformasiyanın gələcəyi" mövzusunda mühazirəsi dinlənilib.

Millət vəkili mühazirəsində inkişafın əsas amili olan insan potensialından, süni intellektin yaradılmasından, texnoloji qeyri-adilik nəzəriyyəsindən söhbət açıb, informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətə və bütövlükdə dünyaya göstərdiyi təsirdən bəhs edib.

Dünyanı dəyişdirəcək yeni texnologiyaların sürətlə inkişaf etdiyini vurğulayan Tahir Mirkişili elmi-texnoloji yeniliklər nəticəsində hazırda yaşadığımız dövrün IV Sənaye inqilabının astanasında olduğunu diqqətə çatdırıb.

Tədbirdə iştirakçıları maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

Fevral ayından start verilən "Novruz mühazirələri"nin keçirilməsinin əsas məqsədi təhsil və elmin bu və ya digər sahələrinə dair mövzuların gündəmə gətirilməsi və populyar dildə təqdim olunmasıdır.

# ADNSU-da UFAZ-ın ilk idarəçilik iclası

Martın 9-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Fransız-Azərbaycan Universitetinin (UFAZ) ilk idarəçilik iclası keçirilib. İclasda Təhsil Nazirliyi Elm və ali təhsil şöbəsinin müdir müavini Yaqub Piriyev, Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Muxtar Məmmədov, Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez, ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Strasburq Universitetinin (Unistra) vitse-prezidenti Benoit Tock, UFAZ-ın direktoru Vazeh Əsgərov, UFAZ-ın baş katibi Şarlotta Payen və digərləri iştirak ediblər.



İclasda idarəçiliyin keçirilməsi qaydaları, üzvlərin, tədris planlarının, daxili qaydaların, maliyyə məsələlərinin müəyyənləşdirilməsi, təsdiqi və digər məsələlər müzakirə olunub. Bunlarla yanaşı iclasda UFAZ-ın Daxili Nizamnaməsinin təsdiq edilməsi, növbəti tədris ili üçün UFAZ-a yerli və xarici tələbələrin qəbul mexanizmi, UFAZ Fondunun yaradılması, UFAZ-ın növbəti tədris ili üçün nəzərdə tutulmuş maliyyə xərclərinin müzakirəsi geniş şərh olunub.

Görüşün sonunda ADNSU ilə Unistra arasında UFAZ-ın Elmi Komitəsinin formalaşdırılması və bir sıra məsələlərlə bağlı müqavilələr imzalanıb.

Qeyd edək ki, idarəçilik iclası hər akademik ildə 1 dəfə keçirilir. İclasda komitənin 5 üzvü iştirak edir. Komitə üzvləri tərəflərin təmsilçilərindən ibarətdir. Komitənin tərkibi beş nəfərdən təşkil olunub (ADNSU 1 nəfər - rektor və ya səlahiyyətli nümayəndəsi, Strasburq Universiteti 1 nəfər - rektor və ya səlahiyyətli nümayəndəsi, Fransa səfirliyi 1 nəfər - səfir, Təhsil Nazirliyi 2 nəfər). Xatırladaq ki, UFAZ-ın icraçı direktoru, baş katibi və Strasburq Universitetinin UFAZ üzrə Koordinatoru Komitənin iclaslarında iştirak edir, lakin səsvermə hüququna malik deyillər. İclasa digər maraqlı tərəflər də iştirak etmək üçün dəvət oluna bilərlər.

# Azərbaycan Dillər Universitetində təqdimat mərasimi

Martın 4-də Azərbaycan Dillər Universitetində (ADU) Azərbaycanın xalq şairi, əməkdar incəsənət xadimi Nəriman Həsənzadənin "Nabat xalanın çörəyi" əsərinin ingilis dilinə tərcümə olunmuş variantının təqdimat mərasimi keçirilib.



ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev xalq şairi N.Həsənzadənin yaradıcılığı haqqında qısa məlumat verib. Böyük şairin ədəbiyyatımıza verdiyi töhfələrdən danışan Ə.Abdullayev onun Azərbaycan poeziyasına insanın ruhuna, mənəvi aləminə dinclik gətirən misralar bəxş etdiyini qeyd edib. O, N.Həsənzadə yaradıcılığının hər kəs tərəfindən sevildiyini, maraqla qarşılandığını söyləyərək, bunun qüdrətli şairin poeziyasına, şəxsiyyətinə verilən dəyərin bariz nümunəsi olduğunu diqqətə çatdırıb. Professor şairin "Nabat xalanın çörəyi" əsərinin ingilis dilinə tərcümə olunmasını Azərbaycan ədəbiyyatının dünya miqyasında layiqincə təmsil olunması baxımından əlamətdar hadisə adlandırıb.

ADU-nun müəllimi, həmçinin kitabın redaktoru Şəhla Nağıyeva və tərcüməçisi Elnur İmanbəyli əsərin məzmunu haqqında məlumat verərək onun hər bir oxucu üçün örnək ola biləcəyini qeyd ediblər. Onlar əsərin milli koloritlə zəngin olmasının və Azərbaycan mədəniyyətinin ingilisdilli auditoriyaya çatdırılmasının tərcümə prosesinə xüsusi məsuliyyət qatdığını bildiriblər. Kitabın yaradıcı heyəti şairə fəaliyyətində uğurlar arzulayıb və onun nəzm əsərlərinin tərcümə olunmasının planlaşdırıldığını qeyd edib.

Sonda kitabın müəllifi, xalq şairi N.Həsənzadə təəssüratlarını iştirakçılarla bölüşüb. O, ADU-nun təqdimat mərasiminə ev sahibliyi etdiyinə görə universitet rəhbərliyinə və tərcümə komandasına dərin təşəkkürünü bildirib.

**İnformasiya Departamenti**

# AzTU-nun SABAH mərkəzinin tələbələri ilə görüş

Azərbaycan Texniki Universitetinin (AzTU) SABAH mərkəzinin bir qrup startapçı tələbəsi universitetin rektor əvəzi Xalıq Yahudovla görüşüb. Tələbələr rektor əvəzinə startap layihələri haqqında məlumat veriblər.



Bildirilib ki, martın 2-də keçirilən "SABAH" İnnovasiya Forumunda AzTU-nun SABAH mərkəzinin tələbələri 4 startap layihə təqdim ediblər.

"Wake Me Up" (Nulls), "LL" (Live longe), "Smart Energy" və "BeTa" (TİMOO) adlı layihələrin hər biri ayrılıqda böyük marağa səbəb olub.

Startapçılar təqdimatda layihələrin əhəmiyyəti haqqında geniş məlumat verib və öz biznes planlarını açıqlayıblar. Qeyd olunub ki, "Wake Me Up" layihəsinin reallaşdırılması təhlükəli zamanlarda yuxuya gedən insanlar üçün çox vacibdir. Bu layihənin məhsulu olan xüsusi eynəklər sükan arxasında yuxuya gedən sürücünü ultraqırmızı şüa vasitəsi ilə oyadır və baş verə biləcək qəzanın qarşısını alır.

"Smart Energy" layihəsi isə sənaye üçün çox böyük önəm kəsb edir. Belə ki, layihə çərçivəsində təkmilləşdirilən texnologiya sayəsində qaranlıq tunellərin alternativ enerji ilə işıqlandırılmasını nəzərdə tutur. Startapçılar bildiriblər ki, tunellərin girişçıxışına yerləşdirilən rezinlərin üstündən keçən avtomaşınlar eyni ilə işıqsaçan ayaqqabılar kimi qaranlıq tuneli işıqlandıracaq.

Startapçıların ideyalarını dinləyən rektor əvəzi tələbələrə bildirib ki, AzTU onların layihələrinin reallaşdırılması üçün hər bir şəraiti yaratmağa hazırdır. Xalıq Yahudov tələbələrlə söhbətində qeyd edib ki, dövlətin savadlı və innovativ biliklərə sahib olan gənclərə çox ehtiyacı var. Görüşdə tələbələrə tövsiyə olunub ki, bütün səylər birləşdirilərək, əhəmiyyətli layihələrin üzərində daha intensiv işlənsin və təkmilləşdirilərək sənayeyə tətbiq olunsun.

Qeyd edək ki, "SABAH" İnnovasiya Forumunda AzTU-nu "Nulls", "Smart Energy" və "BeTa" komandaları təmsil edib.

# AzScienceNet şəbəkəsi elm və təhsilin inteqrasiyasında mühüm vasitədir

Elm və təhsilin inteqrasiyasının təmin edilməsi Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son dövrlər ölkə rəhbərliyi tərəfindən təsdiq edilmiş bir sıra hüquqi sənədlər və siyasi qərarlar ölkəmizdə elm və təhsilin inteqrasiyası üçün mühüm hüquqi baza yaratmaqla bərabər, AMEA və Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında daha səmərəli əməkdaşlıq üçün yeni imkanlar açmışdır. Bunun nəticəsində elm və təhsilin əlaqələndirilməsi, informasiya texnologiyalarının tətbiqi yolu ilə onların inkişafının təmin edilməsi, təhsil prosesinin elmi innovasiyalar əsasında qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir.










AMEA-da magistratura təhsilinin təşkili, qurumun bir sıra elmi müəssisələri ilə ali təhsil müəssisələri arasında baza kafedralarının yaradılması, birgə kadr hazırlığına dair əməkdaşlıq, yüksəkixtisaslı kadr hazırlığı prosesinə beynəlxalq standartların tətbiqi, təhsil infrastrukturunun qurulması istiqamətində struktur dəyişikliklərinin həyata keçirilməsi və s. elm və təhsilin inteqrasiyası istiqamətində gerçəkləşdirilən mühüm tədbirlərdəndir. Bundan əlavə, şagirdlərin elmə maraqlarının artırılması üçün fənn olimpiadalarında alimlərin yaxından iştirakı, SABAH qruplarında təhsil alan tələbələrin akademiyanın elmi müəssisələrində təcrübə keçməsi AMEA və Təhsil Nazirliyi arasında elm və təhsilin inteqrasiyasının sürətləndirilməsinə xidmət edir.

Bu istiqamətdə əməkdaşlıq imkanlarını, birgə fəaliyyət istiqamətlərini və tərəflərin üzərinə düşən vəzifələri müzakirə etmək məqsədilə 21 dekabr 2016-cı il tarixində AMEA-nın Ümumi yığıncağı və Təhsil Nazirliyinin Kollegiyasının birgə elmi sessiyası keçirilmiş və birgə qərarı qəbul edilmişdir. Tədbirdə ali təhsil müəssisələrinin elmi fəaliyyətinin təşviqi və stimullaşdırılması, təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsi məqsədilə AMEA-nın elmi-tədqiqat müəssisələrində ali təhsil müəssisələri üçün təcrübə mərkəzlərinin təşkili, həmin mərkəzlərdə ali təhsil ocaqları tərəfindən tədqiqatların aparılması və elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesinə tətbiqi və digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

Müvafiq dövlət siyasətinə, AMEA ilə Təhsil Nazirliyi arasındakı əməkdaşlıq istiqamətlərinə uyğun olaraq, elm və təhsilin inteqrasiyasına böyük önəm verən AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu da İKT-nin imkanlarından geniş istifadə etməklə elmi fəaliyyətin müasir tələblərə uyğun təşkili və inkişaf etdirilməsi, elmi idarəetmənin təkmilləşdirilməsi, milli elmi informasiya fəzasının formalaşdırılması, beynəlxalq elmi mühitə inteqrasiya, kadr hazırlığının yüksək səviyyədə təşkili kimi mühüm istiqamətlər üzrə fəaliyyət göstərir. Həmçinin AMEA-nın elmi qurumlarında idarəetmə və aparılan elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi üçün elmi fəaliyyətin İKT-nin tətbiqi ilə yenidən qurulması işlərini həyata keçirir.

Bu baxımdan, AMEA-nın institut və təşkilatlarının dünya elminə inteqrasiyasını təmin edən, elm və təhsil şəbəkələri üzrə milli operator funksiyasını yerinə yetirən, ölkədə elektron elmin texnoloji platformasını təşkil edən AzScienceNet Elm-Kompüter Şəbəkəsi (EKŞ) elm və təhsilin inteqrasiyasında böyük imkanlara və perspektivlərə malikdir.

Data Mərkəz, İnternet xidmətləri mərkəzləri, Şəbəkə təhlükəsizliyi və AzScience CERT kimi şəbəkə əməliyyat mərkəzlərindən ibarət olan AzScienceNet vasitəsilə AMEA-nın elmi müəssisə və təşkilatlarının əməkdaşlarına Cloud Computing, Cloud Storage, Virtual laboratoriya, Hostinq, Eduroam, İP Telefoniya, paylanmış çoxterminallı məlumat xidməti, e-kitabxana, distant tədris və s. xidmətlər göstərilir.

AzScienceNet-in texniki imkanlarının genişləndirilməsi istiqamətində görülmüş işlər nəticəsində hazırda AMEA-nın 41 institut və təşkilatına məxsus 6500-ə yaxın kompüter avadanlığı fiber-optik kabel vasitəsilə AzScienceNet şəbəkəsinə qoşulmuşdur. Şəbəkəyə qoşulanların 97 faizi genişzolaqlı İnternetdən istifadə edir. AzScienceNet-in İnternetə qoşulma sürəti 1,41 Gbit/s, hesablama gücü 17 Tflops, xarici yaddaşının həcmi isə 400 Tbayt-a bərabərdir.

AMEA-nın institut və təşkilatları ilə yanaşı, ölkənin ali təhsil müəssisələri və digər elmi qurumlar şəbəkənin təqdim etdiyi, istifadəçilərin hesablama və yaddaş resursları ilə təmin olunmasına imkan verən Cloud Computing və AzScienceNet istifadəçilərinin dünyanın istənilən yerindən İnternet şəbəkəsinə qoşulmasına imkan verən Eduroam xidmətindən yararlanmaq imkanına malikdirlər. Bu istiqamətdə AMEA və Təhsil Nazirliyi arasında işgüzar əməkdaşlıq əlaqələrinin qurulması nəticəsində akademiyanın elmi-tədqiqat müəssisələri ilə yanaşı, ölkənin təhsil müəssisələri də AzScienceNet və onun Data Mərkəzinin xidmətlərindən yararlanmaq imkanına malikdirlər.

AzScienceNet dünyanın nüfuzlu beynəlxalq təşkilatları, o cümlədən Avropa Birliyinin müvafiq qurumları ilə sıx əməkdaşlıq əlaqələri quraraq akademiyanın institut və təşkilatları əməkdaşlarının dünyanın elm və təhsil şəbəkələrinin təqdim etdiyi imkanlardan yararlanmasına, eləcə də ölkəmizdə fəaliyyət göstərən elmi qurumların qabaqcıl texnologiyalar və xidmətlərdən istifadəsinə şərait yaradır. Belə ki, AzScienceNet şəbəkəsi 2015-ci ildə AMEA, Təhsil Nazirliyi və Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə Azərbaycan elm və təhsil mühitini Avropanın elm, təhsil fəzasına inteqrasiya etmişdir. Şəbəkə ölkəmizdə dünya standartlarına uyğun texnologiya və xidmətlərin istifadə edilməsinə, tədqiqatçılarımızın bu mühitdə daha səmərəli fəaliyyət göstərməsinə imkan verən Avropa Elm və Təhsil Şəbəkələri Assosiasiyasında (Gigabit European Advanced Network Technology - GEANT) milli operator statusunda üzvlüyə qəbul olunmuşdur. AzScienceNet şəbəkəsi GEANT-da ölkəmizi səlahiyyətli qurum kimi təmsil edir.

Assosiasiyanın təşəbbüsü və koordinasiyası ilə Şərqi Avropa ölkələrini birləşdirən elm və təhsil üzrə yüksəksürətli regional İnternet şəbəkəsinin yaradılması və bu ölkələrin Avropanın elektron elm infrastrukturuna qoşulması üçün Avropa Komissiyası tərəfindən maliyyələşdirilən “EaPConnect” (Eastern Partnership Connect) layihəsi həyata keçirilir. AzScienceNet-in “EaPConnect” layihəsində iştirakı yerli alim, tələbə və tədqiqatçıların qlobal tədqiqat və təhsil əməkdaşlığında iştirakının asanlaşdırılmasına, o cümlədən alimlərin öz tədqiqatlarında böyükhəcmli verilənlərdən birgə istifadə etməsinə və böyükmiqyaslı elmi layihələr həyata keçirməsinə imkan yaradır.

AzScienceNet şəbəkəsi 2016-cı ildən GEANT assosiasiyası tərəfindən İnternetə 1 Gbit/san sürətlə çıxış imkanı əldə edib ki, bu da yüksəksürətli genişzolaqlı şəbəkə vasitəsilə elmi bazalara çıxışı və böyükhəcmli, etibarlı informasiya mübadiləsini təmin edərək beynəlxalq elmi əməkdaşlığa təkan verir. Bunun nəticəsində əldə olunan elmi və texnoloji yeniliklər ölkənin elm və təhsil ictimaiyyətinə böyük töhfədir.

“EaPConnect” çərçivəsində texniki dəstək göstərilməsi üçün Avropa ölkələrində keçirilən “Tədqiqatını işıqlandır” (“Enlighten your Research”) müsabiqəsinin təşkil edilməsi də təklif olunur. Müsabiqə qaliblərinin 2017-ci ildə “EaPConnect” layihəsinin Tbilisi şəhərində keçiriləcək illik yığıncağında müəyyən olunması planlaşdırılır.

Layihə çərçivəsində yaradılan texnoloji imkanlardan və yeni xidmətlərdən AMEA-nın qurumları ilə yanaşı, ali məktəblər, kitabxanalar və digər elmi təşkilatların istifadəsi, həmçinin böyük verilənlərin saxlanılması, ötürülməsi və emalı ilə məşğul olan digər təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulması təklif olunur.

Bununla yanaşı, AMEA İnformasiya Texnologiyaları İnstitutu GEANT-ın “Horizon 2020” proqramı çərçivəsində həyata keçirdiyi “GN4” layihəsində iştirak etmək üçün dəvət olunmuşdur. Həmçinin Şərq Tərəfdaşlığı ölkələrində Eduroam xidmətinin yaradılması və inkişaf etdirilməsi iştirakçılar arasından AMEA İnformasiya Texnologiyaları İnstitutuna həvalə edilmişdir.

AMEA-nın elmi müəssisə və təşkilatlarının, həmçinin Təhsil Nazirliyinin ali təhsil və elmi müəssisələrinin AzScienceNet-in xidmət və imkanlarından daha səmərəli istifadəsini təmin etmək məqsədilə 31 yanvar 2017-ci il tarixində müvafiq qurumların məsul şəxsləri üçün “AzScienceNet: mövcud vəziyyəti, imkanları və inkişaf perspektivləri” mövzusunda respublika elmi-praktik seminar keçirilib. Seminardan sonra iştirakçılar bu tədbirin onlar üçün çox əhəmiyyətli olduğunu, AzScienceNet-in xidmət və imkanlarından istifadə etməyə qərar verdiklərini bildiriblər.

İnformasiya Texnologiyaları İnstitutu və Təhsil Nazirliyi arasında əməkdaşlıq əlaqələrinin inkişafı, elm və təhsilin inteqrasiyası nəticəsində əldə olunan nailiyyətlərin, elmi innovasiyaların təhsil mühitinə transformasiyası nəzərdə tutulur. O cümlədən, ölkənin təhsil müəssisələrinə İnternet xidmətləri göstərən AzEduNet təhsil şəbəkəsi ilə AzScienceNet şəbəkəsi arasında əməkdaşlıq əlaqələrinin qurulması hər iki qurum üçün əməkdaşlıq perspektivlərinin genişlənməsinə və yeni imkanların yaranmasına gətirib çıxaracaq. Bunun nəticəsində, təhsil müəssisələri AzScienceNet-in göstərdiyi xidmətlərdən, GEANT assosiasiyası tərəfindən verilən İnternetə 1 Gbit/san sürətlə çıxış imkanından istifadə edə biləcəklər.

Məlum olduğu kimi, artıq bir neçə ildir ki, Naxçıvan və Gəncədə fəaliyyət göstərən elmi-tədqiqat müəssisələri və universitetlərdə təhsil alan doktorant və dissertantlara informatika fənninin tədrisi institutun Distant Tədris Mərkəzi vasitəsilə həyata keçirilir. 2016-cı ildən həmin bölgələrdə yaşayan elmi tədqiqatçılar üçün informatika fənni üzrə imtahanlar İnternet üzərindən distant formada götürülür.

Qeyd olunan regional elm və təhsil müəssisələrinə dərslər AzScienceNet şəbəkəsi üzərindən videokonfrans sistemi ilə həyata keçirilir. Regional bölgələrlə yanaşı, dünyanın aparıcı elmi-tədqiqat müəssisələrində doktorant və dissertantların məsafədən təhsil alması, onlayn seminar və konfransların keçirilməsi, Bakıya gələn mötəbər qonaqların bir araya toplanması, alimlər arasında ölkədaxili, həmçinin beynəlxalq əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi üçün geniş imkanlar yaradan mərkəz ölkədə vahid elm və təhsil mühitinin formalaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir.

Bununla yanaşı, ölkəmizdə virtual distant təhsilin formalaşması üçün intellektual öyrədici onlayn resurslar, həmçinin biliklərin qiymətləndirilməsi üçün intellektual testoloji məhsulların hazırlanmasına, müasir dövrün çağırışları və reallıqları kontekstində pedaqoji və digər əlaqəli elmlərin qarşısında duran problemlərin araşdırılmasına multidissiplinar akademik elmi dəstəyin verilməsinə ehtiyac vardır.

AMEA və Təhsil Nazirliyi arasında mövcud olan qarşılıqlı etimad və əməkdaşlıq əlaqələri şəraitində qeyd edilən problemlərin effektli həlli üçün əlverişli zəmin yaranmışdır.

**Samirə KƏRİMOVA,**
*“Azərbaycan müəllimi”*


**Qonaqlar institutun Distant Tədris Mərkəzi ilə tanış olur**


**İnstitutun Elektron Kitabxana Mərkəzinin açılışı**


**AMEA və Təhsil Nazirliyi arasında əməkdaşlıq perspektivləri müzakirə edilir**


**AzScienceNet-in yeni xidmət mərkəzi**


**Tədris-İnnovasiya Mərkəzində imtahan prosesi**


**Distant Tədris Mərkəzində eyni vaxtda Naxçıvan və Gəncənin doktorant və dissertantlarına informatika kursu tədris edilir**

# Azərbaycan Dövlət Pedaqoji Universiteti Elmi Şurasının növbəti iclası keçirilib

Martın 9-da Azərbaycan Dövlət Pedaqoji Universiteti Elmi Şurasının növbəti iclası keçirilib. İclasda payız semestrinin imtahan sessiyasının yekunları, ADPU-nun nəzdində Dissertasiya Şurasının, universitetin Kitabxana-İnformasiya Mərkəzinin fəaliyyətləri barədə və cari məsələlər müzakirə olunub. Elmi Şura üzvləri ilə yanaşı, ADPU-da fəaliyyət göstərən İctimai Şuranın üzvlərinin də iştirak etdiyi iclası bu ali təhsil müəssisəsinin rektoru, professor Cəfər Cəfərov açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb. Çıxışında universitetdə həyata keçirilən islahatlardan, təhsilin keyfiyyətini yüksəltmək, yaradıcı və şəffaf təhsil mühiti formalaşdırmaq, idarəçiliyi təkmilləşdirmək üçün atılan addımlardan danışan rektor bu istiqamətdə aparılan işlərin davamlı olacağını bildirib. Professor Cəfər Cəfərov universitetdə yaradılan İctimai Şuranın payız semestrinin imtahan sessiyası dövründəki səmərəli işini müsbət dəyərləndirərək onun təkcə imtahan dövründə deyil, bütün tədris ili boyu fəaliyyət göstərməsi, universitetin həyatı ilə bağlı bütün məsələlərdə, xüsusən də təhsilin-tədrisin təşkilində fəal iştirak etməsi barədə irəli sürülən təklifləri dəstəkləyib.

Sonra universitetin Tədrisin İdarə Olunması və Tədris Texnologiyaları Mərkəzinin direktoru, dosent Sənan Əliyev ADPU-da payız semestrinin imtahan sessiyasının yekunları barədə məlumat verib. S.Əliyev hesabat məruzəsində sessiyaya hazırlıqla bağlı görülən işlərdən, imtahanların keçirilməsindən, Apelyasiya Komissiyasının, imtahan qərargahlarının fəaliyyətindən ətraflı söz açıb, müvəffəqiyyət və keyfiyyət göstəricilərini diqqətə çatdırıb. Qeyd olunub ki, 2016-2017-ci tədris ilinin payız semestrində universitet üzrə bakalavriat səviyyəsində əyani şöbədə 9063 tələbə təhsilə cəlb edilib. Onlardan 8879 nəfər imtahanlarda iştirak edib. 6709 tələbə müvəffəq qiymət alıb. Universitet üzrə müvəffəqiyyət 76 faiz olub. 680 nəfərinin təhsil aldığı qiyabi şöbədə isə 601 nəfər imtahanlarda iştirak edib, 462 nəfər müvəffəq qiymət alıb. Qiyabi şöbə üzrə müvəffəqiyyət 77 faiz təşkil edib.



Magistratura səviyyəsində təhsil alan 807 tələbədən 789-u imtahan verib, 687 nəfər müvəffəq qiymət alıb. Bu təhsil pilləsi üzrə müvəffəqiyyət 87 faiz olub.

Məruzəçi diqqətə çatdırıb ki, sessiya dövründə yazılı imtahanlarla bağlı 1480, test imtahanları ilə bağlı isə 140 olmaqla cəmi 1620 ərizə daxil olub. Onlardan qiymətləndirmə düzgün olmadığı üçün yazılı keçirilən imtahanlarda 416, testlə keçirilən imtahanlarda isə 14 tələbənin müraciəti müsbət həll olunub.

S.Əliyev çıxışının sonunda növbəti mərhələlərdə tədrisin keyfiyyətini artırmaq və baş vermiş nöqsanları aradan qaldırmaq üçün bəzi təklifləri diqqətə çatdırıb.

Hesabat məruzəsi ətrafında çıxışlar olub. Korrupsiyaya Qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov, "Cəmiyyət və Vətəndaş Münasibətləri" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli, "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Bayram Hüseynzadə, universitetin əməkdaşları, professorlar Ələkbər Qurbanov, Nailə Verdizadə və b. söz alaraq son dövrlərdə ADPU-da təhsilin inkişafı və keyfiyyətinin yüksəldilməsi, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması, şəffaflığın artırılması, neqativ halların aradan qaldırılması istiqamətində reallaşdırılan tədbirləri yüksək qiymətləndirib, ictimaiyyət tərəfindən müsbət qarşılanan bütün bu işlərin yaxın gələcəkdə öz bəhrəsini verəcəyinə inamlarını ifadə ediblər. Çıxış edənlər habelə payız semestrinin imtahan sessiyasında şəffaflığın, tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmin edildiyini vurğulayıblar.

Elmi Şura iclasında ADPU-nun nəzdində Dissertasiya Şurasının 2014-2016-cı illəri əhatə edən fəaliyyəti haqqında bu qurumun sədr müavini, professor Əbülfət Pələngov, Kitabxana-İnformasiya Mərkəzinin fəaliyyəti barədə kitabxananın direktoru Azər Hüseynov məlumat veriblər.

Sonda cari məsələlər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*

# Beynəlxalq Qadınlar Günü qeyd olunub

## Bakı Slavyan Universitetində



Martın 7-də Bakı Slavyan Universitetində (BSU) 8 mart - Beynəlxalq Qadınlar Günü ilə əlaqədar təntənəli bayram tədbiri keçirilib. Tədbir universitetin foyesində Rəssamlar Klubunun üzvlərinin qadınlara həsr olunmuş əl işlərindən ibarət sərgisinin nümayişi ilə başlanıb.

Tədbirdə çıxış edən BSU-nun rektoru, professor Nurlana Əliyeva bütün xanımları əlamətdar gün münasibətilə səmimi-qəlbdən təbrik edib. Rektor Azərbaycan cəmiyyətində bu gün stabillik olmasını xüsusi vurğulayaraq bunun ümummilli lider Heydər Əliyev siyasətinin nəticəsi olduğunu diqqətə çatdırıb: "Biz bütün bunlara görə dövlətimizin rəhbərliyinə minnətdar olmalıyıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu siyasəti sayəsində Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik prinsipləri tam bərqərar olmuşdur".

N.Əliyeva bayram münasibətilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ünvanına təbrik səsləndirib və Azərbaycanın dünyaya tanıdılmasında gördüyü böyük işlərdə ona uğurlar diləyib. Xanımlarımızı ölkənin birinci xanımından nümunə götürməyə səsləyib.

Sonra BSU-nun tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov və elmi işlər üzrə prorektor, professor Rafiq Novruzov universitetin xanımlarını təbrik edərək humanizmin, insansevərliyin məhz qadın ruhunun, qadın qəlbinin bəhrəsi olduğunu diqqətə çatdırıblar.

Sonra BSU-nun fəxri fərmanları universitetin ən qocaman və uzun illər təcrübəsi olan xanım müəllimlərinə təqdim edilib.

Bayram tədbiri respublikanın xalq artistləri Yalçın Rzazadə, Gülyanaq Məmmədova, əməkdar artist Ədalət Şükürovun çıxışları ilə davam edib.

**Mətbuat xidməti**

## Sumqayıt Dövlət Universitetində



Martın 7-də Sumqayıt Dövlət Universitetində 8 mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə bayram tədbiri keçirilib.

Tədbiri ali təhsil müəssisəsinin rektoru, professor Elxan Hüseynov açaraq bütün xanımları bayram münasibəti ilə səmimi-qəlbdən təbrik edib. Zəriflik və gözəllik rəmzi olan qadın adının, ana adının tarix boyu vətənimizdə həmişə uca tutulduğunu, Azərbaycan qadınının bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli - mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında misilsiz xidmətlər göstərdiyini qeyd edib. Bildirilib ki, Azərbaycan qadını ölkəmizi bütün dünyada ləyaqətlə təmsil edir. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bütün dünyaya sübut edir ki, Azərbaycan qadını həm gözəl ana, həm də fəal ictimai xadim ola bilər. Onun ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər, xeyirxah əməllər Azərbaycan qadınının nə qədər fəal olduğunu təsdiq edir. Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması qadın statusuna verilən dəyərdir.

Rektor onu da vurğulayıb ki, rəhbərlik etdiyi ali təhsil ocağında çalışan qadın əməkdaşlar universitetin ictimai-siyasi, mədəni və iqtisadi həyatında fəal iştirak edirlər.

Tədbir respublikamızın tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin və "Səma" rəqs qrupunun ifalarında maraqlı konsert proqramı ilə davam edib.

**Mətbuat xidməti**

## "Naxçıvan" Universitetində

"Naxçıvan" Universitetində Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib. Universitetin rektoru, professor İsmayıl Əliyev əlamətdar gün münasibətilə qadınları təbrik edib, Beynəlxalq Qadınlar Gününün yaranma tarixinə nəzər salıb, bu bayramın dünyanın əksər ölkələrində qeyd olunduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, Azərbaycanda qadına - anaya daim böyük ehtiram və hörmət bəslənmiş, ana adı hər zaman müqəddəs olmuş, namus, qeyrət rəmzi sayılmışdır. Müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarımızın adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Qadınlar dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş etmişlər. Ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Ulu öndər ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi. Zaman keçdikcə, bütün dünyada olduğu kimi, Azərbaycan cəmiyyətində də qadının rolu daha da artdı, qadınlar ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrildi.

Rektor onu da vurğuladı ki, artıq muxtar respublikamızda müxtəlif peşə sahələrində çalışan qadınların sayı ilbəil artmaqdadır. Təhsil, səhiyyə, mədəniyyət sahələri ilə yanaşı, qadınlarımız həm də hüquq-mühafizə, məhkəmə və digər orqanlarda ləyaqətlə xidmət edir, elm və texniki sahələrində fəaliyyət göstərirlər. Dövlət qadın siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir ki, qadınlarımız istər icra, istərsə də yerli özünüidarəetmə orqanlarında geniş təmsil olunur, yüksək və məsul vəzifələrə təyin olunurlar. Eyni zamanda, hər il muxtar respublikamızda təhsil, səhiyyə, mədəniyyət, dövlət qulluğu və digər sahələrdə səmərəli fəaliyyət göstərən qadınların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Qadınlarımız isə göstərilən qayğıya əməli işləri ilə cavab verirlər.

Sonda universitetin qadın əməkdaşlarına hədiyyələr təqdim olundu.

**Nuray ƏSGƏROVA**

# Azərbaycan Memarlıq və İnşaat Universitetində "İtalyansayağı dizayn günü" keçirilib



Azərbaycan Memarlıq və İnşaat Universitetində İtaliyanın Azərbaycandakı səfirliyi və İtaliya Müəssisələrinin Təşviqi və Beynəlmiləlləşdirilməsi Təşkilatının təşəbbüsü ilə "Italy's Design Day-İtalyansayağı Dizayn Günü" adlı tədbir keçirilib. Tədbirdə İtaliyanın Azərbaycandakı səfiri Campaolo Kutillo, İtaliya Müəssisələrinin Təşviqi və Beynəlmiləlləşdirilməsi Təşkilatının (ICE) Bakı ofisinin direktoru Luigi D'Aprea, dəvət olunmuş italyan memar Luca Molinari, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə və başqaları iştirak edib.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova tədbiri giriş sözü ilə açaraq qonaqları salamlayıb. Belə mühüm bir tədbirin AzMİU-da keçirilməsi üçün təşkilatçılara təşəkkürünü bildirən rektor bunu Azərbaycan - İtaliya dostluğunun təzahürü kimi dəyərləndirib.

İtaliyanın Azərbaycandakı səfiri Campaolo Kutillo qeyd edib ki, İtaliya Dizaynı Günü bu il ilk dəfə dünyanın 35-dən çox şəhərində keçirilir. Masterklasın keçiriləcəyi şəhərlər arasında Bakı, Barselona, Berlin, Çikaqo, Dubay, London, Meksika, Mayami, Milan, Moskva, Nyu-York, Paris, Pekin, Seul, Şanxay, Tehran, Təl-Əviv, Tokio, Toronto və s. şəhərlər də vardır. Səfir vurğulayıb ki, bütün dünyada İtalyansayağı Dizayn Günü çərçivəsində "Made in Italy" adı ilə keçiriləcək layihədə italyan memarlıq və dizayn sahəsinin sirləri, tarixi, özünəməxsusluğu, innovasiyası, istifadə olunan materialların keyfiyyəti, ekoloji cəhətdən zərərsizliyi müzakirə olunur.

Tədbirdə İtaliyanın dövlət televiziyası RAI1 tərəfindən masterklasa həsr olunan video nümayiş etdirilib.

Müzakirənin sonunda qonaqlar iştirakçıları maraqlandıran sualları cavablandırıblar, masterklasın hər il keçirilməsi, bundan əlavə, italyan tikinti materiallarının nümayiş olunacağı sərginin təşkili nəzərdə tutulub.

# Tələbə elmi konfransı

Azərbaycan Dövlət "Yuğ" teatrında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Tələbə Elmi Cəmiyyəti və teatrşünaslıq kafedrasının təşəbbüsü ilə "XX əsrin teatr tendensiyaları" mövzusunda tələbə elmi konfransı keçirilib. Konfransda universitetin teatrşünaslıq kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə və Azərbaycan Teatr Treninq Mərkəzinin direktoru, beynəlxalq layihələr üzrə müşavir Şaiq Səfərov "XX əsrin teatr tendensiyaları" mövzusu ilə bağlı fikirlərini bölüşüblər.

ADMİU-nun teatr sənəti fakültəsinin müəllimi Elçin Cəfərov "XX əsr. Teatrdan qeyri-teatra doğru", tələbələrdən Dilşad Əhmədzadə "Meyerholdun teatr metodunun konseptual mahiyyəti", İlahə Quliyeva "B.Brextin "Epik teatr nəzəriyyəsi", Dağlar Yusif "M.Çexov "Aktyor texnikası - "nurlanmış aktyor"a doğru", Nadir Əhmədov "Y.Qrotovski "Yoxsul teatr poetikası", Nisə İbadlı "A.Arto və "Qəddarlıq teatrı" və Emin Əliyev "T.Kantor və "Ölüm teatrı" mövzularında çıxış ediblər.

Sonda konfrans iştirakçıları mövzu ətrafında müzakirələr aparıblar.

**Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

## ADPU-nun musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsində görüş

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru, professor Cəfər Cəfərov universitetin 3-cü tədris binasında fəaliyyət göstərən musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsinin professor-müəllim heyəti və tələbə kollektivi ilə görüş keçirib. Rektor Cəfər Cəfərov tədris auditoriyalarında olaraq tələbələrlə söhbət edib, onların arzu və istəkləri ilə maraqlanıb, fikir və təkliflərini dinləyib. Rektor musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsində yeni yaradılmış kiçik zalla da tanış olub.

Fakültənin dekanı, dosent Laçın Həsənova tədris prosesi, aparılan elmi-tədqiqat işləri, həyata keçirilən layihələr, ictimai-mədəni tədbirlər barədə məlumat verib. Görüşdə həmçinin yeni yaradılmış musiqi və onun tədrisi metodikası kafedrasının müdiri, professor Zemfira Abdullayeva kafedranın həyata keçirəcəyi işlər haqqında məlumat verib. Sonra fakültə müəllimlərinin və "Musiqi müəllimliyi" ixtisasında təhsil alan tələbələrin ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri dinlənilib.

Sonda rektor Cəfər Cəfərov görüşdən məmnun qaldığını bildirərək müəllim və tələbələrə tapşırıq və tövsiyələrini verib.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

# UNEC ilə Süleyman Dəmirəl Universiteti arasında gələcək əməkdaşlıq imkanları müzakirə edilib

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov, Milli Məclisin deputatı Tahir Mirkişili, UNEC-in türk dünyası işlətmə fakültəsinin dekanı Fərrux Tuzcuoğlu və universitetin distant, qiyabi və əlavə təhsil mərkəzinin direktoru Səbuhi Tanrıverdiyev Türkiyənin Süleyman Dəmirəl Universitetində (SDU) səfərdə olublar. Dörd gün davam edən səfərin məqsədi iki universitet arasında əməkdaşlığın genişləndirilməsidir.

Səfərin ilk günü nümayəndə heyəti İsparta şəhər valisi Şehmus Günaydın və İsparta Bələdiyyəsinin sədri Yusif Ziya Günaydınla görüşüb. UNEC-in rektoru, professor Ədalət Muradov təhsilin inkişafının hər iki ölkə üçün əhəmiyyətini vurğulayıb. Şəhər valisi universitetlər arasında əməkdaşlığın tez bir zamanda ən yüksək səviyyəyə yüksələcəyinə əminliyini ifadə edib.

Süleyman Dəmirəl Universitetinin rektoru, professor İlker Hüseyin Çarıkçı ilə görüşdə rektor Ə.Muradov UNEC-də fəaliyyət göstərən türk dünyası işlətmə fakültəsinin işinin daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. Bu istiqamətdə birgə fəaliyyətlə bağlı görüləcək işlər müzakirə edilib. Görüşdə, həmçinin yaxın zamanda iki universitet arasında ikili diplom layihəsinin reallaşdırılması ilə bağlı ilkin razılıq əldə olunub.

Nümayəndə heyətinə Süleyman Dəmirəl Universitetində distant təhsilin reallaşdırılması sahəsində əldə edilən uğurlar barədə ətraflı məlumat verilib. Universitetin Türkiyədə bu sahədə böyük təcrübəyə, həmçinin zəngin maddi-texniki bazaya malik olduğu diqqətə çatdırılıb, prosesin texniki tərəfləri praktiki nümunələrlə təqdim edilib. Nümayəndə heyəti, həmçinin Süleyman Dəmirəl Universitetində katiblik işinin təşkili, iş prinsipi və digər strukturlarla qarşılıqlı fəaliyyəti ilə maraqlanıb, ali təhsil müəssisəsinin "Bilgi Mərkəzi" adlanan mərkəzi kitabxanası ilə tanış olublar.

Səfər çərçivəsində UNEC-in nümayəndə heyəti adıçəkilən universitetdə təşkil edilən "Müstəqilliyin 25-ci ilində Azərbaycan" adlı konfransa da qatılıb. Milli Məclisin deputatı T.Mirkişili Azərbaycanın müstəqillik illərində daxili və xarici siyasətdə əldə etdiyi uğurlardan və iqtisadi nailiyyətlərdən söz açıb. UNEC-in rektoru Ə.Muradov həmin dövrdə Azərbaycanda təhsil sahəsində görülən işlər, əldə edilən uğurlar, təhsilin maddi-texniki bazasının gücləndirilməsi və peşəkar kadrların dünyanın aparıcı təhsil mərkəzlərində hazırlanması ilə əlaqədar dövlətin reallaşdırdığı tədbirlərdən danışıb, rəhbərlik etdiyi ali təhsil müəssisəsinin son 3 ildə əldə etdiyi nailiyyətləri qeyd edib.

Nümayəndə heyəti Süleyman Dəmirəl Universitetində iqtisadyönümlü təhsil alan azərbaycanlı tələbələrlə də görüşüb, onları maraqlandıran sualları cavablandırıb.

Səfər çərçivəsində nümayəndə heyəti Süleyman Dəmirəlin məzarını və ev-muzeyini ziyarət edib, yeni istifadəyə verilən Turan Yazqan adına İsparta Etnoqrafiya Muzeyində olublar.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

# Hindistan Respublikasının səfiri Naxçıvan Dövlət Universitetində olub

Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonağı salamlayaraq 50 illik tarixə malik ali təhsil müəssisəsinin təhsilin inkişafına göstərilən hərtərəfli dövlət qayğısından bəhrələndiyini bildirib.

Universitetin İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi ilə tanışlıq zamanı hindistanlı diplomata müasir elektron təhsil şəbəkəsinin idarə olunması, elektron sənəd dövriyyəsinin təşkili, ali təhsil müəssisəsinin bütün binalarının şəbəkə fiber optik kabellə birləşdirilməsi, kamera-nəzarət sistemi, 108 hektarlıq kampusu əhatə edən "Wi-Fi" simsiz internet şəbəkəsi barədə məlumat verilib. Media mərkəzində yaradılan rəqəmsal multimedia infrastrukturu, Universitet Televiziyasında videodərslərin "HD" formatda çəkilib yaddaşa yazılması, universitetin internet portalındakı elektron mühazirə bölməsində yerləşdirilməsi prosesi, "Nuhçıxan" radiosunun fəaliyyəti maraqla qarşılanıb.



Rektor daha sonra səfirə universitetin maddi-texniki bazası, professor-müəllim heyəti, mövcud fakültə və ixtisaslar haqqında da geniş məlumat verib.

Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana Hindistan universitetlərinin Azərbaycanın bir sıra ali təhsil müəssisələri ilə uğurlu əməkdaşlığından danışıb, Naxçıvan Dövlət Universiteti ilə virtual əlaqələrin inkişafı, müştərək elmi tədqiqat işlərinin aparılması, tibb, memarlıq və mühəndislik ixtisaslarının tədrisi, informasiya-kommunikasiya texnologiyalarından istifadə sahəsində əlaqələrin perspektivlərindən bəhs edib.

Sonra səfirin xarici ölkə vətəndaşlarının universitetdə təhsil almaq imkanları, bakalavr, magistratura və doktorantura pillələri üzrə təhsilin səviyyəsi ilə bağlı sualları cavablandırılıb.

Görüş universitetin Elmi kitabxanası ilə tanışlıqla yekunlaşıb. Burada qonağa kitabxananın 160000-dən yuxarı fonda malik olması, 45000-ə yaxın çap məhsulunu əhatə edən elektron kataloq-kartoteka sistemi, elektron kataloq köşkü və İnternet mərkəzinin fəaliyyəti ilə bağlı məlumat verilib.

**Mehriban SULTAN,**
*Mətbuat şöbəsinin müdiri*

## "Naxçıvan" Universitetində elmi-praktik konfrans

"Naxçıvan" Universitetində bu ali məktəbin professor-müəllim heyətinin 2016-cı ildə yerinə yetirdikləri elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktik konfrans keçirilib.

Konfransın plenar iclasını giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, elm və təhsilin bir-biri ilə qarşılıqlı əlaqəsi, təhsilin elmlə sintezi olmadan müasir təhsil inkişaf edə bilməz. Bu proses eyni zamanda ali məktəblərin pedaqoji potensialını inkişaf etdirməyə, tədris proqram və kursların məzmununu, təhsil texnologiyalarını və metodlarını yeniləşdirməyə imkan verir.

Rektor rəhbərlik etdiyi ali təhsil ocağında son illər həyata keçirilən islahatlar haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, "Naxçıvan" Universitetində elm sahəsində müsbət dəyişikliklər baş verib, elmi-tədqiqat işlərinin aktuallığına, yeniliyinə, praktiki əhəmiyyətinə xüsusi önəm verilərək onların nəticələri tədris prosesində geniş tətbiq olunub.

Sonra universitetin iqtisadiyyat kafedrasının dosenti Əli Cabbarovun "Turizm marşrutları və turizm xidmətlərində onların əhəmiyyəti", xarici dillər kafedrasının müdiri Anara Nəsirlinin "İngilis ədəbiyyatında XIX əsr ədəbiyyatının mahiyyəti və əhatə etdiyi dövrlər tədqiqat obyekti kimi", professor Sədaqət Həsənovanın "Əbülfəz Muxtaroğlunun dil, üslub xüsusiyyətləri" mövzularında məruzələri dinlənilib.

Konfrans öz işini "Riyaziyyat və informatika", "Xarici dillər", "İdarəetmə", "Təbiət elmləri", "İqtisadiyyat", "Pedaqogika və psixologiya", "Ümumi tarix", "Azərbaycan dili və ədəbiyyat" bölmələri üzrə davam etdirib.

**Nuray ƏSGƏROVA**

# "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda konfrans

Mingəçevir Dövlət Universitetində, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin və MDU-nun təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda konfrans keçirilib. Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə imzalanmış "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" 2017-ci il üçün fəaliyyət planına uyğun olaraq keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin məsul nümayəndələri, universitetin professor, müəllim və tələbələri iştirak ediblər.



Konfransda giriş sözü ilə çıxış edən Mingəçevir Dövlət Universitetinin rektoru Akif Hacıyev bildirib ki, Azərbaycan hər zaman İslam həmrəyliyi prinsipindən çıxış edib. İslam hər kəsi terrora, zülmə, əsarətə deyil, azadlığa və insan haqlarının qorunmasına, günahsız insanlara qarşı mərhəmət nümayiş etdirməyə dəvət edir. O vurğulayıb ki, bu il Azərbaycanda 4-cü İslam Həmrəylik Oyunları keçiriləcək və 2018-ci ildə Naxçıvan İslam mədəniyyətinin paytaxtı elan edilib. 2016-cı ildə ölkəmizə axın edən turistlərin əksəriyyəti də məhz müsəlman ölkələrinin vətəndaşlarıdır. Bu ilin "İslam həmrəyliyi ili" elan edilməsi Azərbaycanın müsəlman dünyasında nümunəvi ölkə olduğunu bir daha sübut edir.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilməsi ötənilki "Multikulturalizm ili"nin məntiqi davamıdır. Bu, eyni zamanda Azərbaycanın İslam dünyası ilə münasibətlərinin strateji əhəmiyyətini, ölkəmizin İslam dünyasının vəhdətinə verdiyi önəmi göstərir.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Əlisa Fərəcov "İslam həmrəyliyi: müasir çağırışlar", Mingəçevir Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının baş müəllimi İlhamə İsmayılova "İslam ideologiyasının psixoloji aspektləri", humanitar fənlər kafedrasının müəllimi Üzeyir Zeynalov "Sivilizasiyaların inteqrativ münasibətləri və dialoqunda İslam dininin yeri və rolu", Tələbə Gənclər Təşkilatının sədri Rəşad Qurbanov "Azərbaycanda gənc nəsil mütərəqqi İslam mədəniyyətinin daşıyıcısıdır" mövzularında məruzələr ediblər.

**Nazim NİFTƏLİYEV,**
*Mətbuat xidmətinin rəhbəri*

## Amerikalı professor Aqrar Universitetində seminar-müşavirə keçirib

Azərbaycan Dövlət Aqrar Universitetinin aqronomluq fakültəsində ABŞ-ın İllinoys Universitetinin professoru Muhəmməd Babados aqrar sahədə çalışan alimlərin, fermerlərin, torpaq mülkiyyətçilərinin və iş adamlarının iştirakı ilə işgüzar seminar-müşavirə keçirib. Əvvəlcə universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov təhsil müəssisəsinin mövcud durumu, burada olan təhsil-təcrübə şəraiti və ən müasir laboratoriyalar barədə, həmçinin yüksək səviyyəli kadr potensialı haqqında iştirakçılara ətraflı məlumat verib.

Seminar-müşavirədə Tərtər, Samux, Goranboy, Şəmkir, Göygöl, Daşkəsən, Qazax və Tovuz rayonlarından 40 nəfərdən artıq fermer, torpaq mülkiyyətçisi və iş adamı iştirak edib. Bildirilib ki, bu gün açıq tarla şəklində məhsul yetişdirmək ekoloji tarazlığın pozulması nəticəsində xeyli çətinləşib. Gözlənilməz iqlim dəyişiklikləri, qəfil xəstəliklər fermerləri çıxılmaz vəziyyətə salıb. Amerikalı professor bütün bunların qarşısının elmi şəkildə alına biləcəyini, bu baxımdan torpaq mülkiyyətçisinin və alimlərin üzərinə düşən vacib amilləri söyləyib. Seminar-müşavirədə aqronomluq fakültəsinin bitkiçilik və bitki mühafizəsi kafedrasında bitkilərdə xəstəliktörədici göbələk, bakteriya və virusların müəyyənləşdirilməsi və onlara qarşı mübarizə tədbirlərinin hazırlanması məqsədilə Almaniyadan alınmış 50 min avro dəyərində müasir standartlara cavab verən xəstəliklərin diaqnostikası laboratoriyası haqqında da danışılıb. Bu laboratoriya sahibkara kifayət qədər kömək etmək iqtidarındadır. Həmin laboratoriyada bitki xəstəliyinin analizi yerinə yetirilir. Bölgə fermerləri bu laboratoriyadan səmərəli şəkildə istifadə edə bilərlər və hazırda istifadə edənlər də var.

Bu gün mövcud tədris planlarının beynəlxalq təhsil proqramları ilə üstüstə düşməməsi müvafiq sahələrdə, o cümlədən bitki mühafizəsi ixtisası üzrə kadr hazırlığının dövrün tələblərinə uyğun formada təşkilində əsas problemlərdən biri hesab olunur. Bu baxımdan seminar-müşavirənin məqsədi həm də bitki mühafizəsi üzrə kadr hazırlığının, təcrübənin, tədris proqramının beynəlxalq standartlara uyğunlaşdırılması və aparıcı aqraryönümlü xarici ali təhsil müəssisələrinin proqramları ilə unifikasiyası, əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanması məsələlərini müzakirə etmək olub.

Professor Muhəmməd Babados bir neçə gün ərzində bölgənin bitkiçiliklə məşğul olan təsərrüfatlarında da olub, elmi və təcrübi məsləhətlərini fermerlərə çatdırıb.

**Mətbuat xidməti**

# Paytaxt təhsilində yeniliklər

## Dini savadlılığın artırılması mövzusunda görüş

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə dini savadlılığın artırılması mövzusunda görüş keçirilib.

Görüşün keçirilməsində əsas məqsəd dini savadlılığın artırılması, uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması istiqamətində görülən işlərin təmin edilməsindən ibarətdir.

Görüşdə BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, hər iki qurumun əməkdaşları və paytaxtın məktəb direktorları iştirak ediblər.

Öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hazırlanan "Fitnə" filmi nümayiş etdirilib.



Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə imzalanmış "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, paytaxt məktəblərində müvafiq tədbirlərin keçirildiyini bildirib. İdarə müdiri gənclər arasında milli-mənəvi və ümumbəşəri dəyərlərin təbliğinin əhəmiyyətinə toxunaraq hər bir gəncin vətənpərvərlik ruhunda formalaşmasının vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı gənclərin dini radikalizm və ekstremizmin zərərli təsirlərindən qorunması üçün aparılan maarifləndirmə işlərindən danışıb. Komitə sədri qeyd edib ki, ümumi təhsil müəssisələrində dini savadlılığın artırılması ilə bağlı yaxından əməkdaşlıq etməkdə maraqlıdırlar.

Qeyd edək ki, Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə fəaliyyəti əsasında ümumi təhsil məktəblərinin tərbiyə işləri üzrə direktor müavinləri, psixoloqlar, Uşaq Birliyi Təşkilatı rəhbərləri, kitabxanaçılar üçün milli-mənəvi və ümumbəşəri dəyərlərin izahı, təbliği və tədris prosesi ilə əlaqələndirilməsi məsələlərini əhatə edən tövsiyə xarakterli mühazirələr keçirilir. Eləcə də VIII-XI sinif şagirdlərinin, həmçinin məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin iştirakı ilə "Milli-mənəvi dəyərlərimizi qoruyaq və təbliğ edək", "Mənəviyyatlı şəxs kimdir?", "Milli bayramlarımızın nümunəsində xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılması", "Vətənpərvərlik ən mühüm mənəvi dəyərdir" mövzularında rəy sorğuları, seminar və diskussiyalar, "İslam həmrəyliyi ili" ilə əlaqədar səyyar mühazirələr təşkil edilir.

## "Fövqəladə hallarda özünü necə aparmalı?"

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində "Fövqəladə hallarda özünü necə aparmalı?" mövzusunda maarifləndirmə tədbirləri keçirilir.

Tədbirlərin keçirilməsində əsas məqsəd fövqəladə hallara hazırlıq səviyyəsinin yoxlanılması, məktəb kollektivlərinin fövqəladə hadisələrdən mühafizə üsulları və bu cür hallarda hərəkət qaydaları ilə bağlı bilik və bacarıqlarını təkmilləşdirməkdən ibarətdir.

Tədbirlər Bakı Şəhəri üzrə Təhsil İdarəsinin razılığına əsasən, Fövqəladə Hallar Nazirliyi Bakı Regional Mərkəzi tərəfindən təşkil edilir.



Tədbirlərdə Fövqəladə Hallar Nazirliyi Bakı Regional Mərkəzinin, eləcə də Dövlət Yanğın Nəzarəti Xidməti və Dövlət Sularda Xilasetmə Xidmətinin əməkdaşları "Zəlzələ zamanı davranış qaydaları", "Torpaq sürüşməsi zamanı davranış qaydaları", "Məişətdə yanğın zamanı davranış qaydaları", "Dəm qazı", "Odsöndürücü balondan istifadə qaydaları", "Çimərliklərdə təhlükəsizlik qaydaları" və "112 qaynar xətti" mövzularında məruzələrlə çıxış edirlər.

Tədbir iştirakçılarına ölkəmizdə baş verən fövqəladə hallar zamanı (yanan bina, dənizdə baş verən yanğın hadisəsi, sürüşmələr, güclü küləklərin yaratdığı fəsadlar, palçıq vulkanları) müvafiq qurumların həyata keçirdiyi təcili əməliyyatlar haqqında şagirdlərə geniş məlumat verilir. Məktəblilərə fövqəladə hallar zamanı davranış qaydaları geniş şəkildə izah olunur.

Tədbirlər zamanı həmçinin, müvafiq mövzularla bağlı müxtəlif videoçarxlar nümayiş olunur, şagirdləri maraqlandıran suallar cavablandırılır.

## İkinci "Ekoloji aylığ"ın qalibləri bəlli olub

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərində "Ekoloji aylıqlar" layihəsi çərçivəsində fevral ayı üçün nəzərdə tutulan "Ekoloji mədəniyyət və incəsənət, Azərbaycanın ekoloji tarixi və etnoqrafiyası" aylığı başa çatıb.

Bakı şəhərinin 12 inzibati rayonunun ümumi təhsil məktəblərində "Ekoloji mədəniyyət və incəsənət, Azərbaycanın ekoloji tarixi və etnoqrafiyası" mövzusu üzrə elmi konfranslar, müsabiqələr, yarışlar, "açıq dərs"lər, sərgilər keçirilib, ekskursiyalar təşkil edilib, araşdırmalar aparılıb. Bundan əlavə, məktəblilərin "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu, "Yanar Dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, Azərbaycan Tarix Muzeyi, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, Azərbaycan İstiqlal Muzeyinə ekskursiyaları da təşkil edilib. Layihə üzrə müəyyənləşdirilmiş mövzuların reallaşdırılması baxımından təhsil müəssisələrinə sərbəstlik verilib.



Fevral ayının sonunda "Ekoloji mədəniyyət və incəsənət, Azərbaycanın ekoloji tarixi və etnoqrafiyası" mövzusu üzrə Bakı şəhərindəki ümumi təhsil məktəblərinin fəaliyyəti təhlil edilib və müvafiq meyarlar üzrə "Eko-etnoqrafiya şagirdlərin tədqiqatında", "Ekoloji mədəniyyət və incəsənətin təbliği", "Azərbaycanın ekoloji tarixi üzrə ən maraqlı araşdırma işi" nominasiyaları üzrə qalib məktəblər bəlli olub.

Qeyd edək ki, 5 və 149 nömrəli tam orta məktəblər "Eko-etnoqrafiya şagirdlərin tədqiqatında" nominasiyası üzrə qalib olub. Bu nominasiya üzrə 50, 53, 84, 126, 156, 220 və 300 nömrəli məktəblər öz fəallıqları ilə seçilib.

"Ekoloji mədəniyyət və incəsənətin təbliği" nominasiyası üzrə 12, 20, 27 və 102 nömrəli məktəblər birinciliyi bölüşüblər. Bu nominasiya üzrə 60, 73, 78, 99, 201, 209, 229, 265, 283 və 114 nömrəli məktəblər yüksək fəallıqları ilə seçilib.

"Azərbaycanın ekoloji tarixi üzrə ən maraqlı araşdırma işi" nominasiyası üzrə 276 və 227 nömrəli məktəblər qalib seçilib. Bu nominasiya üzrə 12 və 295 nömrəli məktəblər xüsusi fəallıqları ilə seçilib.

## "Eko-təqdimatlar" layihəsinə start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində "Eko-təqdimatlar" layihəsinə start verilib.

Layihənin əsas məqsədi şagirdlərin milli sərvətlərimiz, dəyərlərimiz və digər aktual ekoloji mövzular üzrə məlumatlandırılması, bu adət-ənənələrin davam etdirilməsində motivasiyanın yaradılması, həmçinin Novruza və ilaxır çərşənbələrə aid tədbirlərin elmi cəhətdən əsaslandırılması və digər bu kimi mövzular ətrafında müzakirələr aparmaqdan ibarətdir.

İlk olaraq milli dəyərlərimizin təbliği istiqamətində Novruza və ilaxır çərşənbələrə həsr olunan mühazirələrin keçirilməsi ilə start verilən layihənin daha sonra müxtəlif aktual ekoloji mövzularda davam etdirilməsi nəzərdə tutulub. Mühazirələrə müvafiq istiqamətlər üzrə müxtəlif tədqiqatlar aparan ekoloqlar, ekspertlər dəvət olunacaqlar.



189-190 nömrəli tam orta məktəbdə keçirilən ilk mühazirədə Bakı şəhəri ümumi təhsil məktəblərindən 200-dən çox müəllim iştirak edib.

Mühazirə zamanı Azərbaycan xalqının milli ənənələrini özündə birləşdirən Novruz bayramının tarixi, atributları, su, od, yel və torpaq çərşənbələri barədə geniş məlumatlar verilib. Bildirilib ki, qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının mənəvi dəyərlər sistemində Novruz bayramının özünəməxsus yeri var. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb. Yeni ilin başlanmasından xəbər verən və bolluq rəmzi olan Novruzun Azərbaycanla yanaşı digər ölkələrdə də qeyd edildiyi diqqətə çatdırılıb.

Tədbirdə iştirak edən müəllimlər tərəfindən mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Müəllim və valideynlər dinlənilib

Martın 10-da paytaxtda müəllim və valideynlərin növbəti səyyar qəbulu keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və struktur bölmə əməkdaşlarının iştirak etdiyi səyyar qəbul vəzifə funksiyalarının tələb olunan səviyyədə yerinə yetirilməsi istiqamətində müəssisə rəhbərlərinin məsuliyyətinin artırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərdə daha sağlam və yaradıcı mühitin təmin olunması üçün sistemli iş aparmaq məqsədlərinə xidmət edir.

Bakıdakı 160 nömrəli Klassik Gimnaziyada paytaxtın Yasamal, Səbail və Qaradağ rayonları üzrə keçirilmiş qəbula gələn vətəndaşlar məktəblərin maddi-texniki təminatı, təmiri və digər müvafiq məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar tərəfindən qaldırılmış bütün məsələlər qeydiyyata alınıb. Bir sıra müraciətlər yerindəcə həllini tapıb, digər məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin icrasına başlanılıb.

## Məktəblilərarası II Məntiq Olimpiadası keçiriləcək

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "İstək" liseyinin birgə təşkilatçılığı ilə Lütfi Zadə adına Məktəblilərarası II Məntiq Olimpiadası keçiriləcək. Olimpiadanın əsas məqsədi şagirdlərin məntiqi biliklərinin artmasına təkan vermək, onlara beynəlxalq, yerli olimpiadalar və bu kimi digər bilik yarışlarında iştirak təcrübəsi qazandırmaq, istedadlı, xüsusilə məntiqi təfəkkürü daha yaxşı inkişaf etmiş şagirdləri aşkara çıxarmaq, onların həvəsləndirilməsi və elmə olan marağının artırılmasından ibarətdir.

Olimpiadada ümumi təhsil məktəblərinin hər iki (Azərbaycan və rus) bölməsinin V-VI sinif şagirdləri iştirak edə bilərlər. İştirakçılar 11-12 yaş qrupunu (1 aprel 2017-ci il tarixinə qədər 10 yaşı tamam olmamış, habelə 13 yaşından böyük şagirdlər müsabiqəyə buraxılmır) əhatə edəcək.

Olimpiadada iştirak etmək üçün şagirdlər 25 mart tarixinədək www.mentiq.istek.edu.az saytında onlayn qeydiyyatdan keçməlidirlər. Olimpiada zamanı şagirdlərə xas olan bədii, mücərrəd və verbal məntiqi təfəkkür növlərinin qiymətləndirilməsi nəzərdə tutulur. İki mərhələdən ibarət olan olimpiadanın məktəbdaxili mərhələsi aprelin 1-də keçiriləcək. Mayın 6-da olimpiadanın final mərhələsi təşkil olunacaq. Bu mərhələdə ilk turu uğurla keçən şagirdlər iştirak edəcək. İlk turda olduğu kimi, final mərhələsində də 30 test sualının cavablandırılması üçün 1 saat yarım vaxt (90 dəq) ayrılacaqdır.

Final mərhələsinin nəticələrinə əsasən, Bakı şəhəri üzrə ən yüksək məntiqi təfəkkür nümayiş etdirən məktəblilər mükafatlandırılacaq.

## "Məktəblinin dostu" fləşmob keçirib

"Məktəblinin dostu" və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə təşəbbüsü ilə 8 mart Beynəlxalq Qadınlar Günü münasibətilə İçərişəhərdə fləşmob keçirilib.

Öncə şagirdlər rəqs nömrələri nümayiş etdirib. Daha sonra "Məktəblinin dostları" xanımlara gül verib, bayramlarını təbrik ediblər.

Proqram 200-dən çox şagird və "Məktəblinin dostu"nun canlı "8 mart" düzülüşü ilə yekunlaşıb.

Qeyd edək ki, Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə həyata keçirdiyi "Məktəblinin dostu" pilot layihəsinin əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi ilə maarifləndirmə və diaqnostik işlərin aparılmasını əhatə edir. Bununla yanaşı, "Məktəblinin dostu" seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər.

Hazırda Bakı şəhəri üzrə 30 ümumi təhsil müəssisəsini əhatə edən "Məktəblinin dostu" pilot layihəsi üzrə 112 nəfər əməkdaş çalışır.

www.baku.edu.gov.az

# Əməyimə verdiyi yüksək qiymətə görə Prezidentimizə minnətdaram



**Səadət QƏNDİLOVA,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru, dosent*

Əmək fəaliyyətim 1971-ci ildən məzun olduğum Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə bağlıdır. 1975-ci ildən burada çalışıram. 40 ildən çox müddət ərzində müxtəlif vəzifələrdə işləmiş, hamısında da mənə göstərilən etimadı doğrultmağa çalışmışam. Məhz bunun sayəsində də vəzifə pillələri ilə irəliləmiş, 2014-cü ilin aprelində universitetin tələbələrlə iş üzrə prorektoru təyin olunmuşam. Peşəkar fəaliyyətimlə yanaşı ictimai işlə də mütəmadi məşğul oluram.

Fəaliyyətim ölkə rəhbərliyi, Təhsil Nazirliyi və universitetimiz tərəfindən layiqincə qiymətləndirilib. Müxtəlif vaxtlarda “Tərəqqi” medalı, “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunmuş, fəxri fərmanlar almışam.

Builki 8 mart - Beynəlxalq Qadınlar Günü isə mənim həyatımda daha çox əlamətdar və fərəhverici oldu. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu günlərdə imzaladığı sərəncama əsasən mən də “Əməkdar müəllim” fəxri adına layiq görüldüm. Bu fəxru ad həm çox şərəfli, həm də məsuliyyətlidir. Çünki Azərbaycanın gələcək qurucuları olan gənclərin dərin bilik almasında, milli vətənpərvərlik, dövlətə sədaqət ruhunda tərbiyə olunmasında müəllimin çox mühüm rolu var. Mən də bir müəllim, ana, dövlətə və dövlətçiliyimizə sadiq vətəndaş kimi həmişə gənclərə xüsusi qayğı və diqqət yetirmişəm, onların layiqli vətəndaş kimi yetişməsinə çalışmışam.

Fürsətdən istifadə edib biz qadınlara həmişə qayğı və diqqət yetirdiyi, bizə inandığı və etimad göstərdiyi üçün, eləcə də əməyimizə yüksək qiymət verdiyinə görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Düşünürəm ki, möhtərəm Prezidentimizin biz qadınlara verdiyi ən böyük töhfəsi Heydər Əliyev Fondunun rəhbəri, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, xanım Mehriban Əliyevanı Birinci vitse-prezident təyin etməsidir. Bu, Azərbaycan qadınına olan inamın və etimadın bariz nümunəsidir.

# Builki 8 martda ikiqat bayram sevinci yaşadım



**Göyçək PİRİYEVA,**
*Bakı şəhəri 6 nömrəli məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi, “Tərəqqi” medallı*

8 mart - Beynəlxalq Qadınlar Günü bütün qadınlar kimi mənim üçün də sevimli bayramlardan biridir. Həmin gün əzizlərim, yaxınlarım tərəfindən xoş sözlər eşidir, təbriklər alıram. Bu il də belə oldu. Lakin fərq o idi ki, indi məni təkcə bayrama görə deyil, həm də “Tərəqqi” medalı almağım münasibəti ilə təbrik edirdilər. Ona görə də builki 8 martda ikiqat bayram sevinci yaşadım.

Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə hər il bir qrup qadını fəxri adlar və medallarla təltif edir. Bu, Prezidentimizin qadınlara olan qayğı və diqqətinin bariz nümunəsidir. Bu il də mükafatlandırma oldu və mən “Tərəqqi” medalına layiq görüldüm.

Builki 8 mart mənim üçün fərqli və yaddaqalan oldu. Martın 3-də mənə bir telefon zəngi gəldi: “Siz Prezident tərəfindən “Tərəqqi” medalı ilə təltif olunmusunuz”.

Sevincimin hədd-hüdudu yox idi. Əməyimə, ictimai fəaliyyətimə verdiyi yüksək qiymətə və mənə bu xoşbəxt anları yaşatdığına görə möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına sonsuz təşəkkürümü bildirirəm. Allah onu Azərbaycan xalqının başından əskik etməsin.

Prezidentimizin mənə göstərdiyi etimadı doğrultmağa çalışacağam. Bundan sonra da iş fəaliyyətimi artıracağam. Bu mükafat işimə daha məsuliyyətlə yanaşmağı bir vəzifə kimi qarşıma qoyur. Xalqımızın gənc nəslinin təlim-tərbiyəsi bir vəzifə kimi biz müəllimlərə həvalə olunub. Vətənim üçün sağlam, vətənpərvər gənclərin yetişməsində əlimdən gələni əsirgəməyəcəyəm. Dövlətimə, xalqıma vicdanla xidmət etmişəm, edirəm və bundan sonra da edəcəyəm!

# Bir qadının uğur hekayəsi



Bəşər tarixini yaranandan bu günə qədər vərəqləsək, bir söz çıxar önümüzə ki, qarşısında fikir söyləməkdən dillər aciz, kəlmələr yetərsiz olar. Bir söz çıxar önümüzə ki, nə qədər çalışsaq da, özü kimi dəyərli bir abidə yarada bilmərik. Axı adi söz mətanətdən, əzmkarlıqdan, qəhrəmanlıqdan, zəriflikdən, cəsarətdən... ibarət olan möhtəşəm bir abidəni necə yarada bilər. Axı qadının adına layiq söz abidəsi qoymaq elə də asan deyil. Qadın zərif vücuduna minlərlə, milyonlarla bənzərsiz, ecazkar hissləri cəm edən füsunkar bir varlıqdır. Anadır, bacıdır, dost-sirdaşdır, ömür yoldaşıdır, əmək qəhrəmanıdır qadın. Bəşər övladına şirin layla çalandır qadın! Ömrünü-gününü sevdiklərinə fəda edərək kirpiyi ilə od götürəndir qadın! Evdə, işdə, bir sözlə, ictimai həyatın hər sahəsində kişilərlə çiyin-çiyinə vuruşan əsgərdir qadın! Bəzən ağ örpəyini yerə ataraq bir kəlməsi ilə müharibəni dayandırıb sülhü bərqərar edəndir qadın! Bəzən bir kobud sözdən qəlbi qırılan, gözləri dolan incə bir çiçəkdir qadın. Bəzən həyatda tək qalsa da əyilmədən, sarsılmadan saçının birini ağ, birini qara hörüb övladlarını sinəsinə çəkib onlara həm ata, həm ana olandır qadın! Zərif əlləri ilə xarüqələr yaradan, sözü ilə möcüzələr ilham verən, min bir nemət hazırlayıb süfrəyə düzən mahir usta, sənətkar, psixoloq, kulinardır qadın! Ailə adlı ölkəni səbirlə, ləyaqətlə, təmkinlə idarə edib gələcəyimizi quran, övladlarımızı tərbiyə edib cəmiyyətə təqdim edəndir qadın!

Bu gün sizə haqqında söhbət açacağım qadın da məhz sadaladığımız gözəl xüsusiyyətlərin daşıyıcısı olan bir insandır. Ömür yolu maraqlı, keşməkeşli, gah hamar, gah nahamvar olan, bugünkü günə öz zəhməti, alın təri, dişi-dırnağı ilə gələn bu qadının uğur hekayəsi ilə tanış olmaq, yəqin ki, maraqlı olar.

1974-cü ildə Nizami yurdu Gəncədə dünyaya göz açan bu qız vətən torpağından ilham alaraq böyüdü, boya-başa çatdı. Bəlkə, elə ona görə sadiqliyi Şirindən, məhəbbəti Leylidən, qüruru, cəsarəti Nüşabədən, xanımlığı Məhinbanudan, Məhsətidən aldı? Bəlkə, adı xəzinə olan Gəncədə doğulub dünyaya gəldiyi üçün belə zəngin həyat yolu keçdi, adi tərcüməçilikdə başladığı yolda elmi, biliyi, həyat eşqi ilə uğur zirvələrini pillə-pillə qalxdı. Şairlər yurdunun qızı olduğu üçün bəlkə də, ədəbiyyata, sənətə, yaradıcılığa vuruldu, S.Vurğunun təbirincə desək, “Rus şeirinin şah əsərlərini” Vaqifin şirin dilinə və ya Azərbaycan sənət incilərini rus dilinə çevirdi, elmi-metodiki məqalələr yazdı, daim öz üzərində işləyərək çoxlu sayda fəxri fərmanlar, təşəkkürnamələr, tərifnamələr qazandı. Tale onu Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutuna gətirəndə də, ali məktəbi bitirib əmək fəaliyyətinə başlayanda da bir məqsədi, bir amalı var idi: qadın adını zirvələrə ucaltmaq, prinsipial olmağı ilə seçilmək, ən çətin işlərin öhdəsindən əminliklə gəlmək və varlığını hamıya sübut etmək. Ali təhsil aldığı Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu 1997-ci ildə bitirib məhz həmin ildə də MLK-da rus dili və ədəbiyyatı müəllimi kimi fəaliyyətə başlayan Naibə Kərimli 2003-cü ildən təşkilati işlər üzrə direktor müavini vəzifəsində çalışıb, bütün həyatını sözün həqiqi mənasında ona doğma olan elm ocağına bağladı, neçə-neçə seminar və kurslarda iştirak edərək öz peşəkarlıq səviyyəsini və pedaqoji ustalığını inkişaf etdirdi. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun aspirantı oldu. Hazırda “Dünya ədəbiyyatında Məhəmməd Peyğəmbər obrazı” mövzusunda elmi iş üzərində çalışır. Təhsil Nazirliyi və Azərbaycan Respublikasındakı Rusiya Federasiyası səfirliyinin 2010-cu ildə keçirdiyi “İlin ən yaxşı rus dili və ədəbiyyatı müəllimi” müsabiqəsinin qalibi olub. 2015-ci ildə Moskvada “Xarici dövlətlərdə ən yaxşı rus dili və ədəbiyyatı müəllimi” Beynəlxalq müsabiqəsinin finalında iştirak edərək,”Yaradıcı potensialın nümayişinə görə” nominasiyası üzrə qalib olub. Təhsil naziri cənab Mikayıl Cabbarovun 5 oktyabr 2015- ci il tarixli əmri ilə “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunub. Həm pedaqoji, həm də tərcüməçi kimi fəaliyyət göstərən Naibə xanımın səmərəli fəaliyyətini nəinki respublikamızda, hətta ölkəmizin sərhədlərindən kənarda da izləyib qiymətləndiriblər. Belə ki, 2012-ci ildə Türkmənistan Respublikasının ölkəmizdəki səfirliyinin təşəbbüsü ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun “Bitərəf Türkmənistanın xarici siyasəti və diplomatiyası” adlı ikicildli kitabını rus dilindən Azərbaycan dilinə tərcümə edib. Aşqabad şəhərində adıçəkilən kitabın təqdimat mərasimində iştirak edən Naibə xanım diploma təltif olunub. Çoxşaxəli əmək fəaliyyəti ilə məşğul olmağın gətirdiyi diqqətlilik, operativlik, çeviklik, özünütənqid hissi xarakterinə elə dərindən hopub ki, bəzən şagirdləri onu çox ciddi, tələbkar, tənqidi fikirli bir insan olaraq tanıyıblar. Amma Naibə xanım əslində “sərt görünüşünün altında” həssas, kövrək bir qəlb daşıdığını öz əməlləri ilə nümayiş etdirə bilib.

Yaxşı deyiblər, “Həqiqi müəllimin ən böyük uğuru onun istedadlı yetirmələridir, tərbiyə etdiyi şagirdləridir”. Uğur hekayəmizin əsas qəhrəmanının bəxti elə şagirdləri baxımından gətirib. Belə ki, onun şagirdləri müxtəlif respublika və beynəlxalq müsabiqələrdə, bilik yarışlarında iştirak edərək mükafat alıblar.

2013-cü ildə üç şagirdi XIII Beynəlxalq rus dili olimpiadasında iştirak edib, iki şagirdi - İ.Zeynalova, R. Babayev I yerə layiq görülüb, bir şagirdi isə - H.Abbasov olimpiadanın mütləq çempionu olub.

Rus şairi M.Y.Lermontovun yubileyinə həsr olunmuş respublika qiraət müsabiqəsində şagirdi L.Hüseynova fərqlənərək diploma layiq görülüb. Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş XVIII Beynəlxalq şagird konfransında iştirak edən şagirdləri M.Vəliyev, A.Əlizadə, B.Seyidova, N.Əliyeva, N.Abbasova, E.Mustafayeva müxtəlif nominasiyalar üzrə I, II və III dərəcəli diplomlarla təltif olunublar.

Bu il əmək fəaliyyətinə başlamasının iyirmi illiyini qeyd edəcək qəhrəmanımız Azərbaycan qadınının xarüqələr yaradan bir varlıq olduğunu öz timsalında bir daha təsdiq etdi. Axı bu məhsuldar və gərgin əmək sərf olunmuş illərdə uğur, nailiyyət onu izlədikcə izləyib.

Əgər qadın ana deyilsə, o tam xoşbəxt deyildir”, - deyirlər. Analıq ən ülvi, dəyərli hiss olaraq onun da qəlbində əbədi məskən salıb. Belə ki, iki gözəl övlad dünyaya gətirən qadın uşaqlıqdan onların xəmirlərini vətən, xalq sevgisi ilə yoğurub, qəlblərinə sevgi toxumu səpib, yetişdirib. Həyat hekayəsi ilə XXI əsrin qadınının siluetini çəkən Naibə xanım “həm elm sahəsində, həm ictimai işlərdə, həm də ailədə necə uğur qazanmağın yolunu tapmaq olar ?” sualını verənlərə özünün mənalı, dolğun ömür yolu ilə ən gözəl cavabı vermiş oldu. Analıq vəzifəsini işgüzar qadın vəzifəsindən, müəllimlik fəaliyyətini sənət fəaliyyətindən ayrı şəkildə yerinə yetirərək bu işləri hər baxımdan layiqincə, məsuliyyətlə icra etməyin sevincini və qürurunu yaşayan Naibə xanım əslində öz uğur hekayəsi ilə bir növ hər bir gənc qadına örnək olacaq ömür yolu yaşadığını isbatlamış oldu.

**Günel MƏMMƏDOVA,**
*BSU-nun nəzdində MLK-nın dil-ədəbiyyat müəllimi*

# Rayon pedaqoqlarının fəxri olan əməkdar müəllim



Bütün zamanlarda, bütün xalqlarda müəllim cəmiyyətin ən çox sevilən, ehtiram bəslənən üzvü olub, onun haqqında ən dəyərli sözlər deyilib. Sənətindən, peşəsindən, həyatdakı mövqeyindən asılı olmayaraq hər birimizin qəlbində müəllimə böyük hörmət vardır. Öz halal zəhməti ilə nəsillərə örnək olan müəllim neçə-neçə gəncin, yeniyetmənin dünyagörüşünün formalaşması, müstəqil həyata qədəm qoyması yolunda biliyini və bacarığını əsirgəmir. 60 illik ömrünün 40 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş tanınmış kimya-biologiya müəllimi Gülşən Əliağa qızı Piriyeva da belələrindəndir.

Gülşən Piriyeva 1957-ci ildə Salyan şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası Əliağa İsayev ixtisasca alim-aqronom olmuş, kənd təsərrüfatı sahəsində bacarıqlı mütəxəssis kimi tanınmışdır. Əldə etdiyi nailiyyətlərə görə, o, “Əməkdar aqronom” fəxri adına layiq görülmüşdür. Anası Sonaxanım Ağarəhim qızı ixtisasca mühəndis olmuş, Salyan Kənd Təsərrüfatı Texnikumunda müəllim işləmiş, sonradan övladlarının təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Gülşən İsayeva hələ orta məktəb illərindən elmə, biliyə olan dərin marağı ilə seçilmiş, dəfələrlə respublika üzrə kimya və biologiya olimpiadalarında uğurlu nəticələr əldə etmişdir.

O, 1973-cü ildə Salyan şəhər 2 nömrəli orta məktəbi bitirmiş, həmin ildə də Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsinə qəbul olunmuşdur. Ali məktəbdə oxuduğu illərdə özünü işgüzar və bacarıqlı tələbə kimi göstərən Gülşən institutu fərqlənmə diplomu ilə bitirərək doğma rayona qayıtmış, 1978-ci ildən Salyan şəhər 7 nömrəli orta məktəbdə ali təhsilli kimya-biologiya müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. O vaxtdan da həmin məktəbdə çalışır. Gülşən müəllim işgüzarlığı, əməksevərliyi, elmi-metodik hazırlığı, yüksək intellektual səviyyəsi ilə valideynlərin, pedaqoji kollektivin və rayon ictimaiyyətinin dərin hörmətini qazanmışdır. Rayonun pedaqoqları təhsil ictimaiyyəti onunla fəxr edir. G.Piriyeva kimya-biologiya fənni üzrə metodbirləşmənin sədri, rayon təhsil şöbəsinin ştatdankənar metodisti, rayon olimpiadalarında təşkilat komitəsinin üzvü kimi də məqsədyönlü fəaliyyət göstərir.

Gülşən müəllimin rəhbərlik etdiyi “Gənc kimyaçılar” dərnəyinin üzvləri nəinki respublika səviyyəli olimpiadalarda fərqlənmiş, hətta onların bəziləri Moskva Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən qiyabi məktəbin üzvləri olmuş, ümumittifaq miqyaslı tədbirlərdə uğurla iştirak etmişdir.

Olimpiadalarda şagirdlərinin uğurlu nəticələrinə görə Gülşən müəllim 1985-ci ildə Mendeleyev Cəmiyyətinin fəxri fərmanına layiq görülmüşdür. O, attestasiyaların nəticəsi olaraq “Baş müəllim”, “Metodist müəllim” və “Ali kateqoriyalı müəllim” adlarını almışdır.

G.Piriyeva 1999-2000-ci tədris ilində “Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı” çərçivəsində keçirilmiş müsabiqədə rayon üzrə “İlin ən yaxşı müəllimi” adına layiq görülmüşdür. O, 2001-2002-ci, 2002-2003-cü tədris illərində keçirilən pedaqoji mühazirələrin respublika turlarında I dərəcəli diploma mükafatlandırılmışdır. 2002-2003, 2003-2004-cü tədris illərində “İlin müəllimi” müsabiqəsinin respublika turlarında iştirak edərək I dərəcəli diploma layiq görülmüş və respublikada kimya fənni üzrə “İlin müəllimi” seçilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə o, “Azərbaycan Respublikasının əməkdar müəllimi” fəxri adına layiq görülmüşdür. Gülşən müəllim 2004-cü ildən TQDK (indiki DİM) ilə sıx əməkdaşlıq edərək “Ali məktəblərə daxil olmaq üçün vəsait”, “Kimya - test tapşırıqları və mövzuların izahı” vəsaitlərinin hazırlanmasında fəal iştirak etmişdir.

2008-ci ildən Təhsil Problemləri İnstitutunun (indiki Təhsil İnstitutu) dissertantı kimi “Kimyanın həyatla əlaqəli tədrisi üzrə metodik işin sistemi” mövzusunda elmi araşdırma üzərində işləyən G.Piriyeva respublika və xarici ölkə jurnallarında kimyanın tədrisi metodikası üzrə 23-ə qədər məqalə dərc etdirmiş, 2006-2007-ci illərdə “Britaniya Şurası”nın təsis etdiyi interaktiv təlim layihəsi kursunda 2 il müddətində müasir interaktiv təlimin incəliklərinə yiyələnmişdir. 2008-2009-cu tədris ilində respublikada keçirilən “Ən yaxşı müəllim” müsabiqəsində qalib gələrək ilk onluğa daxil olmuşdur. O həm də dəqiq fənlər üzrə bu onluğa daxil olan yeganə müəllimdir. Gülşən müəllimin xoşbəxtliyi ondadır ki, o, əldə etdiyi uğurlarla kifayətlənmir, daim öz üzərində çalışır, elmi-metodiki və pedaqoji biliklərini artırır. Konfranslarda, elmi-praktik seminarlarda və yığıncaqlardakı məzmunlu çıxışları bunu bir daha sübut edir. Keçirilən ictimai-siyasi tədbirlərdə də öz fəallığı ilə seçilən G.Piriyeva respublika müəllimlərinin XII və XIII qurultaylarının nümayəndəsi olmuş, XII qurultayda öz təcrübəsi barədə çıxış etmişdir.

Gülşən müəllim 2014-cü ildə yenidən “Ən yaxşı müəllim” müsabiqəsinə qatılaraq ikinci dəfə qalib olmuşdur. O, 2015-ci ildə Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edərək VII siniflər üçün yazılmış kurikulum testlərinin müəlliflərindən biri olub.

Gülşən müəllim qayğıkeş ana, sədaqətli ömür-gün yoldaşıdır. Həyat yoldaşı Allahverdi müəllim rayonun tanınmış riyaziyyat müəllimi, əməkdar müəllimdir. Üç övladı var. Böyük qızı Firuzə Tibb Universitetini bitirərək həkim işləyir, digər qızları Günel və Aysel BDU-nu bitirərək riyaziyyat müəllimi ixtisasına yiyələnmişlər.

Gülşən Piriyeva YAP rayon təşkilatının üzvüdür. O, yenə də gənclik enerjisi ilə çalışır. Rayonda kimya müəllimləri üçün dayaq məntəqəsinin sədri kimi öz təcrübəsini, bilik və bacarığını rayon və respublika müəllimləri ilə bölüşür, pedaqoji uğurlarını artırır.

60 illik yubileyi günlərində həmkarları, şagirdləri və doğmaları onu ürəkdən təbrik edir, bundan sonrakı fəaliyyətində də ona cansağlığı, xoşbəxtlik və yeni-yeni nailiyyətlər arzu edirlər.

**Yusif ƏLİYEV,**
*“Azərbaycan müəllimi”*

# "Nobel mükafatı laureatlarının mühazirələrində iştirak edirəm"

## Böyük Britaniyanın Birmingem Universitetinin tələbəsi Məhəmməd Ağamirzəyev ilə söhbət

Məhəmməd Ağamirzəyev 1997-ci il iyulun 23-də Bakı şəhərində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Bakı Oksford Məktəbində alıb. Orta məktəbdə oxuduğu dövrdə ingilis dilində sərbəst danışıb yazmağı bacaran, əla qiymətlərlə oxuyan Bakı məktəblisi attestat almağa 2 ay qalmış beynəlxalq proqram əsasında imtahan verərək eyni vaxtda 3 xarici ali məktəbdə oxumaq hüququ qazanıb. Buraxılış imtahanlarını əla qiymətlərlə verərək orta məktəbi qızıl medalla bitirən Məhəmməd qiymət və dərsdənkənar nailiyyətlərinin nəticəsinə görə Böyük Britaniyanın Birmingem Universitetinin kimya mühəndisliyi fakültəsinə daxil olub. Hazırda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində adıçəkilən universitetin II kurs tələbəsidir. Türk, rus, ingilis və alman dillərində danışır. M.Ağamirzəyevlə söhbətimizə orta məktəb illərindən qazandığı uğurlarla körpü salırıq.

### "Şagirddə elmə həvəs məhz ibtidai təhsil dövründə yaranır"

Orta məktəb illərində Birləşmiş Millətlər Təşkilatının Bakı, Harvard, Haaqa və İstanbul şəhərlərində təşkil olunmuş bir çox beynəlxalq model konfranslarında ölkə təmsilçisi, komitə sədri və ya təşkilatçı qismində fəal iştirak etmişəm. XI sinifdə oxuyarkən Amerika səfirliyindən əldə etdiyim qrantla azərbaycanlı tələbələr üçün nəzərdə tutulmuş "Model Birləşmiş Millətlər Təşkilatı konfransına giriş" (National Model UN Conference) adlı treninq keçirərək illərlə mənimsədiyim bilik və təcrübəmi bölüşmüşdüm. Orta məktəbdə bütün fənlərə eyni məsuliyyətlə yanaşaraq, hər birindən yüksək göstəricilərimin olmasına çalışmışam. Lakin təbiət elmləri və riyaziyyat məni daha artıq cəlb edir, düşündürürdü. İlk müəllimlərimin əlbəttə ki, hər birini xatırlayır, mümkün qədər əlaqə saxlayıram. Fikrimcə, şagirddə elmə həvəs məhz ibtidai təhsil dövründə yaranır və bu həvəsin yaranmasında müəllimlərin rolu danılmazdı. Düşünürəm ki, müəllimlərim məndə bu həvəsi oyatmağa uğurla nail olmuşlar.

Dəqiq elmlərə olan marağım mənim ixtisas seçimimdə mühüm rol oynayıb. Artıq IX sinifdə mühəndis olacağıma qərar vermişdim. Lakin hansı sahə üzrə ixtisaslaşmağa yönəlməyimin həm mənim, həm də dövlətimizin xeyrinə olacağını müəyyənləşdirməmişdim. Sonda kimya mühəndisliyini seçməyimə başlıca səbəb ölkə başçımızın istehsal sahələrinin inkişafına dair olan planları və bu sahədəki peşəkar kadr qıtlığı olmuşdur.

Hədəfimə çatmaq üçün aparıcı universitetlərdə təhsil almağı və peşəkar mütəxəssis kimi hazırlanmağı düşünürdüm. Buna görə də xaricdə, İngiltərədə təhsil almaq mənim lap aşağı siniflərdən qarşıma qoyduğum məqsədlərimdən biri idi. Bu məqsədimin yaranmasının əsas səbəbi təhsil aldığım məktəbdə bunun üçün lazımi hər bir şəraitin yaradılması olmuşdur. Valideynlərim də mənim bu məqsədimə dəstək çıxırdılar. Böyük Britaniyanın Birmingem Universitetinə müraciət etməkdə ilk köməkliyi məktəbdən aldım, müraciətim müsbət nəticələndi, dövlətim və ailəm mənə maddi və mənəvi dəstək oldular.

### "Təhsil islahatlarının effektli olacağına inanıram"

Dövlət Proqramına qəbul olunmağım barədə xəbəri almaq uzunillik arzularımın gerçəkləşməsi demək idi. Qeyd etməliyəm ki, Prezidentimiz İlham Əliyevin gənclərə göstərdiyi misilsiz qayğıya, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununa, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na güvənərək xaricdə təhsil alacağıma ümid edirdim. Ümidlərimin özünü doğrultma anının sevincini bu gün də, ən azı həmin günkü qədər yaşayıram. Zənnimcə, elmə yatırılan sərmayə hər bir cəhətdən ən dəyərli nəticə verən bir addımdır. Bu proqram mən və mənim kimi minlərlə Azərbaycan gəncinin xaricdə təhsil alma arzularının baş tutmasına səbəb olmuşdur. Əminəm ki, məhz bu proqramın nəticəsi olaraq ölkəmizin hər bir sahədəki inkişafı daha da sürətlənəcək.

Sevindirici haldır ki, Azərbaycan təhsilində çox mütərəqqi dəyişikliklər baş verməkdədir. Ölkəmizdə gedən təhsil islahatlarının effektli olacağına inanıram. Mütərəqqi dəyişikliklərdən biri olaraq bu ildən ali tədris müəssisələrində hazırlıq kurslarının tətbiqini misal göstərmək olar.

### "Bu gün təhsil aldığım sahəni sevdiyimi deyə bilərəm"

Böyük Britaniya inkişaf etmiş təhsil sisteminə malikdir. Burada orta təhsil 12 illikdir. Son iki ildə şagirdin seçiminə əsasən onun ixtisaslaşmaq fikrində olduğu fənlər üzrə tədris aparılır. Fikrimcə, bu yolla şagird ali təhsilə daha hazırlıqlı başlayır. Kimya mühəndisliyini özümə ixtisas seçəndə bunun asan olmayacağını bilirdim. Lakin ölkəmizdə bu sahə üzrə kadrlara daha çox ehtiyac olduğunu nəzərə aldım. Bu sahədə dərin biliyə sahib olmasam da, dəqiq elmləri qavrama qabiliyyətimə güvəndim. Bu gün isə təhsil aldığım sahəni sevdiyimi deyə bilərəm. Onu da qeyd edim ki, bu universitet kimya mühəndisliyi üzrə Birləşmiş Krallıqda 3-cü yerdədir. Kimya mühəndisliyində təhsil alan bir tələbə kimi "Bioreaktorların və katalizatorların dizayn edilməsi", "Kimya prosesində enerji səmərəliliyinin artırılması", "İstehsalatın elektron idarə olunması" və digər bir çox nəzəri elmlərlə tanışam. Məni ən çox cəlb edən fənn isə prosesin elektron idarə olunması fənnidir. Burada biz verilmiş prosesdə lazımi faktorların, misal üçün temperaturun, təzyiqin, axın sürətinin və s. prosesə olan təsirini riyazi formullaşdıraraq onu elə proqramlaşdırırıq ki, maraq dairəsində olan faktorda müşahidə olunan xoşagəlməz (və ya idarə olunmayan) dəyişikliyin əldə olunan məhsula zərəri olmasın.

Dərslərimdən əlavə vaxtlara gəldikdə isə demək istəyirəm ki, tələbə həyatımın əsas hissəsini kitabxanada dərslərimə və ixtisaslaşmaqda olduğum sahəyə aid araşdırmalar aparmaq təşkil edir. Dərsdənkənar olaraq artıq 3 ildir ki, Birmingem Universitetinin Azərbaycan cəmiyyətinə sədrlik etməklə yanaşı, həm də kimya mühəndisliyi fakültəsinin tələbə nümayəndəsi vəzifəsini yerinə yetirirəm. Bu fəaliyyətlər gündəlik cədvəlimin tam olaraq dolmasına kifayət edir. Lakin zehni əməklə yanaşı, idmanın üzgüçülük və "jiu- jitsu" növləri ilə də mütəmadi məşğul oluram. Semestr ərzində bədii mütaliəyə vaxt ayırmağa çətinlik çəksəm də tətil vaxtlarında bu mənim əsas məşğuliyyətimə çevrilir.

### "Tələbələrin professorlara öz adları ilə müraciət etməsi mənə təəccüblü gəlmişdi"

Birmingem Universitetində müəllim-tələbə münasibəti tam fərqlidir. Tələbələrin müəllimlərə, professorlara, sadəcə öz adları ilə müraciət etməsi mənə təəccüblü gəlmişdi. İlk baxışdan düşünmüşdüm ki, burada tələbə-müəllim münasibəti iki dost münasibətinə bənzərdir. Lakin sonralar bunun fərqli olduğunu, müəllimlərin tələbələrlə dərsdənkənar heç bir əlaqələrinin olmadığını gördüm.

Burada bütün universitet üzrə əsas imtahanlar yalnız yay semestrində (yəni may-iyun aylarında) baş tutur. İmtahan gedişində heç bir innovativ vasitələrdən istifadə olunmur. Amma şəffaflığın qorunmasının təmin olunması məqsədi ilə imtahan olunan tələbələrin cavab blanklarının kimə məxsusluğu yoxlayıcı müəllimdən gizli saxlanılır. İl ərzində isə qiymətləndirmə laboratoriya işlərinə dair aparılmış araşdırmanın nəticəsi və hazırlanmış hesabat üzrə müəyyən edilir. Bir çox fənn üzrə 2 saatlıq mühazirə 1 saatlıq çalışma ilə tamamlanır. Çalışma saatlarında həm müəllim, həm də "nümayişçi" (assistent) doktorantlar mövzu üzrə olan suallarımızı cavablandırır və qaranlıq qalan məqamları aydınlaşdırırlar.

### "3 ildir ki, fakültə tələbələrinin rəğbətini qazanıram"

Qeyd edim ki, burada universitet demək olar ki, kiçik bir şəhər kimidir. Ən böyük üstünlüklərdən biri isə odur ki, burada fərqli ölkələrdən dünyaya fərqli baxışları olan tələbələri tanımaq imkanı var. Təhsillə yanaşı, tələbələrin öz fərqli qabiliyyətlərini artıra bilmələri üçün istər tələbə ittifaqında, istərsə də universitet departamentlərində "yarım-ştat" (bəzən ödənişli) məşğuliyyətlər təklif olunur. Təklif olunan yerlərə fəal tələbələr namizədliyini irəli sürür, digər tələbələr isə namizədlərin platformalarına əsasən səs verirlər. Misal olaraq özümün kimya mühəndisliyi fakültəsinin tələbə nümayəndəsi seçilməyimi göstərə bilərəm. Artıq 3 ildir ki, fakültə tələbələrinin rəğbətini qazanıram və onların dəstəyi ilə bu vəzifəyə layiq görülürəm.

Təhsil aldığım universitetdə ciddi elmi tədqiqatlara, əsasən doktoranturada təhsil alan tələbələr cəlb olunurlar. Bakalavr səviyyəsində isə layiqli tələbənin istəyi əsasında yay tətili dövründə ödənişli assistentlik fəaliyyəti imkanları yaradılır. Ötən yay tətilində bu imkandan mən də yararlanmışam.

Ümumiyyətlə, götürdükdə isə Birmingem Universitetinin özünün elm-təhsil mühiti ilə bütün ümidlərimi doğrultduğunu deyə bilərəm. Ona görə ki, burada təhsil almaqla mən öz sahələrində məşhur olan, bir çox mükafatlar almış alimlərin əhatəsində biliklərə yiyələnirəm. Nobel mükafatı laureatlarının dərsdənkənar mühazirələrində iştirak edərək onlarla həm söhbət edir, həm də məni maraqlandıran suallarımı onlara ünvanlayıram. Burada elm və sosial şərait daha geniş təşkil edilmişdir. Bir sözlə, ümidlərimin doğrulmuş olduğunu təsdiqləyə bilərəm.

*Xaricdə təhsil alan hər bir azərbaycanlı tələbə həm də ölkəmizin təbliğində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak etməlidir. Müsahibimiz də Böyük Britaniyada diaspora fəaliyyətlərində fəal iştirak etməklə ilkə imza atan gənclərimizdəndir.*



**Kimya sahəsində 2016-cı ilin Nobel mükafatçısı J.Fraser Stoddartla**

### "Birləşmiş Krallığın parlamenti ilə birgə tədbir təşkil etdim"

Mən buraya gəldikdən sonra Böyük Britaniyada fəaliyyət göstərən "Anglo-Azərbaycan" və "Avropa Azərbaycan" cəmiyyətləri ilə əlaqə yaratdım və onların bir sıra tədbirlərində iştirak edərək ölkəmizə buradakı diasporamızdan olan dəstəyin bir hissəsi olmağa çalışıram. Burada həmvətənlərimizin, tələbələrin təşkilatlanması və geniş fəaliyyəti üçün bütün lazımi addımlar atılır. Birmingem Universitetinin tələbə ittifaqında Azərbaycan cəmiyyətinin olmadığını bildikdə qarşıma qoyduğum yeni məqsədlərdən belə bir təşkilatı təsis etmək olmuşdu. Belə də etdim. Artıq ikinci ildir ki, sədrlik etdiyim bu cəmiyyətin fəaliyyətinin genişlənməsinə çalışıram. Qeyd edim ki, Birləşmiş Krallığın parlamenti ilə ilk birgə tədbir təşkil etdim. Bildiyim qədər, o vaxta kimi universitetimizdə hələ heç bir tələbə cəmiyyəti ilə Britaniya parlamenti arasında tədbir təşkil olunmamışdı. Tərəfimdən ölkəmizin ən böyük təbliğinə isə hər ilin sentyabr ayında universitet nəzdindəki cəmiyyətlərin sərgisində Azərbaycan cəmiyyətini təmsil etməklə nail oluram. Burada 250-dən çox cəmiyyətlər arasında 35000-dən çox tələbənin ziyarət etdiyi sərgidə vətənimin təbliğinə nail olmaq məni qürurlandırır.

Sonda gələcək planlarımla bağlı qeyd etmək istəyirəm ki, hazırda qarşımda duran məqsədlərin ən əsası ali təhsilimi uğurla başa vurmaq , elmi və təcrübi fəaliyyətimi davam etdirərək dövlətimə, xalqıma, cəmiyyətə daha çox xeyir verməkdir.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*

## Oksford Universiteti Parisdə kampus açır



Artıq fransızlara La-Manş boğazını keçərək dünyanın ən yaxşı universitetlərindən olan Oksforda yollanmağa ehtiyac qalmayacaq. Britaniyada nəşr olunan "The Daily Telegraph"-ın məlumatına görə, Böyük Britaniyanın nüfuzlu Oksford Universiteti Fransa paytaxtında universitet şəhərciyi açmağı planlaşdırır. Layihənin reallaşması təqdirdə Oksford son 700 il ərzində ilk dəfə xarici universitet şəhərciyi yaratmış olacaq. Bu, ölkə vətəndaşlarının və hökumətin Avropa Birliyinin tərkibindən çıxmaq qərarına cavab kimi qiymətləndirilir. "Le Figaro" nəşrinin yazdığına görə, yeni açılan kampus hüquqi cəhətdən Fransa statusu alacaq, buna görə də ali məktəb Avropa İttifaqından maddi yardımlar alacaq. Universitet rəsmiləri qeyd edirlər ki, "Oksford öz tarixi ərzində beynəlxalq universitet olub və dünyanın gələcək siyasi mənzərəsindən asılı olmayaraq bütün dünya üçün açıq ali məktəb kimi fəaliyyət göstərmək niyyətindədir". Qeyd edək ki, Böyük Britaniyanın Aİ-nin tərkibindən çıxmasına dair səsvermənin nəticələri əcnəbi tələbələrin sayına da təsir edib. Avropa İttifaqından olan abituriyentlərin sayı keçən il 45220 nəfər təşkil etdiyi halda, bu il 42070 nəfər (azalma 7%) olub.

## Rusiyada dayaq universitetlərin sayı artır



Rusiyanın Təhsil və Elm Nazirliyi ölkədə dayaq universitetlərinin yaradılmasını davam etdirir. Bu layihə regionlarda hər şeydən əvvəl, yerli iqtisadiyyatın və əmək bazarının tələbatına cavab verən elm-təhsil mərkəzlərinin formalaşmasına yönəlib. Hər bir universitet regional hakimiyyət orqanları ilə birlikdə dayaq universitetinin inkişaf proqramını hazırlamalıdır. Layihədə universitet məzunlarının işlə təmin olunması göstəricilərinin yüksəldilməsi, elmi işçilərin nəşrolunma fəallığı və digər faktorlar əksini tapıb. Müsabiqənin birinci mərhələsi 2016-cı ildə keçib və nəticədə 11 dayaq universiteti yaradılıb. "Hər şeydən əvvəl bu proqram istedadlı uşaqlara öz bölgələrində keyfiyyətli ali təhsil almağa, regiona isə öz növbəsində, özünün kadr potensialını yüksəltməyə imkan verir. Proqram artıq regionların inkişafında öz effektivliyini göstərib və biz bu təcrübəni yaymaq niyyətindəyik", - deyə təhsil və elm naziri O.Vasilyeva bildirib. Layihənin keçirilmə qaydalarına əsasən, müsabiqənin iştirakçısı istənilən federal dövlət ali məktəbi ola bilər. Layihə Rusiya aparıcı ali məktəblərinin rəqabətqabiliyyətinin yüksəldilməsi proqramının (5/100 layihəsi) reallaşdırılmasına cəlb olunmuş "federal universitet", "milli tədqiqat universiteti" statusu almış ali məktəblərə şamil olunmur.

Müsabiqədə qalib gələcəyi təqdirdə universitetlər 3 ay ərzində dayaq universitetin 5 illik inkişaf proqramını hazırlayaraq Təhsil və Elm Nazirliyinə təqdim etməlidir.

## Onlayn-bakalavriat kursuna start verilib



ABŞ-ın aparıcı ali məktəblərindən olan Pensilvaniya Universiteti proqram təminatının işlənib hazırlanması üzrə onlayn-bakalavriat kursuna start verib. Daha əvvəl isə ali məktəb sözügedən sahə üzrə distant magistr proqramına başlayıb. Bakalavr proqramına diskret riyaziyyat, statistika, proqramlaşdırma, metodologiya, dizayn, kompüter təhlükəsizliyi və başqa fənlər üzrə kurslar daxildir. Təlimin nəticəsi istehsal şirkətləri üçün proqram təminatının hazırlanması olacaq. Güman edilir ki, onlayn-proqramın məzunları istehsalçı, sistem analitiki və ya dizayner kimi işləyə biləcəklər. Təlim təxminən 6,5 min dollara başa gələcək - əlbəttə, bu heç də az məbləğ deyil, lakin əyani proqramlar daha bahadır.

Qeyd edək ki, ABŞ-ın dövlət ali məktəblərindən olan Pensilvaniya Universiteti ölkənin 15 ən yaxşı dövlət universitetlərinin siyahısına daxildir. Dünyanın ən innovativ ali məktəbləri sırasında olan universitet hər il öz sıralarına 44 000-dən çox tələbə qəbul edir. Böyük Britaniyanın "Times Higher Education" nəşrinin 2016-2017-ci tədris ili üçün reytinq sıralamasına görə, ali məktəb dünyanın 100 ən nüfuzlu universiteti arasında 13-cü yerdədir.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*
**xarici mətbuat materialları əsasında**

# Azərbaycan və rus xalqları arasında mənəvi körpü yaradan elmi-tədqiqat əsəri

Bədii ədəbiyyat xalqların milli-mənəvi dəyərlərini bir-birinə ötürən ən səmərəli vasitələrdən biridir. Dünya ədəbiyyatı tarixində müsbət novatorluq meyilləri ilə fərqlənən zəngin rus ədəbiyyatı da bu cəhətdən bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Zaman-zaman yaranıb formalaşan rus ədəbiyyatı dünya ədəbiyyatına güclü təkan vermiş, onun inkişafına müsbət təsir göstərmiş, bəşəriyyətin mənəvi inkişafında mühüm mərhələ təşkil etmişdir. Rus xalqı ilə Azərbaycan xalqının mədəni yaxınlığı çoxillik tarixə malikdir. Təsadüfi deyil ki, xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: “Rusiya ilə Azərbaycan arasında hərtərəfli münasibətlər və dostluq münasibətlərinin kökləri uzaq keçmişə gedir. Hələ dahi Nizami ölməz “Xəmsə”nin poemalarında “rus”ların həyatını, adət-ənənələrini dərin rəğbət hissi ilə təsvir etmiş, rus cəngavərlərini heyrətlə təriflәmişdir. “Yeddi gözəl” poemasında Nizami rus qadınının gözəlliyinə, müdrikliyinə, mənəvi təmizliyinə əsl himn yazmışdır. Rus poeziyasında rus torpağının böyük oğlu A.S.Puşkinin gözəl şeirlərində Azərbaycan qadını - Şamaxı gözəlinin obrazı əbədiləşmişdir. Beləliklə, öz xalqının yaradıcı dahiliyini bütün dərinliyi və parlaqlığı ilə özündə əks edən iki gözəl sənətkar əsrlərdən süzülüb görüşmüşdür”.

Görkəmli Azərbaycan alimi A.Bakıxanovun rus yazıçısı A.Qriboyedovla dostluq etməsi, rus şairi M.Y.Lermontovun Azərbaycan tarixi ilə maraqlanması, Azərbaycan dilini sevə-sevə öyrənərək təbliğ etməsi, rus yazıçısı M.Qorkinin Azərbaycana gələrək tanınmış yazıçı və şairlərlə görüşməsi, rus şairləri M.Mayakovskinin və S.Yeseninin yaradıcılığının müəyyən hissəsinin Bakı ilə bağlı olması, xalq şairi Səməd Vurğunun Aleksandr Fadeyev, Konstantin Simonov və başqa rus şairləri ilə sarsılmaz dostluğu da maraqlı tarixi faktlardandır.

Xüsusilə XIX əsrin əvvəllərindən etibarən Rusiya və Azərbaycan arasında mədəni əlaqələrin formalaşaraq inkişaf etdirilməsində bədii tərcümə mühüm rol oynamış, istər klassik, istərsə də müasir rus ədəbiyyatının ən yaxşı nümunələrinin Azərbaycan dilinə tərcümə olunmasına, nəşr və təbliğ edilməsinə başlanılmışdır. Uzun illərdən bəri rus bədii ədəbiyyatının Azərbaycan dilinə tərcüməsi və nəşri hər iki xalq arasında dostluq münasibətlərinin və ədəbi əlaqələrin möhkəmləndirilməsinə xidmət etmişdir. Ayrı-ayrı dövrlərdə tanınmış ziyalılarımızdan A.Bakıxanov, A.Səhhət, A.Şaiq, F.Köçərli, S.Vurğun, M.Rəfili, R.Rza, M.Rahim, M.Arif, Ə.Kürçaylı və başqaları rus klassiklərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi ilə məşğul olmuş, bədii tərcümə vasitəsilə xalqlar arasında mənəvi körpü yaratmağa çalışmışlar. Elə bunun nəticəsidir ki, keçmiş sovet dönəmində rus bədii ədəbiyyatının Azərbaycan dilinə tərcüməsi və nəşri həm ad, həm də tiraj etibarilə ildən-ilə artmışdır.

Geniş yaradıcılıq diapazonuna malik tədqiqatçı-alim, BDU-nun kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Rasim Süleymanovun bu yaxınlarda çapdan çıxmış “Rus bədii ədəbiyyatının Azərbaycanda nəşri (1920-1970-ci illər)” adlı monoqrafiyası bu baxımdan həmin aktual mövzunun araşdırılmasına həsr olunmuş fundamental elmi-tədqiqat əsəridir. Monoqrafiyanın elmi redaktoru BDU-nun rus ədəbiyyatı tarixi kafedrasının müdiri, professor Aqil Hacıyev, redaktorları kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan və filologiya üzrə fəlsəfə doktoru Lalə Əfəndiyeva, rəyçiləri əməkdar elm xadimi, professor Həbib Babayev və İ.Fyodorov adına Moskva Dövlət Mətbuat Universitetinin (keçmiş İ.Fyodorov adına Moskva Dövlət Poliqrafiya Universitetinin) professoru A.A.Qovoryovdur.

Monoqrafiya giriş, beş bölmə, nəticə, istifadə olunmuş ədəbiyyatın siyahısı və əlavələrdən ibarətdir.

Əsərdə qeyd edildiyi kimi, XIX və XX əsr rus fəlsəfə və ədəbi fikir tarixində mühüm yer tutan rus bədii ədəbiyyatının Azərbaycan dilində nəşri məsələsinin tədqiqat obyektinə çevrilməsi hər iki xalq üçün vacib olan dəyərlərə əsaslanır.

Monoqrafiyanın “Rus bədii ədəbiyyatının nəşrini şərtləndirən amillər” adlanan I bölməsində 1920-1970-ci illərdə Azərbaycanda nəşriyyatçılıq fəaliyyətinin genişlənməsi, onun maddi-texniki bazasının formalaşması və elmi müstəvidə bu sahənin tədqiqata cəlb edilməsi kimi problemlər ətraflı təhlil olunur. Eyni zamanda həmin dövrdə respublikamızda ümumiyyətlə kitab nəşrinin həm ad, həm tiraj, həm də orta çap vərəqi etibarilə dinamik inkişafının ayrı-ayrı cədvəllərdə statistik məlumatlar şəklində verilməsi əsərin məziyyətini xeyli artırır.

“Klassik ədəbiyyatın nəşri” adlı II bölmədə XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan dövri və elmi mətbuatında bu sahədə əks olunan işlər araşdırılmış, A.S.Puşkin, M.Y.Lermontov, İ.A.Krılov, L.N.Tolstoy, N.V.Qoqol, B.Q.Belinski, A.P.Çexov və digər rus ədəbiyyatı klassiklərinin Azərbaycan dilində çap olunmuş ayrı-ayrı nəşrləri ümumiləşdirilərək təhlil edilmişdir. Monoqrafiyada Məmməd Arif Dadaşzadə, Şıxəli Qurbanov, Cəfər Xəndan, Həbib Babayev, Əziz Mirəhmədov, Əziz Şərif, Abbas Səhhət, Abdulla Şaiq, Cəfər Cabbarlı, Səməd Vurğun, M.S.Ordubadi, M.Rəhim, M.Müşfiq, R.Rza və başqaları kimi görkəmli ədəbiyyatşünasların, şair və yazıçıların Azərbaycan-rus ədəbi əlaqələrinin tədqiqi sahəsindəki əsərləri və tərcümələri sistemli şəkildə şərh olunmuşdur.

“XX əsr rus ədəbiyyatının nəşri” adlanan III bölmədə M.Qorki, V.Mayakovski, S.Yesenin, A.Fadeyev, M.Şoloxov, N.Ostrovski, M.Tixonov, K.Simonov, A.Tolstoy, S.Mixalkov, A.Blok, S.Marşak, A.Barto, A.Qaydar, V.Bianki və başqa rus şair və yazıçılarının əsərlərinin Azərbaycan dilində nəşri məsələləri ümumiləşdirilmişdir. Bu bölmədə “Maarif və mədəniyyət”, “Şərq qadını”, “Vətən uğrunda”, “Azərbaycan” jurnallarında, “Ədəbiyyat” qəzetində və digər dövri mətbuat səhifələrində çap olunmuş XX əsr rus bədii ədəbiyyatı nümunələri də tədqiqata cəlb olunmuşdur. Burada 1920-40-cı illərdə respublikamızın dövri mətbuat səhifələrində 30 rus şair və yazıçısının əsərlərinin nəşrinin araşdırılması təqdirəlayiqdir. XX əsrin 30-cu illərinin ortalarından başlayaraq rus bədii ədəbiyyat nümunələrinin Azərbaycan məktəblərinin VII-X sinif dərsliklərinə daxil edilməsi və bu işin tədricən genişləndirilməsi monoqrafiyada xüsusi olaraq vurğulanmışdır. Eyni zamanda rus bədii kitablarının çapını Azərbaycanda həyata keçirən “Bakı fəhləsi”, “Azərnəşr”, “Gənclik” (“Uşaqgəncnəşr”), “Elm” və digər nəşriyyatların fəaliyyəti geniş təhlil olunmuşdur.

XX əsr rus bədii ədəbiyyatı nümunələri əsasında Azərbaycan-rus ədəbi əlaqələrinin öyrənilməsində müstəsna rolu olan görkəmli ədəbiyyatşünas alimlərin əsərlərinin əhəmiyyəti monoqrafiyada ətraflı şərh edilmiş, o cümlədən Məmməd Arif Dadaşzadə, Həbib Babayev, Seyfulla Əsədullayev, Aqil Hacıyev və başqalarının bu sahədəki əsərləri təhlil olunmuşdur.

Bu bölmədə rus poeziyasından nümunələri Azərbaycan dilinə tərcümə edən Səməd Vurğun, Rəsul Rza, Məmməd Rahim, Əliağa Kürçaylı, Mikayıl Rəfili, Süleyman Rüstəm, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Nəbi Xəzri, Xəlil Rza, Tofiq Bayram və başqa mütərcimlərin fəaliyyəti də özünün əhatəli əksini tapmışdır.

Uzun müddət Sovetlər Birliyi Yazıçılar İttifaqının sədri olmuş A.Fadeyevin Azərbaycan dilində çap olunmuş əsərləri təhlil olunarkən onun M.Ə.Sabirin əsərlərinin rus dilinə tərcüməsi ilə ciddi maraqlanması, eləcə də görkəmli Azərbaycan şair və yazıçılarının yubileylərinin Moskvada və Rusiyanın ayrı-ayrı şəhərlərində keçirilməsi sahəsində böyük işlər görülməsi də monoqrafiyada geniş şəkildə ifadə olunmuşdur.

“Rus bədii ədəbiyyatının nəşrinin tərtibatı və poliqrafik icrası” adlanan IV bölmədə kitabların formatı, burada verilən şəkillər, ornamentlər, illüstrasiyalar, mətnlərin şriftləri haqqında bəhs edilmiş, bu elementlərin bədii kitabın məzmununa və ideyasına uyğun həyata keçirilməsi araşdırılmışdır. Kitab sənətində bədii-texniki tərtibatın və bədii qrafikanın bədii ədəbiyyata şamil edilməsi bu bölmədə məharətlə əsaslandırılmışdır.

Tədqiq olunan dövrdə nəşriyyatlarda kitab qrafikası və onun bədii tərtibatı sahəsində fəaliyyət göstərən görkəmli fırça ustalarının Əzim Əzimzadə, Mikayıl Abdullayev, Əmir Hacıyev, İsmail Axundov, Mixail Vlasov, L.Knit, Qəzənfər Xalıqov və başqalarının yaradıcı işləri kitabşünaslıq baxımından təhlil olunmuşdur. Bu bölmədə görkəmli rəssam Əzim Əzimzadənin eyni zamanda Azərbaycanda realist kitab illüstrasiyalarının və plakatının ilk yaradıcısı olması xüsusi olaraq vurğulanmışdır. Qeyd olunmuşdur ki, M.Ə.Sabirin “Hophopnamə” kitabına rəssamın çəkdiyi şəkillər Azərbaycan kitab qrafikasının şedevri hesab olunur.

Azərbaycanda ilk dəfə ofset çap üsulunun tətbiq edilməsinin rus bədii ədəbiyyatının tərtibatına müsbət təsir göstərməsi də bu bölmədə təhlil edilmişdir. Rus bədii kitablarının bədii tərtibatının keyfiyyət baxımından yüksəlməsi və belə nəşrlərin beynəlxalq kitab sərgi, yarmarka və müsabiqələrdə təqdim olunması, Bakı şəhərində hər il kitabların bədii tərtibatı və poliqrafik icrası ilə əlaqədar keçirilən respublika müsabiqələrinin təhlili də elmi işin mahiyyətini artırır. Bu bölmədə eyni zamanda vurğulanmışdır ki, Azərbaycanda nəşriyyatların maddi-texniki bazasının genişləndirilməsi, ofset sexlərinin yaradılması, kitab qrafikasının nailiyyətlərinin artması öz növbəsində rus bədii kitablarının tərtibatının kökündən yaxşılaşdırılmasına şərait yaratmışdır.

Monoqrafiyadan öyrənirik ki, tədqiqata cəlb olunan dövrdə Azərbaycanda rus bədii ədəbiyyatından tərcümə olunmuş 13 milyon nüsxə tirajla 1020 adda kitab nəşr olunmuşdur.

Məşhur rus şair və yazıçılarından A.S.Puşkin, M.Y.Lermontov, M.Qorki, V.Mayakovski, S.Yesenin, A.Fadeyev və başqalarının Azərbaycanda, o cümlədən Bakıda olmaları, Azərbaycan haqqında gözəl fikirlər söyləmələri və Azərbaycana əsərlər həsr etmələri haqqında maraqlı məlumatların verilməsi monoqrafiyanın elmi məziyyətini daha da yüksəldir.

Məlumdur ki, respublikamızda dissertasiya işlərinin sonunda mövzu ilə bağlı biblioqrafik göstəricinin verilməsinin ilk təşəbbüskarı görkəmli ziyalı, 1947-ci ildə BDU-nun filologiya fakültəsinin nəzdində yaradılmış kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müdiri Əliheydər Qəhrəmanov olmuşdur. Dosent Rasim Süleymanov Ə.Qəhrəmanovun ənənələrini davam etdirərək elmi-tədqiqat əsərinin ikinci hissəsində “Azərbaycanda rus bədii ədəbiyyatının nəşri (1920-1970-ci illər)” adlı biblioqrafik göstərici tərtib etmişdir. Göstəricini tərtib etməkdə müəllifin əsas məqsədi tədqiqata cəlb olunan yarım əsrlik dövrdə rus dilindən Azərbaycan dilinə tərcümə olunan əsərləri bir yerə toplamaq, elmi ictimaiyyətə təqdim etmək və tərcümə ədəbiyyatının nəşr tarixini aşkara çıxarmaqdır.

Haqqında bəhs etdiyimiz monoqrafiyanın axırında verilmiş biblioqrafik göstərici biblioqrafiyalaşdırma obyektinin məzmun əlamətinə görə sahəvi-mövzu, konkret məqsəd və oxucu istiqamətinə görə elmi-köməkçi, funksional məqsəd istiqamətinə görə retrospektiv, dil əlamətinə görə birdilli, ərazi əlamətinə görə ümumi dövlət, sənədi səciyyələndirmə üsuluna görə annotasiyalı, materialları qruplaşdırma üsuluna görə xronoloji, vəsaitin tipinə görə kitabiçərisi hesab olunur. Bu biblioqrafik informasiya mənbəyi 1281 adda biblioqrafik informasiyanı əhatə edir. Ümumi xarakterli, axtarış və kommunikativ istiqamətli bu kitabiçərisi biblioqrafik göstərici “Giriş”, “Klassik rus ədəbiyyatı”, “XX əsr rus ədəbiyyatı”, “Rus uşaq ədəbiyyatı” bölmələrindən ibarətdir. Bundan başqa, göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə “Müəlliflərinin əlifba göstəricisi”, “Tərcüməçilərin və redaktorların əlifba göstəricisi” adlı köməkçi aparat da tərtib edilmişdir.

Kitabiçərisi biblioqrafik göstəricinin “Giriş” adlı ön sözündə tərtibçi-müəllif göstəricinin quruluşu haqqında məlumat verir.

Biblioqrafik göstəricinin “Klassik rus ədəbiyyatı” adlanan I bölməsinin monitorinqindən aydın olur ki, tədqiq olunan dövrdə Azərbaycan dilinə tərcümə olunmuş 235 adda klassik rus ədəbiyyatı haqqında biblioqrafik informasiya verilmişdir. Maraqlıdır ki, bu dövrdə, daha konkret desək, 1928-ci ildə Azərbaycan dilinə tərcümə olunan ilk əsər N.V.Qoqolun “Evlənmək” adlı iki məclisdən və üç pərdədən ibarət komediyasıdır. “Azərnəşr”də 108 səhifə həcmində, 3000 nüsxə tirajla buraxılmış bu kitabın tərcüməçisi Mirzə Məhəmməd Axundov olmuşdur. Tədqiqat aparılan dövrdə nəşr edilmiş son əsər isə kiçikyaşlı uşaqlar üçün hekayələrdən ibarət olan “Kaştanka” kitabıdır. 1969-cu ildə “Gənclik” nəşriyyatında 48 səhifə həcmində çap olunmuş bu kitabın tərcüməçisi isə Ş.Mirbağırovadır.

Kitabiçərisi biblioqrafiyanın II bölməsi “XX əsr rus ədəbiyyatı” adlanır. Bu bölmədə Azərbaycan dilinə tərcümə olunmuş 508 adda əsər haqqında biblioqrafik informasiya verilmişdir. Bölmədən aydın olur ki, tədqiqat dövründə Azərbaycan dilinə tərcümə olunmuş ilk sovet əsəri P.Arlovetsin “Od yurdunda” kitabıdır. R.Mirzə Həsənin tərcümə etdiyi bu əsər neftçilərin həyatından alınmış hekayədir. Cəmi 38 səhifə həcmində olan bu kitab 1925-ci ildə Ali Siyasi Maarif İdarəsinin nəşriyyatında 5000 nüsxə tirajla işıq üzü görmüşdür. Həmin dövrdə sonuncu nəşr olunmuş əsərlərdən biri 1970-ci ilə aiddir. Belə ki, V.Astafyevin “Ulduz xəzanı” adlı povest və hekayələrdən ibarət kitabı “Gənclik” nəşriyyatında 20 min nüsxə tirajla buraxılmışdır.

Kitabiçərisi biblioqrafiyanın III bölməsi “Rus uşaq ədəbiyyatı” adlanır. Bölmədə Azərbaycan dilinə tərcümə olunmuş 531 adda rus uşaq ədəbiyyatı nümunəsi haqqında biblioqrafik informasiya verilmişdir. Buradan aydın olur ki, tədqiqat dövründə Azərbaycan dilinə tərcümə olunmuş ilk rus uşaq kitabçası “Çəməndə tülki ilə qurd və yeddi yaşar” adlanır. Tərcüməçi Q.Rəşaddır. 1911-ci ildə Orucov qardaşlarının elektrik mətbəəsində ərəb qrafikası ilə çap olunmuş bu kitabça 21 səhifədən ibarətdir. Həmin dövrdə nəşr edilmiş sonuncu kitab isə K.Çukovskinin “Aybolit” əsəridir. Kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu kitabçanın tərcüməçisi T.Elçin, rəssamı R.Əmirov və A.Hüseynovdur. “Gənclik” nəşriyyatının hazırladığı 10 səhifədən ibarət bu şəkilli kitabça 1969-cu ildə oxuculara çatdırılmışdır.

Kitabiçərisi biblioqrafik göstəricidə axtarış imkanlarını artırmaq, ondan istifadəni asanlaşdırmaq məqsədilə iki adda köməkçi aparat tərtib olunmuşdur. Onlardan biri əsərləri Azərbaycan dilinə tərcümə olunmuş “Müəlliflərinin əlifba göstəricisi”, digəri isə “Tərcüməçilərin və redaktorların əlifba göstəricisi” adlı köməkçi aparatdır.

“Müəlliflərinin əlifba göstəricisi” adlı köməkçi aparat vasitəsilə əsərləri rus dilindən Azərbaycan dilinə tərcümə olunmuş 360 nəfər müəllif haqqında biblioqrafik informasiya almaq olar. Köməkçi apatarın təhlili onu deməyə əsas verir ki, tədqiqat aparılan dövrdə ən çox əsəri Azərbaycan dilinə tərcümə olunmuş müəllif A.İ.Kuprindir. Onun 6 adda əsəri, İ.A.Krılov, A.Fadeyev, A.Safronov, N.Prişvin, K.Paustovskinin 4 adda əsəri dilimizə tərcümə olunmuşdur.

“Tərcüməçilərin və redaktorların əlifba göstəricisi” adlı köməkçi aparatının təhlili onu deməyə əsas verir ki, F.Mehdi 28, R.Rza, M.Rzaquluzadə 26, Ə.Ağayev, M.Arif 23, C.Məcnunbəyov 21, C.Cahanbaxış 19, B.Musayev 18, Ş.Ağayeva 17, Ə.Babayeva 15 əsəri rus dilindən Azərbaycan dilinə tərcümə etmişlər.

Monoqrafiyanın nəticə hissəsində vurğulandığı kimi, rus bədii ədəbiyyatı bu gün də öz zənginliyi, rəngarəngliyi ilə seçilir və dünya ədəbiyyatını, bölgədə yaşayan xalqların milli-mənəvi dəyərlərini zənginləşdirərək inkişaf edir. Hazırda rus bədii ədəbiyyatının ən dəyərli nümunələri müasir ədəbiyyatşünaslar tərəfindən tədqiq olunur, dilimizə tərcümə edilir və Azərbaycan oxucusu tərəfindən sevilə-sevilə oxunur.

Filologiya üzrə fəlsəfə doktoru, dosent R.Süleymanovun Azərbaycan oxucusunu klassik və müasir rus ədəbiyyatının orijinal nümunələri ilə tanış etmək məqsədini reallaşdıran çoxcəhətli prosesin tədqiqinə həsr olunmuş “Rus bədii ədəbiyyatının Azərbaycanda nəşri (1920-1970-ci illər)” adlı monoqrafiyası bu gün də aktuallıq kəsb edir. Əsərin Azərbaycan-rus ədəbi əlaqələri ilə maraqlanan mütəxəssislər, eləcə də bu sahədə tədqiqat aparan araşdırıcılar tərəfindən maraqla qarşılanacağına əminik.

**Knyaz ASLAN,**
*Bakı Dövlət Universitetinin kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*

**Xuraman AĞAYEVA,**
*Bakı Dövlət Universitetinin biblioqrafiyaşünaslıq kafedrasının dosenti*

# Bakı Mühəndislik Universitetində “Multikulturalizm” jurnalının IV nəşrinin təqdimatı olub



Bakı Mühəndislik Universitetinin Azərbaycan multikulturalizmi Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə martın 6-da “Multikulturalizm” ədəbi-bədii, elmi-publisistik jurnalının IV nəşrinin təqdimat mərasimi keçirilib. Tədbirdə jurnalın baş redaktoru Fəxri Uğurlu, baş redaktorun müavini Tahir Kazımlı, texniki direktoru Fuad Cəfərov, məsul katibi Taleh Eminoğlu və Azərbaycan Milli Tarix Muzeyinin elmi işçisi Əli Fərhadov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Mərkəzin müdir müavini Ramin Səmədov millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayevin təşəbbüsü ilə fəaliyyətə başlayan elm-tədris mərkəzi barədə tədbir iştirakçılarına məlumat verib. Təqdimat mərasimində çıxış edən jurnalın baş redaktoru Fəxri Uğurlu bildirib ki, jurnal ölkə Prezidentinin sərəncamı ilə nəzərdə tutulan tədbirlər planı çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Azərbaycan Yaradıcılıq Fondunun birgə səyi nəticəsində işıq üzü görüb. Fəxri Uğurlu jurnalın ölkəmizdə hökm sürən multikultural və tolerant ab-havaya töhfə vermək məqsədilə nəşr olunduğunu diqqətə çatdırıb. Baş redaktor həmçinin jurnalda dərc olunan yazılar barədə məlumat verib.

Çıxış edənlər Əli Fərhadov, universitetin kafedra müdiri, dosent Bilal Dədəyev, Elm-Tədris Mərkəzinin baş elmi işçisi, professor Minəxanım Təkləli və Bakı Mühəndislik Universitetində multikulturalizm fənnini tədris edən Turac Məmmədova və Fəridə Əliyeva jurnal haqqında öz fikirlərini ifadə edərək, multikulturalizmin Azərbaycan xalqının mədəniyyətində əsrlər boyu davam edən bir anlayış olduğunu diqqətə çatdırıblar. Tədbirin sonunda qonaqlar dinləyicilərin suallarını cavablandırıb, Elm-Tədris Mərkəzi ilə əməkdaşlığın vacibliyini vurğulayıblar.

**Mətbuat xidməti**

# Hərbi-vətənpərvərlik mövzusunda tədbir

Ölkəmizdə gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması dövlətin gənclərlə bağlı siyasətinin ən mühüm istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən kütləvi tədbirlər və təbliğat işləri bilavasitə yeniyetmə və gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsində, onlarda vətəndaşlıq hisslərinin yüksəldilməsində mühüm rol oynayır. Bu fikirlər Tovuz Rayon İcra Hakimiyyətinin iclas zalında keçirilən gənclərdə hərbi-vətənpərvərlik hissinin artırılması ilə bağlı tədbirdə səsləndirilib. Təhsil şöbəsinin müdiri Validə Hüseynova çıxışında məktəblərdə gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində görülən işlərdən söz açıb. Qeyd olunub ki, məktəblərdə hərbi-vətənpərvərlik tərbiyəsinin düzgün qurulması nəticəsində son illər şagirdlərin hərbi məktəblərə marağı artıb. Belə ki, son 7-8 ildə 600-ə yaxın tovuzlu gənc ali hərbi məktəblərə və hərbi liseylərə qəbul olunub.

Sonra hərbi hazırlıq müəllimlərinə gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində görəcəkləri işlər barədə tövsiyələr verilib.

# Novruzun gəlişi ilə bayram iməciliyi

Sabirabad şəhər 4 nömrəli tam orta məktəbdə Novruz bayramının gəlişi ilə əlaqədar “Hərəmiz bir ağac əkək” devizi altında iməcilik keçirilib. İməcilikdə V-XI sinif şagirdləri və müəllimlər iştirak edib. Məktəbin direktoru Mahir Zahidov iməcilikdə çıxış edərək qeyd edib ki, ağaclar təbiətin insanlara bəxş etdiyi heyrətamiz gözəlliyə malik və ibtidaidən aliyə qədər saysız-hesabsız canlının yaşayış məskəni olan təbii sərvətdir. Ağaclar planetimizin həyat mənbəyidir. Yer üzərində oksigenlə zəngin atmosfer havasının əmələ gəlməsində, su və maddələr dövranında, iqlim şəraitinin tənzimlənməsində ağacların rolu əvəzsizdir.

Daha sonra ağacların əkilməsinə start verilib. Eyni zamanda məktəbin həyətyanı sahəsi təmizlənib, digər ağacların dibi bellənib və sulanıb. Şagirdlər bu aksiyada böyük həvəslə iştirak edib. İməciliyin keçirilməsində məqsəd xalqımızın milli dəyərlərini qorumaq və gələcək nəsillərimizə ötürmək, eyni zamanda şagirdlərimizdə zəhmətə, əməyə olan sevgini artırmaq olub.

**Hazırladı: Şakir CƏFƏROV,**
*“Azərbaycan müəllimi”*

# AzTU ilə Berkli Kaliforniya Universiteti əlaqələrini genişləndirir

**Şahnaz N.ŞAHBAZOVA,**
*AzTU-nun professoru, Lütfi Ə.Zadə adına Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, vitse-prezidenti, Lütfi Ə.Zadənin elmi irsinə həsr olunmuş Soft Computing üzrə Ümumdünya Konfransının baş katibi*



Amerika Birləşmiş Ştatlarının Berkli Kaliforniya Universiteti hərtərəfli, mükəmməl inkişaf etmiş və yüksək idarəetmə mexanizminə malik olan, dünya üzrə digər nüfuzlu elm və təhsil müəssisələri ilə geniş əməkdaşlığı həyata keçirən fundamental elmi tədqiqat işləri ilə məşhurdur. Berkli Kaliforniya Universiteti təkcə ABŞ-da deyil, bütövlükdə dünyada ən aktual elmi problemlərin tədqiqi sahəsində yüksək göstəricilərə malikdir.

Müstəqil Azərbaycanda məhsuldar qüvvə olan elm, habelə mühüm strateji əhəmiyyət kəsb edən təhsil, sosial-iqtisadi, siyasi, mədəni-mənəvi, eləcə də texnoloji maraqları özündə ehtiva edir.

Berkli Kaliforniya Universiteti ilə Azərbaycan Texniki Universiteti arasında 3 fevral 2017-ci il tarixində növbəti 5 il müddətinə əməkdaşlıq memorandumu imzalanmışdır. Memorandum Berkli Kaliforniya Universitetinin kansleri Nicolas Dick və Azərbaycan Texniki Universitetinin rektor əvəzi Xalıq Yahudov tərəfindən imzalanmışdır. Bu memorandumun imzalanmasında Berkli Kaliforniya Universitetinin professoru, dünya şöhrətli azərbaycanlı alim Lütfi Ə.Zadənin böyük xidməti olmuşdur.

İkitərəfli memoranduma görə universitetlər arasında tədqiqatçıların, magistrlərin və tələbələrin təhsil mübadiləsinə göndərilməsi, mədəni və elmi tədbirlərdə iştirakı və s. nəzərdə tutulmuşdur. Müqavilə 5 il müddətində qüvvədədir. Bütün xərclər göndərilən universitetlər tərəfindən ödəniləcəkdir.

Berkli Kaliforniya Universiteti (ing. University of California, Berkeley) ABŞ-ın Kaliforniya ştatının Berkli şəhərində yerləşir. Universitet Amerika Universitetləri Assosiasiyasının yaradıcılarından biridir.

Berkli Kaliforniya Universiteti 1868-ci il martın 23-də Kaliforniya ştatında yaradılmış və universitetin açılışı 1869-cu ildə Oakland şəhərində baş tutmuşdur. 1960-cı illərdə Berkli Kaliforniya Universiteti söz azadlığının təmin olunduğu məkan kimi tanınmağa başlayır.

Böyük Britaniyanın "Times Higher Education Rankings" jurnalının 2016-2017-ci tədris ilində apardığı dünya universitetlərinin reytinqinə əsasən, Berkli Kaliforniya Universiteti 100 ən yaxşı ali məktəb arasında 10-cu yerdə sıralanıb. Berkli Kaliforniya Universitetinin illik gəliri 4.045 mlr ABŞ dollarından artıqdır.

Bu universitetin ərazisi 5 $km^2$-dir. Həmin əraziyə Ekologiya qoruğu (3.2 $km^2$), Botanika bağı və Strouberri Kanyonu istirahət mərkəzi (0,8 $km^2$), Berkli Milli Laboratoriyası, çoxsaylı tədris və administrativ binalar, tələbə şəhərciyi, idman kompleksləri və s. daxildir. Berkli Kaliforniya Universitetinin kitabxana sisteminə 32 kitabxana daxildir. Bu, sahəsinə görə dünyanın ən böyük kitabxana kompleksidir. 2008-ci ildə universitetin kitabxanası Şimali Amerika universitetləri kitabxanaları arasında ən yaxşı kütləvi elmi tədqiqatlar kitabxanası seçilib.

Berkli Kaliforniya Universitetinin nəzdində 14 kollec və məktəb fəaliyyət göstərir. Kolleclərdə bakalavrlarla yanaşı magistr və doktorantlar da təhsil ala bilərlər, məktəblər isə yalnız magistr və doktorantlar üçün nəzərdə tutulub.

Berkli Kaliforniya Universitetində 2015-2016-cı tədris ilində 40.173 nəfər tələbə təhsil alıb. Onların 29310 nəfərini bakalavr, 10863 nəfərini isə magistr və doktorantlar təşkil edib. Bakalavrların 54, magistr və doktorantların isə 55%-i qızlar olub.

Universitetin idman komandaları "Kaliforniyanın qızıl ayıları" adlandırılır. Onlar 100-dən çox Olimpiya qızıl medalına layiq görülüblər. İdman növlərindən burada xüsusilə futbol, basketbol, beysbol, softbol, gimnastika, su polosu, reqbiyə daha çox üstünlük verilir.

Berkli Kaliforniya Universitetinin müəllim və məzunları arasında ümumilikdə 65 Nobel mükafatına layiq görülmüş şəxs var. Məzunlardan "Apple", "Intel", "Google", "MySpace", "Adobe Systems", "Electronic Arts", "VMware", "HTC Corporation", "Qualcomm", "Sun Microsistems" kompaniyalarının yaradıcıları və rəhbərlərini qeyd etmək olar.

Berkli Kaliforniya Universitetinin kansleri, professor Nicolas Dick rəhbərlik etdiyi ali təhsil ocağını belə xarakterizə edir: "Berkli təpələrindən qərbə tərəf günəşin batmağını müşahidə edərkən qızılı rəngə boyanmış Sater qapısını, universitetin geniş qərb sərhədlərini görmək mümkündür. Lakin Berkli Kaliforniya Universiteti bu gün coğrafi sərhədlərindən daha çox intellektual sərhədlərinin genişləndirilməsində maraqlıdır. Nümunəvi dövlət universiteti kimi Berkli Kaliforniya Universitetinin rolu o qədər önəmlidir ki, onun ən yüksək səviyyəyə çatması üçün biz əlimizdən gələni etməliyik. Tədris və tədqiqatlarda yol verilən istənilən uğursuzluq təkcə universitetin nüfuzunun deyil, eləcə də dövlətin təhsil standartlarının aşağı düşməsinə səbəb olur".

Azərbaycan Texniki Universitetinin ölkəmizin texniki ali məktəblərindən biri kimi Berkli Kaliforniya Universiteti ilə müqavilə imzalamaq imkanı qazanması böyük əhəmiyyət kəsb edir. Hərtərəfli inkişaf etmiş, yüksək idarəetmə mexanizminə malik, nüfuzlu elm və təhsil müəssisəsi olan Kaliforniya Berkli Universiteti ilə qurulacaq əlaqələr Azərbaycan Respublikasını ixtisaslı mühəndis kadrlarla təmin etmək yolunda atılacaq daha bir addim olacaqdır.

Beləliklə, ABŞ-ın Kaliforniya ştatında 3 fevral 2017-ci il tarixində imzalanmış memorandum Berkli Kaliforniya Universitetində bütün daxili prosedurları keçərək qüvvəyə minmişdir. Bu haqda məlumatları Berkli Kaliforniya Universitetinin Qlobal Tərəfdaşlıq ofisinin direktoru Ashley McDonald-n Azərbaycan Texniki Universiteti tərəfindən memoranduma məsul şəxs, universitetin əməkdaşı, texnika elmləri doktoru Şahnaz N.Şahbazovaya ünvanladığı məktubda öz əksini tapmışdır.

Məktubda deyilir: "Mən, Berkli Kaliforniya Universitetinin kansleri Nicolas Dick adından böyük məmnuniyyətlə məlumat vermək istəyirəm ki, Berkli və Azərbaycan Texniki universitetləri arasında tərəfdaşlıq müqaviləsi imzalanmış və deməli hüquqi qüvvəyə minmişdir. Azərbaycan Texniki Universiteti ilə növbəti 5 il müddətinə imzalanmış müqavilə hazırda tərəfdaşlığımızı əks etdirmək üçün bizim Web səhifəmizdə artıq yer almışdır. Biz iki universitet arasında elmi-tədqiqat və tələbə mübadiləsi sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək arzusundayıq.

Ən xoş arzularla, Ashley McDonald".

Azərbaycan Texniki Universiteti Berkli Kaliforniya Universitetinin rəsmi saytında qeyd olunan yeganə Cənubi Qafqaz Universitetidir.

Beləliklə, imzalanan memorandumun ölkəmizin elm, təhsil və mədəniyyət sahəsinin inkişafında öz töhfəsini verəcəyinə ümid edirik.

## ELM XƏBƏRLƏRİ

### İnsan dərisi çap edən "3D" printer hazırlanıb



İspaniyalı alimlər insan dərisi çap edən bioprinteri nümayiş etdiriblər. III Karlos adına Madrid Universiteti, Enerji, Ətraf Mühit və Texnologiyalar üzrə Araşdırma Mərkəzi, həmçinin Qreqorio Maranyon adına Madrid Universitet hospitalından olan alimlər qrupu bioloji materiallar çap edən 3D-printer hazırlayıblar. Araşdırmalara görə, əldə edilmiş dəri tamamilə funksionaldır, tibb və transplantasiyada tətbiq oluna, həmçinin kosmetik məhsul və məişət kimyasının sınaqlarında istifadə edilə bilər.

**www.ria.ru** saytının məlumatına görə, süni insan dərisi biomürəkkəbin köməyilə yaradılır. Süni dəri əsl insan dərisinin quruluşunu təkrarlayaraq lay-lay çap olunur.

İnsan dərisində olduğu kimi, epiderma və dermadan ibarət olan dəri bioloji cəhətdən aktivdir və ona elastiklik verən kollageni özü ifraz edir. Alimlər bildiriblər ki, çap üçün konkret insanın bioloji materialından istifadə edildiyi halda, qısa müddət ərzində transplantasiya üçün yararlı dəri yaratmaq mümkün olacaq.

Süni dərinin hazırlanmasında iştirak etmiş "BioDan Group" şirkəti məhsulu bazara çıxarmağı planlaşdırır.

### Ekranı mexaniki zədələrdən qoruyan maye şüşə

"Indiegogo" vəsait toplama platformasında maye şüşənin istehsalına vəsait toplanılması kampaniyasına start verilib. "ProtectPax" istənilən şüşə səthini (smartfonun ekranı, planşetlər, eynək linzaları və s.) mexaniki zədələrdən qorumaq üçün nəzərdə tutulmuş tərkibdir. İstehsalçılar mayenin tərkibində istifadə edilmiş texnologiyaların aviasiya və aerokosmik sahələrdə tətbiq olunduğunu iddia edirlər.

**www.hi-tech.mail.ru** saytının məlumatına görə, ekranın səthinə çəkilən qatın qalınlığı 0,0004 mm-dir. Müqayisə üçün bildirək ki, adi qoruyucu şüşələrin qalınlığı 0,3 mm-dir. Bərkimiş tərkib 365 gün ərzində görünməz olur.

Tərkib mexaniki zədələrdən qorumaqla yanaşı, qurğudan istifadə zamanı elektromaqnit şüanın intensivliyini də 92,7 faiz aşağı salır və bakteriyaların 99 faizini neytrallaşdırır. Maye, həmçinin barmaq izlərinin olması barədə xəbərdarlıq edir və suya davamlıdır.



Kameranı qoruyan şüşəyə bu tərkibi sürtdükdə çəkilişin keyfiyyəti yaxşılaşır və ekranın reaksiya qabiliyyəti artır.

"ProtectPax"ı ekranın səthinə çəkmək üçün onu salfetlə təmizləmək və tərkibi üzərində yaymaq lazımdır. Səthə bu tərkibdən çəkdikdən 10 dəqiqə sonra o öz təsirini göstərir.

### Plastik tullantılardan neft əldə etməyə imkan verən zavod



İsraildə il ərzində 1500 ton plastik tullantı yaranır ki, onun da təxminən 75%-i tullantı poliqonlarına atılır. Tullantıların açıq havada yandırılmaqla utilizasiyası xeyli xammalın itirilməsi ilə yanaşı, yaranan zəhərli qazların ətraf mühiti çirkləndirməsinə səbəb olur. Bu da insanların sağlamlığı üçün ciddi təhlükə yaradır. Hesablamalara görə, hazırda dünyada milyardlarla ton plastik tullantı mövcuddur.

**www.polimers.at.ua** saytının məlumatına görə, İsrailin ətraf mühitin mühafizəsi nazirliyi plastik tullantılardan neft əldə etməyə imkan verən zavod tikib. Zavodda bir ton plastik tullantıdan 600 kq neft almaq mümkündür. Emal məqsədilə plastik kütlədən hazırlanmış istənilən məmulatların tullantılarından - torba, boru, mətbəx ləvazimatları, mebel və oyuncaqlardan istifadə edilir.

Yeni texnologiyalar plastik tullantıların yandırılmasından xeyli istilik enerjisi və 1000 tona qədər neft almağa imkan verir. Texnologiya polimerlərin bir növü olan plastik kütlənin tərkib hissələrinə parçalanmasına (depolimerizasiya) və əsas tərkib olan neftin seperasiyasına əsaslanır. Əldə edilmiş neft emal zavoduna göndərilir. Bununla da "neft-polimer-məmulat", "məmulat-tullantı-neft" itkisiz qapalı emal həlqəsi yaradılır.

Dünyada analoqu olmayan bu texnologiyanın sınağı uğurlu olarsa, o, bərk neft məhsullarının utilizasiyası texnologiyalarında inqilaba səbəb olacaq.

### Otaq daxilində qurğuların enerji ilə simsiz doldurulması üsulu

"Disney Research" laboratoriyasının alimlər qrupu otaq daxilində elektron qurğuların enerji ilə doldurulmasını təmin edən enerjinin simsiz ötürülməsi sistemini hazırlayıblar. Bu metod "kvazistatik rezonans boşluq" ("QSCR") adlandırılıb.

**www.techcult.ru** saytının məlumatına görə, yeni metodun işini nümayiş etdirmək üçün laboratoriyada 5x5 metr ölçüsündə xüsusi otaq qurulub. Otaq daxilində bir neçə mobil telefonu daim enerji ilə dolduran, ventilyasiyanı və otağın daxili işıqlandırmasını enerji ilə təmin edən maqnit dalğaları yaradılıb.

Alimlər hesab edirlər ki, eksperimental otaqda divarlar metalla örtülsə də gələcəkdə konstruksiyanı sadələşdirmək mümkün olacaq. Bunun üçün xüsusi divar panelləri və ya cərəyan keçirən rənglər daha uyğundur.



Qeyd edək ki, artıq 100 ildən çoxdur alimlər enerjinin simsiz ötürülməsi ideyasını reallaşdırmağa çalışırlar. XIX əsrin 90-cı illərində Nikola Teslanın sınaqlarını xatırlamaq kifayətdir. O, bu sınaqlar zamanı simsiz işıqlandırmanı nümayiş etdirmişdi.

**www.ikt.az saytının materialları əsasında hazırladı:**
**Yusif ƏLİYEV,** *"Azərbaycan müəllimi"*

# Bir əsərin tədrisinə yeni texnologiyalar baxımından baxış

**Hüseyn ŞAHBƏNDƏYEV,**
*Avropa Azərbaycan Məktəbinin Azərbaycan dili və ədəbiyyat kafedrasının rəhbəri, əməkdar müəllim*

Azərbaycan bədii ədəbiyyatında və fəlsəfi fikir tarixində özünə əbədiyyəti təmin etmiş ulu söz sənətkarımız Hüseyn Cavidin yaradıcılığı elə ədəbi qaynaqlarımızdandır ki, hər dəfə ona müraciət edəndə sənətkar dühasının yeni-yeni möcüzələri qarşısında heyrətlənməli olur, özümüzü bu qüdrətli sənətkarın romantik ecazkar aləmində hiss edirik. Mənzum dramaturgiyamızın dünya ədəbiyyatının şedevrləri sırasında vüqarla dayanmağa layiq əsərlərindən olan "İblis" faciəsi ədibin yuxarıdakı fikirlərimizi təsdiq edən əsərlərindən biridir. Əsərin qələmə alındığı 1918-ci ildən bəri bədii məziyyətləri, tədris və metodik əhəmiyyəti haqqında yazılanlar bir yerə toplansa, cildlərlə kitaba bərabər olar. Bununla belə, bu günün təhsil standartları baxımından "İblis" faciəsinin yeni üsullarla təhlili günün tələbidir və bu yazımızda əsərin təhlili ilə bağlı bəzi yeni yanaşmalarımızı təqdim edirik.

"İblis" faciəsinin birinci dünya müharibəsi illərində yazılması, H.Cavidin burada bir filosof və humanist insan kimi düşüncələrinin açılması, ədalətsiz müharibələrə, müharibə qızışdırıcılarına nifrət hissləri oyatması nəzərə alınaraq bu ideyalar ətrafında mövzunun tədrisinə ayrılmış bir neçə saat vaxt ərzində müəllim mümkün qədər yaradıcı olmalı, intensiv metodlardan istifadə etməlidir. Mövzunun tədrisi ərəfəsində çalışmaq lazımdır ki, şagirdlər əsəri müstəqil oxusunlar. Əsərin dilində çətin anlaşılan ərəb və fars sözləri, osmanlı-türk şivəsi tələb edir ki, şagirdlərin oxusuna müəllim rəhbərlik etsin, əsərdəki əsas fikri və müəllif qayəsini şagirdlərə çatdırmaqda yardımçı olsun. Problemin qoyuluşu, mövzunun dərki ətrafında sinif kollektivi səfərbər edilməli, maraq doğuran üsul və vasitələrdən istifadə olunmalıdır. Haqqında bəhs edəcəyimiz üsul və vasitələr, təqdim olunan fraqmentlər elektron tədris imkanları olan məktəblərdə istifadə üçün nəzərdə tutulsa da, ondan adi texniki təlim vasitələri şəraitində də faydalanmaq olar.

XI sinifdə H.Cavidin "İblis" faciəsinin təhlili üçün nəzərdə tutulmuş dərs saatları və ya dərsdənkənar məşğələlərdə tədris məqsədilə on-on iki fraqmentdən ibarət təqdimat hazırlamışıq. İlk qeydlər şagirdlərin tanışlığı və problemə cəlb olunması məqsədi daşıyır. Bu, motivasiya materialıdır. Biz hər bir elektron səhifəyə yerləşdirdiyimiz materialı ayrı-ayrı təqdimat şəklində əks etdirməyə çalışacağıq. İntensivlik məqsədilə sinif əvvəlcə müxtəlif qruplara bölünür (digər iş formaları da seçmək olar).

1-ci təqdimat məzmunca əsərin təhlili üçün giriş məqsədi daşıyır. Həmin fraqmenti, təxminən, aşağıdakı kimi verirəm: H.Cavid bütün yaradıcılığı boyu bəşəri və milli səadət, sülh və əmin-amanlıq tərəfdarı olmuş, humanist və romantik bir şair kimi müharibələri və onu törədənləri insansevərliyə, bəşəriyyətin tərəqqisinə, yüksək ideallara səsləmişdir. "İblis" ədibin həmin düşüncələrini əks etdirən və dünya ədəbiyyatının şah əsərləri ilə bir sırada duran romantik faciədir. İnteqrativ məqsədlə dramaturqun "Peyğəmbər" dramından götürdüyümüz aforizmlə fikrimizi qüvvətləndiririk:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Bu epizodun nümayişi şagirdləri əsərdə qoyulmuş problemin tədqiqinə yönəldir. Əlavə təsir effekti yaratmaq üçün şagirdlərin diqqətini əsərdə ideya daşıyıcısı olan Vasifin dilindən götürülmüş, xalqımızın bugünkü durumu ilə yaxından səsləşən 2-ci fraqmentə cəlb edirəm. Həmin fraqment 2-ci təqdimat sayılır və şagirdlərin fikri fəallığını gücləndirmək məqsədi daşıyan sualdan ibarətdir: H.Cavidin vətəndaş və milli qayəsini əks etdirən aşağıdakı sözlər "İblis" faciəsində hansı qəhrəmanın dilindəndir?

*Turana qılıncdan daha kəskin ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət...*

Şübhə yoxdur ki, əsəri diqqətlə oxumuş şagird üçün bu suala cavab vermək o qədər də çətin deyil. Müəllim problemin açılışına cəlb olunmuş şagirdlərə Vasifin və Arifin taleyi, müharibənin yaratdığı vəhşətlər və s. haqqında düşündüklərini deməyə, onu Azərbaycanın müasir durumu ilə - torpaqlarımızın xain və nankor ermənilər tərəfindən işğalı ilə əlaqələndirməyə şərait yaradır. Müharibənin dəhşətlərini və ağrılarını daşıyan üç gəncin - Arifin, Vasifin və kiçik zabitin Vətən, onun tarixi və taleyi haqqındakı düşüncələri ilə şagirdlər H.Cavidin Osmanlı dövlətinin tarixi, birinci dünya müharibəsi, Türkiyə Respublikası və türk xalqı barədə düşündüklərinin yeni bir qatı ilə tanış olur, yuxarıdakı sözlərin isə Vasifə məxsus olduğunu xatırlayırlar. Müəllim həmin debatın yekunu kimi şagirdlərə Türkiyə-Azərbaycan tarixi ilişkiləri ilə bağlı müstəqil tapşırıqlar da verə bilər.

Bunun ardınca şagird-müəllim qənaətlərini möhkəmləndirən 3-cü təqdimata keçilir. Bu, sadə bir quruluşdur və kompüterin Power Point proqramının imkanları sayəsində müxtəlif şəkildə nümayiş etdirilə bilər. Slaydın bir tərəfində qlobus üzərində "ürmhəbia" hərfləri ilə anaqram tərtib edir, ondan aşağıda - sağda isə əsərdəki obrazların - Arif, Vasif, Rəna, Elxan, Yaralı zabit, Ərəb zabiti, İbn Yəminin adlarını alt-alta yazmaqla şagirdlərin diqqətini lövhəyə yönəldirəm. Qlobusun üzərindəki sözlə burada adları çəkilən obrazlar arasında əlaqəni müəyyənləşdirmək üçün səhifənin əvvəlində belə bir sual qoyuram: "Aşağıdakı anaqramda verilmiş söz "İblis" faciəsindəki obrazların hər birinin taleyində özünəməxsus izlər qoymuşdur. Həmin sözü tapın". Yenidən şagirdlərin fəallığı artır, hər qrup özünəməxsus fikirlərlə əsərdə qoyulmuş ideyanı dərk etməyə çalışır. Sonda kompüterlə qlobusun üzərindəki hərflərə bir-bir toxunuram, nəticədə lövhəciyin sağ tərəfində "müharibə" sözü alınır (şəkil 1).

Sonrakı təhlil elementi - 4-cü təqdimat klaster (şaxələndirmə) şəklindədir. Səhifənin əvvəlində belə bir tapşırıq verirəm: "Əsərdəki ideyanın açılmasında surətlərin rolunu şaxələr üzrə müəyyənləşdirin". Klaster mərkəzdə "İblis" sözü yazılmış səkkiz şaxədən ibarətdir. Onun qütbləri aşağıdakı kimidir: 1.Arif-İblis-Mələk; 2.Rəna-İblis-Xavər; 3.Papas, xaxam, şeyx-İblis-İbn Yəmin; 4.Elxan-İblis-Mələk. Obrazlar arasında bağlılığı müəyyənləşdirmək şagirdlərdən tələb olunur. Ola bilsin ki, şagirdlər bu cür qütbləşməyə əks arqumentlər irəli sürsünlər. Müəllimin rəhbərliyi altında polemikaya belə meydan açılması əsərin təhlili üçün rəngarəng fikirlərin üzə çıxarılması deməkdir. Bu isə dövrümüzdə şəxsiyyətyönümlü təhsilin tələblərindən biridir. Elektron imkanları olmayan məktəblərdə həmin sxemləri sadə əyaniliklə də nümayiş etdirmək olar.

Bu sxem şagirdlərin İblis obrazı, iblislik və insan təbiətinin xeyirlə şərin daim mübarizə meydanı olması, müharibələr, onları doğuran səbəblər, varlanmaq ehtirasları və s. haqqında mühakimələrinə geniş imkan yaradır. Şagirdlər müəllimin köməyi olmadan, lakin onun rəhbərliyi altında şaxələr üzrə müəllif qayəsinin dərk olunmasında və onun açılışında fəal iştirak edirlər. Müəllim kompüterin Power Point proqramının imkanlarından istifadə etməklə şaxələr üzrə obrazları fərqləndirərkən müxtəlif rəng çalarlarından istifadə edə bilər. Məsələn, İblisi qara, Arifi qırmızı, Elxan və Vasifi yaşıl, Rəna, Xavər və Mələyi palıdı, din xadimləri və İbn Yəmin olan dairələri isə sarı rəngdə verməklə şagirdləri obrazların rəng simvolikası ilə qruplaşdırılması üzərində də düşündürür. Bundan əlavə, digər elektron səhifədə klaster üzrə şagirdlərin işini asanlaşdırmaq üçün növbəti -5-ci təqdimatı da nümayiş etdirə bilər. Həmin tapşırığı aşağıdakı kimi vermək mümkündür:

Klaster (şaxələndirmə) üsulu əsasında obrazların aşağıdakı kimi əlaqələndirilməsi səbəblərini izah edin:

İblis - Arif- Mələk - müharibə, onun dəhşətlərinə münasibət;

Arif - İblis - Xavər - ailədaxili münasibətlər, məhəbbətə ikili yanaşma;

Rəna - Arif - Vasif - İblis - insanı filosofdan qatilə çevirən məhdudluq;

Rəna - Xavər - Mələk - humanizm, zəriflikdən doğan həssaslıq;

Vasif - Elxan - Vətən, onun taleyi ilə bağlılıq;

İbn Yəmin - papas, xaxam - İblis - klasterin və əsərin qara və tutqun rəngləri və s.

6-cı təqdimat oyun-dərs modelinə uyğun olaraq düşünülmüşdür. "Kim kimdir?" əyləncəli teleoyununa bənzəyən həmin səhifəni bütövlükdə aşağıdakı kimi tərtib etməyi məqsədəuyğun hesab edirik:

"Kim kimdir?"

1. Müharibələrin dəhşətlərindən bəşəriyyətə acıyan mövhumi obraz.
2. Filosof - qatil.
3. Qardaşlar.
4. Müharibə, qisas, qənimət.
5. Missionerlər. Təxribatçılıq. Düşmənlərimizin kəmfürsətliyi.
6. Məhəbbət. Qadınlar.
7. Üç zabit. Tale oxşarlıqları və fərqlər.
8. Nəfs. İnsan iblisləşir.

Burada səkkiz məqama diqqət cəlb olunmuşdur, lakin bu, nisbidir və çoxaldıla bilər. Başlıcası, hər bənd şagirdləri dərindən düşünməyə, öz fikirlərini əsərdən gətirdikləri faktlarla əsaslandırmağa sövq edir.

7-ci elektron səhifə də oyun - dərs modelinə uyğundur. İblis obrazı əsərin müxtəlif yerlərində üzə çıxan mənfur təbiətini faciənin 4-cü pərdəsində açıq etiraf edir. İnteraktiv üsullar içərisində artıq özünü doğrultmuş "Spiral"ın hər dolayında İblisin etiraf etdiyi sifətlərini şagirdlərin iştirakı ilə yazmağa çalışırıq. Bu zaman şagirdlər İblisin görüntülərini söylədikcə spiralın dolaylarına qeyd edirlər. Təxminən, doqquzdolaqlı bir spiral alınır və onun hər dolağında İblisin müvafiq görüntüsü - Abid, Rahib, Mürşid, Sultan, Cavan, Çoban, Papa, Qazi, Qoca, solda icə böyük hərflərlə İblis sözü yazılır.



Şəkil 1.



Şəkil 2.



Şəkil 3.

Beləliklə, şagirdlər İblisin gəlişlərinin müvafiq yeri üzərində düşünməli olurlar. Bu da məzmunun yadda saxlanılmasına kömək edir (şəkil 2).

Məlumdur ki, ədəbiyyatın əsas tədris məqsədlərindən biri hərtərəfli inkişaf etmiş insanın tərbiyə olunmasıdır. Müasir dövrdə şəxsiyyətyönümlü təhsil siyasəti bu amili bir qədər də önə çəkir. Biz "İblis" faciəsinin tədrisində məhz həmin tələbləri rəhbər tutaraq, 8-ci elektron səhifəni əsərdə işlənmiş aforizmlər üzərində qurmuşuq. Şagirdlər səhifə ilə tanışlıqdan sonra kəlamların işləndiyi yer və hansı obrazların dilindən olması barədə tapşırıqlar alırlar. Nəticədə fəal təlim meydanı daha da genişlənir. Məsələn:

* *"Satmaz, satamaz milləti şəxsiyyətə aqil".*
* *"İdrakı sönük başçıların qəfləti ancaq*
*Etmiş, edəcək milləti həp əldə oyuncaq"* və s.

Məktəb təcrübəsi göstərir ki, düzgün tərtib olunmuş krossvordlar ədiblərin həyat və yaradıcılıqlarının öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. H.Cavidin yaradıcılığı üzərində qurulmuş krossvordu ədibin irsini dərindən öyrənməyə can atan şagirdləri çalışdırmaq məqsədi ilə tərtib etmişik. Yeri gəlmişkən, biz bu səhifəni şagirdlərə təqdim edərkən onların müstəqil işi üçün nəzərdə tutduğumuzu bildiririk. Bununla belə, şagirdlər tərəfindən tamamlanıb başa çatdırılmaqda çətinlik törədən xanaların doldurulmasında, daha dəqiq desək, krossvordun tam yazılışında onlara müəyyən qədər kömək də edirik (şəkil 3).

Təqdimatımızın 10-12-ci səhifələri "İblis" faciəsi üzrə qazanılmış biliklərin test tapşırıqları əsasında yoxlanılması məqsədilə tərtib olunmuşdur. Burada standart test nümunələri ilə yanaşı, ilk dəfə şagirdlərə təqdim olunmuş testlər də olmalıdır.

"İblis" faciəsinin təhlili üzrə işlərimizin sonu H.Cavid haqqında düşüncələrimizi əks etdirən aşağıdakı səhifədən ibarətdir. Buradakı fikirlərin əsasında ölməz dramaturqun irsinə sonsuz məhəbbətimiz və bu irsin təbliğinə həsr olunmuş 30 ildən artıq müəllim ömrümüz durur: H.Cavidə birinci ömrü Tanrı bəxş etmişdi. Ölməz sənətkar öz yaradıcılıq dühası ilə özünün ikinci ömrünü xalqımızın yaddaşına əbədi həkk etdi. Cavidin üçüncü ömür bəxşişini isə ona xalqımızın ümummilli lideri Heydər Əliyev vermişdir. Xalqımızın bu böyük oğlunun sayəsində ədibin məzarı uzaq Sibirdən Azərbaycana gətirilmiş, böyük ehtiramla Naxçıvanda dəfn olunmuşdur... (H.Şahbəndəyev).

Həmin səhifənin görüntüsü fonunda ümummilli lider Heydər Əliyevin səsi yazılmış çarx gəlir: "H.Cavidin cənazəsinin uzaq Sibirdən Azərbaycana gətirilməsi asan bir iş deyildi. Bu, böyük iradə, böyük cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza sədaqət belə bir cəsarət göstərməyə mənə imkan verdi. Və mən bunu etdim. Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa verilməsi Azərbaycanın bu qədim, ayrılmaz hissəsi olan, müqəddəs bir guşəsi olan Naxçıvana hörmət və ehtiramın ifadəsi idi".

Ümummilli liderimizin çıxışındakı əzəmətin sinifdə yaratdığı mənəvi-psixoloji ovqatı sözlə təsvir etməkdə özümüzü aciz bilirik... Həmin epizoddan sonra şagirdlərimizdə xalqımızın bu qüdrətli sənətkarının bədii irsinə yenidən müraciət etməyə ciddi ehtiyac duyulduğu aşkar hiss olunur.

# İngilis dilinin tədrisində səmərəli təlim metodlarından istifadə

**Ruhiyyə MAHMUDOVA,**
*İsmayıllı şəhər İsrail Həsənov adına 1 nömrəli tam orta məktəbin ingilis dili müəllimi , "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi*

Müasir gənclərimizə milli-mənəvi dəyərlərimizi aşılamaq, onlara dərin və hərtərəfli biliklər vermək, vətənpərvərlik hissləri formalaşdıraraq Azərbaycanımıza layiqli vətəndaşlar yetişdirmək təhslin qarşısında duran ən ümdə vəzifədir və bu işdə əsas məsuliyyət təhsil ocaqlarının üzərinə düşür. Çalışdığım İ.Həsənov adına İsmayıllı şəhər 1 nömrəli tam orta məktəb bu vəzifəni tam məsuliyyəti ilə yerinə yetirən təhsil müəssisələrindəndir. Məlumat üçün bildirmək istərdim ki, iki dəfə - 2008 və 2013-cü illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə keçirilən "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqəsinin fərqlənmə balı ilə qalibi olmuş İsmayıllı şəhər 1nömrəli tam orta məktəbi rayonun ən qədim təhsil müəssisəsi və eyni zamanda regionun yeganə elektron məktəbidir. Məktəbimizin yüksək İKT imkanları mövcuddur. 12 sinif otağımız, o cümlədən dərs apardığım ingilis dili kabineti də Promethean interaktiv lövhə ilə təchiz olunub. Ona görə də İKT-dən istifadə dərsimin ayrılmaz hissəsidir. ActiveInspire proqramının çox geniş imkanlarından istifadə edərək maraqlı dərs nümunələri hazırayıram və belə dərs nümunələri ilə vaxta qənaət edərək şagirdə daha çox bilik verə bilirəm.

Dünyada təqribən 410 milyon insanın doğma dil və 1 milyard insanın ikinci dil kimi istifadə etdiyi ingilis dili daha qlobal əhəmiyyət kəsb etdikcə ölkəmizdə ona olan maraq və öyrənmə həvəsinin artması ingilis dilinin daha innovativ və kommunikativ yollarla tədrisini ön plana çəkir. Ölkəmizin ümumtəhsil sistemində kurikulum islahatları şagirdi yükləmədən standartlar reallaşdırmaqla, daha müasir və səmərəli metodlarla öyrədilməsini tələb edir. İngilis dilinin öyrədilməsində qənaətbəxş nəticələr əldə etmək üçün sinifdə şagirdlərə sərbəst atmosferin, etibarlı və dəstəkləyici mühitin yaradılması çox vacibdir. Bu, şagirdlərə öyrəndiyi sözləri nəinki sinifdə, eyni zamanda sinifdən kənarda da müstəqil, şüurlu şəkildə və düzgün istifadə edərək uğurlu ünsiyyət qurmağa imkan yaradır, onlarda sərbəst nitq vərdişləri formalaşdırır və nəticədə dilin öyrənilməsində arzuolunan nəticəyə gətirib çıxarır.

Sinifdə nailiyyət qazanmaq üçün şagirdlərə differensial yanaşmanı uğurla təmin etmək məqsədilə şagirdlərin hansı öyrənci növünə aid olduğunu yaxşı bilmək də hər bir müəllim üçün vacib məsələdir. Uzun illər boyunca alimlər və psixoloqlar insanların ən səmərəli öyrənmə üsullarını əks etdirən modellər işləyib hazırlamışlar. Onların arasında ən məşhur və daha müasir olan nəzəriyyə - VARK modeli şagirdləri öyrənmə üsuluna görə dörd qrupda təsnif edir: 1)Vizual öyrəncilər; 2)Dinləmə qabiliyyəti güclü olan öyrəncilər; 3)Yazıb-oxuyan öyrəncilər; 4)Kinestetik öyrəncilər. Şagirdin fərdi öyrənmə üslubu idraki (koqnitiv), emosional və ətraf mühit faktorlarından asılıdır və bu, bilavasitə onun davranışına da sirayət edir. Sinifdə öyrənmə üslubuna görə öz şagirdlərimi yaxşı tanımağım onların təlimə cəlb edilməsində, təlim üsulu və metodlarının, gündəlik fəaliyyətləri və qiymətləndirmə üsulu üçün tətbiq ediləcək ən yaxşı strategiyanın seçilməsində mənə bir köməkçi rolunu oynayır. Bəs ingilis dilinin tədrisi təcrübəmdə ən effektiv şəkildə istifadə etdiyim üsulllar hansılardır? Əslində, heç bir metod hamı üçün eyni dərəcədə effektiv ola bilməz, eyni zamanda heç bir metod biri digərindən effektiv deyildir; metodun üstünlüyü onun istifadə ediləcəyi təlim məqsədindən, təlim mühitindən, şagird tələbatından və onun öyrənmə üsulundan asılıdır.

Artıq səkkiz ildir ölkəmizdə tətbiq edilən milli kurikuluma əsasən tədris 4 məzmun xəttinin standartları üzrə reallaşdırılır. Birinci məzmun xəttinin-dinləmənin şagirdlərə tədrisi əhəmiyyətini göstərmək üçün bir ingilis məsəlini xatırlatmaq istərdim: Yalnız yaxşı dinləyən yaxşı danışan ola bilər. Həqiqətən bir müəllim kimi hiss edirəm ki, bütün siniflərdə şagirdlərimin ilk ehtiyacı dinləmə qabiliyyətlərinin inkişaf etdirilməsidir. Şəxsi təcrübəmdən deyə bilərəm ki, şagirdin dinləməsini ən elementar şəkildə inkişaf etdirmək üçün müəllimin sinifdə tədris etdiyi xarici dildə danışması kifayət edir. Mən sinifdə ingilis dilində danışdıqca şagirdlərimi sanki ingilis dilini dinləməyə "məruz" qoymuş oluram, əks əlaqəni ingilis dilində qurmaqla isə onlar ingilis dilindən istifadə etməyə məcbur olur, nitqinə yeni sözlər axtarıb əlavə etməklə leksik bazasını zənginləşdirmiş olur və nəhayət, şagirdin dinləməsi ilə yanaşı nitqi də inkişaf etmiş olur. Dinləməni inkişaf etdirməyin ən effektiv yolları isə audio tədris diskləri, müxtəlif tədris saytlarında verilən audio dinləmə resursları və videolardır. Ən çox istifadə etdiyim esl-lab.com və dailystepenglish.com saytlarıdır. Bu saytlarda dinləmə dərsləri audial olaraq verilir və bölmə tam olaraq mövzunu əhatə edən çoxsaylı çalışmalar və testlərlə əhatə olunur. Amma qeyd etmək istərdim ki, audio dinləmə materiallarını yerinə yetirərkən dinləmə qabiliyyəti güclü olan şagirdlər digər tip öyrəncilərə nisbətən daha çox nailiyyət qazanır. VARK modelinin bütün öyrənci növlərini fərdi və uğurlu bir şəkildə tədrisə cəlb edə bilən dinləmə materiallarından danışaraq, bu halda videoları əvəzsiz resurs olaraq göstərmək istərdim. Videolar həqiqi ingilis dilində olduğuna görə dinləməni daha çox inkişaf etdirməklə yanaşı şagirdlər üçün motivasiya verici və eyni zamanda adət-ənənələri, mədəniyyətləri əks etdirmək xüsusiyyətinə də malikdir.

Dinləmə ilə yanaşı oxu və yazı bacarıqlarını da təkmilləşdirməyə çalışdığım siniflərdə şagirdlərimin dil bacarığının inkişafını aydın müşahidə edə bilmişəm. Dərsin şagirdlərə daha maraqlı olması üçün tapşırıqların müxtəlifliyinə və hər dəfə təlim üsulunu dəyişməyə üstünlük verirəm. Əgər dinləmə tapşırıqlarının individual aparılması məqsədəuyğundursa, nitq vərdişlərinin inkişafı üçün yerinə yetirilən tapşırıqların cütlər və qruplar şəklində həyata keçirilməsi lazımdır. Cütlər və ya qrup işi zamanı müəllimin fasilitator mövqeyində olması, sinif boyu gəzərək şagirdlərə kömək və dəstək verməsi isə müasir dərsin əsas konsepsiyalarından biridir. Şagirdlərimin nitq vərdişlərinin inkişafında istifadə etdiyim ən effektiv metodlardan biri ingilis dilinin tədrisində TBL (Task Based Learning) kimi tanınan tapşırığa əsaslanan təlim üsulu bütün yaş qrupları ilə, eyni zamanda həm fərdi şəkildə, həm də kiçik qruplar şəklində reallaşdırıla bilən və nitqin inkişafına yönəlmiş tapşırıqlar məcmusudur. Tapşırığa əsaslanan təlim metodunun üstünlüyü ondan ibarətdir ki, bu metod şagirdyönümlüdür, 90% şagird fəaliyyəti üzərində qurulmuşdur, ingilis dilinin öyrənilməsində kommunikativ yanaşma növü olub dörd məzmun xəttinin dördünü də əhatə edir və ünsiyyət nəticəsində şagird nitqinin axıcı və sürətli olmasına xidmət edir. TBL prosses baxımından 3 - tapşırıqdan əvvəlki, tapşırıq dövrü və tapşırıqdan sonrakı mərhələlərə ayrılır. Birinci mərhələdə gündəlik fəaliyyətlərini əks etdirən mövzulardan birini təqdim edirəm. Məsələn, şagirdlərə oxuduqları məktəb haqqında müəyyən suallarla, məktəbdə xoşlarına gələn və ya gəlməyən element, keçdikləri fənlər haqqında suallarla müraciət edirəm. Tapşırıq mərhələsində şagirdləri qruplara ayırıb xəyallarında olan bir məktəbi təsvir etmək üçün hazırladığım iş vərəqini təqdim edirəm. Tapşırıqdan sonrakı dövrdə isə şagirdlərin yerinə yetirilmiş tapşırıq əsasında şifahi təqdimat etmələri onların nitq qabiliyyətlərini inkişaf etdirir. TBL metodunda yenə də fasilitator qismində oluram, şagirdlərin ana dilində ünsiyyət etməmələrinə nəzarət edirəm və hər bir qrup təqdimatı üçün rəy verirəm.

İngilis dilinin ikinci dil kimi tədrisi metodikasında PPP (Presentation, Practise and Production) metodu kimi tanınan təqdimat, praktika və generasiya metodu isə qrammatikanın tədrisində ən müasir yanaşmalardan biridir.

İngilis dilinin öyrənilməsi təhsildə yoldaşlarına nisbətən bir qədər az nailiyyət qazanan şagird üçün çətin və cansıxıcı görünə bilər. Bu halda ingilis dilinin tədrisində PBL (Project Based Learning) kimi tanınan layihə əsaslı tədris köməyimizə çatır. Əməkdaşlıq çərçivəsində aparılması sayəsində layihə əsaslı öyrənmə ingilis dilinin sinifdə istifadəsi ilə real həyatda istifadəsi arasında körpü rolunu oynayır. Hətta ən kiçik layihələr, mətni hissələrinə ayırıb onlara uyğun illustrasiyalar işləmək və rollarla ifa etmək və ya adət-ənənələrimizi əks etdirən bir poster təqdimatı etmək kimi kiçik layihələr yerinə yetirmək də şagirdlərdə tədrisə maraq oyadır, dilin istifadəsi zamanı olan utancaqlığını aradan qaldırmaqda onlara kömək olur.

# Musiqi dərslərini günün tələbləri səviyyəsində qurmağa çalışıram

Böyüməkdə olan nəslin bədii-estetik tərbiyəsində musiqi fənninin rolu böyükdür. Ümumtəhsil məktəblərində musiqi fənninin tədrisi şagirdlərin milli musiqi və incəsənət sahəsindəki zəngin irsimizlə tanış olmasında, müasir ölkə və dünya musiqi nümunələri, bəstəkarlar haqqında bilgilər əldə etməsində və estetik zövqünün formalaşmasında mühüm rol oynayır. Musiqinin tədrisi prosesində, eyni zamanda şagirdlərdə estetik mədəniyyət, milli və ümumbəşəri musiqi nümunələrinə maraq, yaradıcılığa meyil və s. kimi keyfiyyətlər də inkişaf edir.

Məhz bunları nəzərə alaraq mən musiqi dərslərini müasir dərsin və bu fənn üzrə kurikulumun tələblərinə uyğun qurmağa çalışıram.

Məlum olduğu kimi, musiqi fənn kurikulumu musiqi aləmi, emosional dəyərləndirmə və musiqi fəaliyyəti kimi üç məzmun xəttini özündə ehtiva edir. Birinci məzmun xətti şagirdin musiqi aləmi ilə tanışlığını, musiqinin janrları, musiqi ifadə vasitələri, bəstəkarlar haqqında zəruri, sinifdən-sinfə artan bilik və məlumatlara malik olmasını nəzərdə tutur. Bu bilik və məlumatlar hər sinif üzrə mövcud məzmun standartlarına uyğun verilməlidir ki, şagird məktəbi bitirərkən musiqi nəzəriyyəsindən kifayət qədər xəbərdar olsun, ifa etdiyi və dinlədiyi əsərlərin janrını, müəllifini müəyyənləşdirə bilsin, Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri, onların geniş yazılmış əsərləri haqqında bilik və bacarıqlara yiyələnsin.

Bunun üçün mən dərslərimdə bu istiqamətdə nəzəri biliklərin şagirdlərə aşılanmasına xüsusi diqqət yetirirəm. Çalışıram ki, şagirdlər hər dərsdə mövzuya uyğun belə bilikləri ala bilsinlər.

İkinci məzmun xətti olan emosional dəyərləndirmə isə şagirdlərdə dinlədiyi musiqi əsərlərini qiymətləndirməyi, onlarda ifadə olunan əhvali-ruhiyyəni başa düşüb şərh etməyi, ifa etdiyi melodiyaya ritm tutmağı, musiqi səhnə əsərlərində istifadə olunmuş nümunələr haqqında təqdimatlar hazırlamağı və s. bacarmalıdır.

Hər bir musiqi müəllimi bunu nəzərə almalı və öz dərslərində yetirmələrini bu bacarıqlara yiyələndirməyə çalışmalıdır. Mən də bu məsələni daim diqqət mərkəzində saxlayıram. Bu prinsipi əsas tuturam ki, əgər hər hansı bir insan əsəri dəyərləndirə bilmirsə, deməli, onu heç başa düşməyib. Buna görə də dərslərin, mövzuların verdiyi imkanlardan maksimum istifadə edərək musiqini dinləyib anlama və qiymətləndirmə bacarığını şagirdlərdə yaratmağa səy göstərirəm.

Musiqi fəaliyyəti məzmun xətti şagirdlərə mahnını tək və xor tərkibində oxumağı, musiqi alətlərində çalmağı, mahnını not və mətni ilə ifa etməyi nəzərdə tutur. Praktik bacarıqla bağlı olan bu məzmun xəttinin reallaşdırılmasına da mən dərslərimdə xüsusi fikir verirəm.

Bütün fənlər kimi musiqi fənninin də tədrisinin özülü ibtidai sinifdə qoyulur. Çalışıram ki, bu əsas, özül möhkəm olsun. Doğrudur, uşaqlar hər bir musiqi nümunəsini eyni səviyyədə qavraya bilmir, lakin müəllim uşaqların musiqini başa düşməsi üçün müəyyən hazırlıq işi apara bilər və aparmalıdır.

Bəstəkarlar və onların əsərləri haqqında müəllimin apardığı maraqlı söhbətlər, verdiyi məlumatlar uşaqların diqqətini dərsə cəlb etməsində və onlar tərəfindən mövzunun mənimsənilməsində mühüm rol oynayır. Bunu nəzərə alıb mən klassik və müasir bəstəkarların müxtəlif forma və janrda yazdıqları əsərləri başa düşmək üçün lazım olan hazırlıq işlərini aparır, uşaqlarda öyrənməyə motivasiya yaradıram.



Proqram üzrə sinifdə dinləniləcək musiqi əsərlərinin siyahısını genişləndirməyə çalışıram. Uşaqlarda musiqiyə və onu bəstələyən bəstəkarlar haqqında geniş maraq yaratmaq üçün müxtəlif yollar və üsullardan istifadə edirəm.

Musiqi dərsində şagirdlərin əksəriyyəti mahnı oxuyur. Onların səsi öz xüsusiyyətlərinə görə böyük adamların səsindən fərqlənir. Səs telləri zərif və nazik olan uşaqların çıxartdığı səslər daim zil, yüngül və ehtizazlıdır. Musiqi müəllimi bunu yaxşı bilməlidir.

Sözsüz ki, ibtidai siniflərdən başlayaraq musiqi fənninin tədrisi ilə məşğul olan müəllimlər professional baxımdan diqqəti cəlb edən bacarıq və vərdişlərin qazanılmasına xüsusi fikir verməlidirlər. Musiqi müəllimi sinifdə belə bir fikir yaratmalıdır ki, şagirdlərin hamısının nəğmə oxumaq imkanı yaradan səsi var. Lakin şagirdlərdən bəziləri oxunan mahnının melodiyasını, ritmini daha tez və mükəmməl qavrayır, digərləri isə bu işə bir qədər gec alışır. Bu prosesdə müəllimlər daha təmkinli, həssas olmalı, zəruri metodik priyomlardan bacarıqla istifadə etməlidirlər. Bu, şagirdlərin musiqi bacarığının inkişafında böyük rol oynaya bilər.

**Reyhan YAQUBOVA,**
*Bakı şəhərindəki T.İsmayılov adına 6 nömrəli məktəb-liseyin musiqi müəllimi*

# Kimyadan dərs nümunəsi

Təqdim olunan dərs nümunəsi kimya dərslərində inteqrasiyanın səmərəli formalarının yaradılması yolu ilə şagirdlərin yüksək nəticə əldə edə bilməsinin faydalı üsullarına həsr olunub.

*Fənn:* Kimya
*Sinif:* IX
*Mövzu:* Elektrolitik dissosiasiya
*Məqsəd:* Dərsin sonunda şagird:

- Elektrolitlər və qeyri-elektrolitləri sistematik şəkildə müqayisə etməyi bacarır.
- Elektrolitik dissosiasiya hadisəsinin mahiyyətini tam izah edə bilir.
- Dissosiasiya və hidratlaşma prosesləri arasında əlaqələri göstərir.
- Kimya, biologiya və fizika dərslərində qazanılmış bilik və bacarıqları müəyyən bir problem üzrə əlaqələndirməyi bacarır.

*Resurslar:* Məhlulların elektrik keçiriciliyini yoxlamaq üçün cihaz, quru NaCl, $NH_4NO_3$, $H_2SO_4$, $CuSO_4$, şəkər, qlükoza, distillə suyu, canlı qurbağa, videomaterial, POWER POINT prezentasiyası, iş vərəqləri.

*Dərsin gedişi:*

Dərsin əvvəlində şagirdlərin yeni mövzu ilə bağlı ilkin bilik və bacarıqlarını onların beynində fəallaşdırmaq lazım gəlir. Həmin amili nəzərə alaraq əvvəlki dərsdə şagirdlərə yeni mövzu ilə əlaqəsi olan qabaqlayıcı tapşırıqlar vermişdim. Şagirdlər kimya fənni üzrə atomun strukturu, kimyəvi rabitə, kristal qəfəsləri, məhlullar kimi mövzuları yaradıcı formada təkrar etmişdilər. Eyni zamanda şagirdlərə fizika fənnindən naqillərin elektrik keçiriciliyi, botanika, zoologiya və insan anatomiyası fənlərindən hüceyrə sitoplazmasının tərkibi ilə bağlı öyrənilmiş mövzulara yenidən təkrar baxılması tapşırılmışdı. Bu cür tapşırıqlar şagirdlərə yeni mövzunu açmağa və onun mahiyyətini dərindən başa düşməyə kömək edir.

Yeni mövzunu açmaq üçün şagirdləri bir neçə təcrübə aparmağa dəvət edirəm. İmkan yaradıram ki, onlar özləri bu təcrübələri müstəqil apara bilsinlər. Bu zaman lazım olan təlimatı həm təcrübədən əvvəl şagirdlərə bildirir, həm də zəruri olduqda işin gedişi zamanı onlara kömək edirəm. Şagirdlər cütlərə bölünərək aşağıdakı təcrübələri növbə ilə icra edirlər ki, təcrübələr zamanı müşahidə olunan hadisələri hamı görə bilsin:

- NaCl duzunun adi quru və sulu məhlul halında elektrik keçiriciliyinin yoxlanması.
- Şəkərin adi quru və sulu məhlul halında elektrik keçiriciliyinin yoxlanması.

Bu təcrübələrdə müşahidə olunan hadisələrin səbəbi haqqında şagirdlərdən soruşduqda sinifdə böyük maraqdan doğan canlanma yarınır. Şagirdlərin bütün fikirləri lövhədə qeydə alınır. Daha sonra problemin həllində ilkin açar rolunu oynayacaq videomaterial nümayiş etdirilir. Həmin videomaterialda ion kristal qəfəsli maddənin suda həll olarkən ionlara necə ayrılmasının animasiyası əks olunur. Animasiya nümayişi zamanı yalnız müəyyən məqamlara qısa izahat verməklə kifayətlənirəm. Animasiyada göstərilən proseslərə əsas izahatı isə şagirdlərdən almağa çalışıram. Bu zaman mövzunu açmağa kömək edən yönəldici suallardan istifadə edirəm:

- Su molekulları kristal qəfəsin dağılmasına necə təsir edir?
- Suyun polyar molekulları kristaldakı əks yüklü ionları necə ayırır?
- Apardığımız təcrübələrdə müşahidə etdiyiniz hadisələrlə bu animasiya arasında hansı əlaqələr ola bilər?

Bu qısa müzakirədən sonra yeni mövzu və onun mahiyyəti müəyyən qədər aydınlaşır. Şagirdlərə bildirirəm ki, müşahidə etdiyimiz bu hadisə elektrolitik dissosiasiya adı ilə elmdə məşhurdur. Daha sonra şagirdlər cütlər formasında açağıdakı təcrübələri aparmağa dəvət olunur.

- Qatı sulfat turşusunun nazik axınla və ehtiyatla suyun üzərinə töküməsi, bu zaman güclü qızma hadisəsi müşahidə edilir.
- $NH_4NO_3$ duzunun suda həll edilməsi, bu zaman məhlulda güclü soyuma hadisəsi müşahidə edilir.
- Susuz $CuSO_4$ duzunun suda həll edilməsi və bu zaman rəng dəyişməsinin müşahidəsi.
- Canlı qurbağaya müəyyən qədər zəif elektrik impulsları ilə təsir edilməsi və onun toxumalarının elektrik keçiriciliyinin müşahidəsi.

Təcrübələr aparılarkən şagirdlərə bidirirəm ki, bütün bu hadisələr elektrolitik dissosiasiya hadisəsi ilə müəyyən qədər bağlıdır. Ona görə ki, bütün bu hadisələrdə dissosiasiya nəticəsində məhlulda əmələ gəlmiş ionlar iştirak edir. Bütün bu təcrübələr və onların qısa müzakirəsindən sonra şagirdlərdə elektrolitik dissosiasiya hadisəsini daha dərindən araşdırmaq marağı meydana gəlir. Bu maraqdan doğan tədqiqat sualı sinfə elan olunur:

*Tədqiqat sualı:*

Dissosiasiya nəticəsində əmələ gələn ionlar məhlulda özlərini necə aparırlar?

Şagirdləri qruplara bölərək, hər qrupa müəyyən tədqiqat tapşırıqları verirəm. Tapşırıqlar elə formada verilir ki, onların icrasında təkcə kimya fənni üzrə bilik və bacarıqlar deyil, həmçinin fizika, biologiya və riyaziyyat fənlərindən alınan bacarıqların da tətbiqi zəruri olsun. Müvafiq tədqiqat istiqamətləri cədvəl 1-də verilmişdir:

Cədvəl 1: Şagirdlərin apardığı tədqiqat işinin istiqamətləri

| Mövzu | Fənn | | | |
|---|---|---|---|---|
| | Kimya | Fizika | Biologiya | Riyaziyyat |
| Elektrolitik dissosiasiya | 1.Elektrolitlərdə kimyəvi rabitələrin xarakteri.<br>2.Qeyri-elektrolitlərdə kimyəvi rabitənin xarakteri.<br>3.Elektrolitlərin dissosiasiyası<br>4.Hidratlaşma | 1.Dissosiasiya nəticəsində əmələ gələn ionlar arasında təsir göstərən Kulon qüvvələrinin xarakteri<br>2.Həlledicinin dielektrik nüfuzluğunun dissosiasiya prosesinə təsiri | 1.Hüceyrə sitoplazmasında olan ionların varlığı | Əldə olunan tədqiqat nəticələrinin riyazi analizi |

Tədqiqat istiqamətləri araşdırılandan sonra şagirdlərdə dissosiasiya hadisənin mahiyyəti haqqında tam təsəvvür formalaşa bilər. Sonra qruplara tapşırıqlar verilir.

I Qrup:
1.Nə üçün xörək duzu məhlulu elektriki keçirir, şəkər məhlulu isə keçirmir?
2. Elektrolitlər üçün hansı növ kimyəvi rabitələr xarakterik ola bilər?
3.Xörək duzunun elektrolitik dissosiasiya tənliyini təsvir edin.

II Qrup:
1. Aşağıdakı anlayışları izah edin:
a) kation b) anion c) katod e) anod
2. Suyun dielektrik nüfuzluğu xörək duzu məhlulunda Na+ və Cl- ionları arasındakı cazibə qüvvəsinə necə təsir edir? Kulon qanununun bu situasiya üçün izahını verin.
3. Hər birinin içərisində ayrı-ayrı duz məhlulu olan üç kolba verilmişdir:
a) I kolbada 4 mol $K_2SO_4$ duzunun suda məhlulu
b) II kolbada 12 mol NaCl duzunun suda məhlulu
c) III kolbada 9 mol $Al(NO_3)_3$ duzunun suda məhlulu
Hər bir məhluldakı duzun tam dissosiasiya etdiyi məlumdur. İsbat edin ki, I>II>III qab istiqamətində məhlullardakı ionların sayı ədədi silsilə təşkil edir.

III Qrup:
1. Canlı orqanizmin hüceyrə sitoplazmasının elektrik keçiriciliyində ionların rolu varmı?
2. Təbii sularda və müxtəlif içkilərdə həll olmuş mineral duzların ionlara ayrılmasını necə izah etmək olar?
3. Qatı $H_2SO_4$ və $NH_4NO_3$ duzunun suda həll edilməsi zamanı müvafiq olaraq güclü qızma və soyuma baş verməsinin səbəbi nədir?
4. Susuz $CuSO_4$-ün suda həll olması zamanı rəng dəyişməsinin səbəbini araşdırın.

Qruplara tədqiqat üçün müəyyən vaxt verirəm. Bu müddət ərzində çalışıram ki, çətinlik çəkdiyi məqamlarda şagirdlərə müəyyən istiqamətləndirici kömək edim. Şagirdlər elektrolitik dissosiasiya hadisəsinin bütün istiqamətlərdə araşdırır: elektrolitlərin kimyəvi təbiəti, Kulon qüvvələrinin bu prosesə təsiri, canlı orqanizmin hüceyrə sitoplazmasında mineral duzların ionlara dissosiasiya etmiş halda olması. Tədqiqatı müstəqil və geniş istiqamətlərdə aparmaqla şagirdlər elektrolitik dissosiasiya hadisəsinin mahiyyətini tam şəkildə dərk etmiş olurlar.

*İnformasiya mübadiləsi:*

Tədqiqata verilmiş vaxt bitdikdən sonra qruplar arasında informasiya mübadiləsi başlayır. Şagirdlər tədqiqat zamanı əldə etdikləri yenilikləri qruplar arasında paylaşaraq lazımi sualları bir-birinə verirlər.

*Müzakirə:*

İnformasiya mübadiləsi başa çatdıqdan sonra təqdimatlar üzrə elektrolitik dissosiasiya mövzusunun ən incə detalına kimi müzakirəsi başlayır. Müzakirə zamanı həm kimya fənni üzrə mövzulararası əlaqələr, həm də kimya, biologiya və fizika fənləri arasındakı inteqrasiya əlaqələrinə aid suallara üstünlük verirəm:

1. Elektrolitlər və qeyri-elektrolitlər üçün hansı kimyəvi rabitələr xarakterikdir?
2. Elektrolit məhlulları və digər növ naqillər arasında hansı oxşarlıq və fərqlər vardır?
3. Hüceyrə sitoplazmasının elektrik keçiriciliyinin səbəbi nədir?
4. Nə üçün elektrolitlər suda həll olduqda ionlar arasındakı cazibə qüvvəsi (Kulon qüvvələri) zəifləyir?
5. Nə üçün hüceyrə sitoplazmasında mineral duzlar ayrı-ayrı ionlar şəklində mövcud olur?
6. Xörək duzunun suda həll olduqda ionlara ayrılmasının səbəbi nədir?
7. Suyun dielektrik nüfuzluğunun mahiyyəti necədir?
8. Xörək duzu məhlulu elektriki keçirir, şəkər məhlulu isə keçirmir. Səbəbləri göstərin.
9. Nə üçün ağ rəngli susuz $CuSO_4$ duzunu suda həll etdikdə rəng dəyişməsi baş verir?
10. Nə üçün $NH_4NO_3$ duzu suda həll olduqda güclü soyuma baş verir?
11. Elektrolitik dissosiasiya prosesinin dönər proses olması nə deməkdir?
12. Elektrolit məhlulundan elektrik cərəyanı keçən zaman kation və anionlar necə hərəkət edir?

*Yaradıcı tətbiqetmə:*

Müzakirələr başa çatdıqdan sonra şagirdləri əldə olunmuş nəticələri yaradıcı formada sistemləşdirməyə dəvət edirəm. Nəticə olaraq elektrolitik dissosiasiya hadisəsinin əsas müddəaları sistemləşdirilir. Daha sonra şagirdlərə mövzu üzrə test sualları təqdim olunmaqla onların dərsdə əldə etdikləri bilik və bacarıqların test həllinə tətbiqi səviyyəsi yoxlanılır.

*Qiymətləndirmə:*

Bütün dərs prosesi ərzində şagirdlərin müəyyən meyarlar əsasında qiymətləndirilməsi həyata keçirilir.Bu meyarlar arasında şagirdlərin müxtəlif fənlərdən aldığı bilikləri bir problem ətrafında əlaqələndirmək bacarığı da yer almışdır. Həmin meyarlar cədvəl 2-də verilmişdir:

Cədvəl 2: Şagirdləri qiymətləndirmə meyarları

| Meyarlar | I qrup | II qrup | III qrup |
|---|---|---|---|
| Elektrolitik dissosiasiya hadisəsinin mahiyyətini izah edir | | | |
| Verilmiş suallara izahlı cavab verir | | | |
| Problemin həllində bir neçə fənni əlaqələndirməyi bacarır. | | | |
| Kimyəvi təcrübələri sərbəst və dəqiq formada icra edir | | | |
| Tədqiqatın nəticələri haqqında mükəmməl təqdimat hazırlayır | | | |
| İntizamlılıq və digər şagirdlərlə əməkdaşlıq səviyyəsi | | | |

Şagirdin özünüqiymətləndirməsi və refleksiyasını diqqətlə təşkil edirəm. Refleksiya zamanı aparılan söhbətin çox mühüm tərkib hissələrindən biri də şagirdin müxtəlif fənlərdən aldığı bilik və bacarıqların eyni bir mövzunun öyrənilməsinə tətbiqi məsələsidir.

**Rəvan MƏMMƏDOV,**
*Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Lisey-Məktəb Kompleksinin kimya müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi*



# "Möhtəşəm yaxşı məkan"... kitabxana

Məlumdur ki, bəşəriyyətin yüksək mədəni-mənəvi inkişafının ən mühüm şərtlərindən və göstəricilərindən biri məhz kitab və ya kitabxanalardır. Hələ qədim dövrlərdən insanın özünüifadə etməyə olan daxili ehtiyacı özünü ən müxtəlif formalarda göstərmişdir. Qaya üzərində müəyyən rəsm və piktoqrafik işarələr, xətt və yazılar əks etdirmək, əslində elə insanın ən çətin şərtlər daxilində (daşa, qayaya yazı yazmaq bahasına olsa belə!) özünü reallaşdırmaq arzusunun əyani nümunəsi idi. Bu baxımdan yazının kəşfi bəşəriyyətin tarixi-mədəni inkişafında fundamental dəyişikliklər yaratdı. Təsadüfi deyildir ki, yazının kəşfi informasiya inqilablarından biri kimi bəşəriyyətin tarixində həkk olunmuşdur.

Bəşəriyyətin inkişafında növbəti informasiya inqilabı isə Almaniyada kitab çapı texnologiyasının meydana gəlməsi ilə baş verdi. Kitab çapı texnologiyasının kəşf olunması və onun sonralar daha da mükəmməlləşdirilməsi, cəmiyyətin maarifləndirilməsinə, biliyin tirajlanmasına, informasiyanın daha geniş məsafalərdə yayılmasına, eyni zamanda biliyin daha əlçatan olmasına gətirib çıxardı.

İnsanın biliyə, öyrənməyə olan həvəsi, məlumat əldə etmək ehtirası, bilmədikləri, görmədikləri haqqında oxumaq, eşitmək marağı son nəticədə məlumat mənbəyi olan milyonlarla kitabları və onların fiziki olaraq saxlanılması, qorunması, istifadəsinin asanlaşdırılması və idarə olunması, həmçinin müəyyən məkanlarda cəmlənməsi zərurətini ortaya qoydu ki, bu da kitabxana ideyasının ortaya çıxmasına səbəb oldu. Lakin sadaladığımız bəzi faktorlar kitabxanaların meydana çıxmasını zəruri edən ilkin şərtlər idi. Bəşəriyyətin sosial-iqtisadi həyatında baş verən irəliləyişlər, texnoloji kəşflər, ümumilikdə insanın həyat şəraitinin yüksəlməsi zəminində biliyə, məlumata olan ehtiyacı və onu ödəmək imkanları da keyfiyyətcə dəyişməyə başladı ki, bu da kitabxananın yalnız kitabların fiziki olaraq yerləşdiyi məkan kimi deyil, daha dərin məzmun kəsb etməsinə yol açdı. Kitabxana artıq sadəcə olaraq kitabların cəmləndiyi yer kimi yox, biliyin, maariflənmənin, öyrənmənin mənbəyi, fərdin və ya cəmiyyətin intellektual inkişafının simvollarından birinə çevrildi.

İnformasiya-kommunikasiya texnologiyalarının, konkret desək, İnternetin meydana gəlməsinə qədərki dövr üçün kitabxanaların (eləcə də kitabların) mahiyyəti və rolu fərqli olmuşdur. Belə ki, kitabxanalar maddi-texniki imkanlarından asılı olaraq insanların asudə vaxtlarını səmərəli keçirməsi, istirahət etməklə bilik əldə etməsi, əylənməsi, intellektual inkişafa xidmət edən müsabiqə, debat, yarışların keçirilməsi, sərgi və təqdimatların nümayiş etdirilməsi və s. funksiyaları da özündə ehtiva edə bilmişdir. Təbii ki, buraya kitabxanaların kifayət qədər əlavə funksiya və rollarını da əlavə edə bilərik. Məsələn, insanların sosiallaşması, kollektivləşməsi baxımından kitabxanalar çox mühüm əhəmiyyətə malikdir. Həmçinin kitabxana gənclərin görüş yeri, bilik mübadiləsi və müzakirəsi üçün əlverişli məkan kimi də xarakterizə oluna bilər. Lakin müasir dövrdə cəmiyyətin yüksək inkişafı, informasiya-kommunikasiya texnologiyalarının insan həyatının bütün sahələrinə sürətlə daxil olması, qloballaşma və virtuallaşma proseslərinin getməsi və s. faktorlardan asılı olaraq kitabxanaların da strukturu, mahiyyəti və funksiyası dəyişməyə başlamışdır.

Lakin bizim burada müzakirə etmək istədiyimiz məsələ birbaşa olaraq müasir informasiya-kommunikasiya texnologiyaları şəraitində kitabxanaların rolu və funksiyasından daha çox, "möhtəşəm yaxşı məkan" məsələsi aspektindən kitabxanaların yerinin müəyyənləşdirilməsidir.

Elmi peşəkar dövriyyədə "möhtəşəm yaxşı məkan" (ingilis dilində: "Great Good Place", rus dilində: "Velikoe xoroşee mesto") məsələsi xeyli müddətdir müzakirə olunur. İlk dəfə bu anlayış Amerika sosioloqu Rey Oldenburq tərəfindən elmi dövriyyəyə gətirilmişdir. Onun ilk dəfə 1989-cu ildə nəşr etdirdiyi kitabının adı belə idi: "Möhtəşəm Yaxşı Məkan: Kafe, kafeteriya, ictimai yerlər, univermaqlar, barlar və onlar gün ərzində sizi necə qəbul edirlər" ("Great Good Place: Cafes, Coffee Shops, Community Centers, General Stores, Bars, Hangouts, and How They Get You through the Day"). Kitabın növbəti nəşrlərində sərlövhədə müəyyən dəyişikliklər edilsə də, müəllifin yanaşmasına görə, insanın həyatının bağlı olduğu əsas üç məkan vardır ki, bunlardan birincisi ev, ikincisi qazanc əldə edilməsi və ya istehsalat (yəni iş - A.M.), üçüncüsü isə cəmiyyətin əsasını təşkil edən hər cür ünsiyyət və münasibət sferasıdır. Müəllifin verdiyi izahlardan aydın olur ki, "üçüncü məkan" insanların sərbəst toplaşdığı, istirahət etdiyi, ünsiyyət və münasibət qurduğu, ən müxtəlif həyat və məişət problemlərini bir yana ataraq üz tutduğu kafe, klub, kitab mağazaları, bərbərxana, gözəllik salonu və s. kimi yerlərdir.

Qeyd etmək lazımdır ki, "Möhtəşəm yaxşı məkan" problemini elmi dövriyyədə gündəmə gətirən Pyotr Mixayloviç Lapodur. İxtisasca tətbiqi riyaziyyatçı olan alim 1994-cü ildən Belarus Milli Elmlər Akademiyasının Elmi kitabxanasında kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir. Alim 15 il ərzində Belarus Dövlət Universitetinin Fundamental kitabxanasına rəhbərlik etmiş, 2015-ci ildən etibarən isə Qazaxıstanda (Astanada) Nazarbayev Universitetinin Elmi kitabxanasında baş ekspert kimi fəaliyyət göstərir.

Rey Oldenburqun bu yanaşmasına və ümumiyyətlə, "möhtəşəm yaxşı məkan" məsələsinə diqqət yetirən P.M.Lapo sadalanan yerlər arasında kitabxanaların xatırlanmamasına diqqət çəkir və yazır: "Kitabxananın adı "üçüncü yer" kimi xatırlanmır, təbii olaraq sual meydana çıxır: Nə üçün? Hərçənd Amerika Kitabxanalar Assosiasiyasının məlumatına görə, 2012-ci ildə ABŞ-da kütləvi kitabxanalar Makdonalds kafelərindən çoxdur (kitabxanaların sayı filialları da daxil olmaqla 16.766-dır); ABŞ-ın orta yaşlı əhalisinin 58%-nin oxucu bileti var, amerikanlar həftədə kinoteatrlardan 3 dəfə çox məktəb, kütləvi, elmi kitabxanalarda olurlar" (Lapo P.M. "Velikoye xoroşee mesto"- www.litera-ml.ru).

P.M.Lapo bütün bunları nəzərə alaraq qeyd edir ki, tamamilə məntiqi olaraq digər suallar meydana çıxır: "Kitabxananı "üçüncü yer" hesab etmək olarmı?", "R.Oldenburqun kitabı "Möhtəşəm yaxşı məkan" adlandığı halda nə üçün kitabxanaya "üçüncü yer" mənasında baxmalıyıq? .

P.M.Laponun apardığı tədqiqatdan aydın olur ki, "möhtəşəm yaxşı məkan" ifadəsi hələ Rey Oldenburqdan xeyli əvvəl, XIX əsrin sonu XX əsrin başlanğıcında yaşamış Amerika yazıçısı Henri Ceymsin 1900-cü ildə çap olunmuş hekayələrindən birinin adı olmuşdur. Əsərin baş qəhrəmanı olan Corc Deyn adlı yazıçı obrazı elə bir yer arzulayır ki, məhz orada dincəlib, tükənmiş gücünü bərpa edə bilsin, həm də orada dostlarla, özü kimi insanlarla səmimi söhbətlər etmiş olsun. Və yuxuda bu arzusunu həyata keçirir.

P.M.Lapo qeyd edir ki, Rey Oldenburq kitabında məhz Corc Deynin yuxuda həyata keçirdiyi arzusunu reallaşdırmaq üçün vacib olan məkanlara - kafe, bar, gözəllik salonu və s. yerlərə diqqəti cəlb edir. O yerlər ki, orada insan işgüzar söhbət və ailə problemlərindən uzaqlaşaraq başqa insanlarla arzuolunan ünsiyyətdən və bu yerlərin aurasından müsbət enerji ilə yüklənir. Yəni P.M.Laponun qənaətinə görə, Rey Oldenburq məhz bu baxımdan kitabını "Möhtəşəm Yaxşı Məkan: Kafe, qəhvəxana, ictimai yerlər, univermaqlar, barlar və onlar gün ərzində sizi necə qəbul edirlər" kimi adlandırmışdır.

Lakin P.M.Lapo məqaləsində başqa bir məqama da diqqəti cəlb edir. O belə bir sual qoyur ki, bəs nə üçün hər bir insanın gündəlik həyatında olan kafe, bar və gözəllik salonu kimi adi məkanlar sonradan "möhtəşəm yaxşı məkan" və hətta "cəmiyyətin və demokratiyanın sosial mövcudluğunun ürəyi" səviyyəsinə yüksəldilir? P.M.Laponun qoyduğu bu suala verdiyi izahdan aydın olur ki, R.Oldenburq öz kitabında "üçüncü yer" məsələsi ilə bağlı qədim yunan demokratiyası dövründə aqora, amerikan inqilabı illərində taverna (aşxana, meyxana), fransız inqilabı zamanı kafe, Londonda maarifçilik epoxası zamanı qəhvəxana kimi tarixi faktları gətirməklə bu problemin ümumictimai əhəmiyyətini əsaslandırmaq və ona cəmiyyətin və dövlətin diqqətini cəlb etmək istəyirdi. O, cəmiyyətdə demokratiyanın inkişafı ilə onların (yəni həmin məkanların - A.M.) əlaqəsini nümayiş etdirir və Qərb cəmiyyətinin mühüm bir dəyərinin - hazırda humanizm və demokratiya ideyalarının davamı kimi xarakterizə olunan individualizmin qorunmasında onların əhəmiyyətini vurğulayır.

R.Oldenburq kitabının yeni nəşrində onun adını dəyişdirmiş və belə təqdim etmişdir: "Kafe, qəhvəxana, kitab mağazaları, barlar, bərbərxanalar və digər yığıncaq yerləri ictimaiyyətin ürəyində". Bütün bu fikirləri əsas gətirərək P.Lapo qeyd edir ki, kitabxananın dövlət tərəfindən qurulduğu və maliyyələşdirildiyi üçün fərdi, şəxsi təşəbbüs kəsb etmir və müəyyən sosial funksiya daşıyır. Beləliklə də, onu (yəni kitabxananı - A.M.) müəllif tərəfindən təklif olunan üçüncü məkanların siyahısına daxil etmək və "üçüncü məkanların" "cəmiyyətdə demokratiyanın dayağı" konsepsiyasına uyğun hesab etmək düzgün görünmür.

Bütövlükdə, R.Oldenburqun "üçüncü məkan"ların cəmiyyətdə demokratik dəyər və ideyaların qorunması, inkişaf etdirilməsi ilə bağlı konsepsiyasına qarşı çıxan P.Lapo gözəllik salonu, bərbərxana, bar, kafe və s. kimi məkanların insanın dünyagörüşünün, ictimai davranışlarının formalaşmasında mühüm əhəmiyyət kəsb etmədiyini, fərdi olaraq hər kəsə fərqli təsir etdiyini qeyd edir. Müəllifin yanaşmasına görə, belə məkanlara insanlar artıq özlərinin formalaşmış baxışları, dünyagörüşləri və davranışları ilə gəlirlər. Kitab haqqında təhlillərini yekunlaşdıran P.Lapo yazır ki, əgər Rey Oldenburqun kitabında dəyərlər konteksti və "üçüncü məkanların" ictimai və siyasi həyatda totalitarizmin və iqtisadi sferada kapitalın monopolist hakimiyyətinə qarşı hədəflənmiş məqsədi olmasaydı, o kulturoloji tədqiqatların geniş ictimai diqqətini kəsb edən ciddi bir əsərdən daha çox, tarixi lətifələr toplusu ola bilərdi və bəlkə də, "Möhtəşəm yaxşı məkan"-dan daha çox "üçüncü məkan" adı onu daha uzağa apara bilərdi.

Rey Oldenburqun "üçüncü məkan" və ya "möhtəşəm yaxşı məkan" konsepsiyasının perspektivindən Azərbaycan mədəniyyəti tarixinə nəzər yetirsək, müəllifin vurğuladığı həmin məkanlar barədə müəyyən fikirlər söyləmək mümkündür.

Əvvəla, onu deyək ki, ümumtürk və Şərq-müsəlman mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyəti bugünkü vəziyyətinə uzunillik inkişaf yolu keçərək gəlib çıxmışdır. Təbii ki, bu mədəniyyətin formalaşmasında və inkişafında müxtəlif dövrlərdə cəmiyyətdə gedən çoxşaxəli proseslərin mühüm rolu olmuşdur.

Erkən Orta əsrlərdə islamlaşmış ərazilərdə bəzi sosial-siyasi hadisələr baş verdi ki, həmin hadisələrin təsiri və həm də nəticəsi olaraq bir sıra dini ehkam və yasaqlar, ya tamamilə aradan qaldırıldı, ya da xeyli dərəcədə yumşaldıldı. Belə ki, VIII-IX yüzilliklərdən başlayaraq, hakimiyyət uğrunda gedən siyasi çarpışmalarda məğlubiyyətə uğrayan bir sıra nüfuzlu İslam ideoloqları arasında bu dini dünyagörüşün bəzi müddəalarının təshihi və yeniləşdirilməsi meyilləri yarandı ki, bu da ayrı-ayrı təriqətlərin meydana gəlməsiylə nəticələndi (Kerimov Q. Alğ-Qazali i sufizm.- Baku: "GLM", 1969.- 109 c., c.87-89).

Orta əsrlərdə Azərbaycan müxtəlif feodal imperiyalarının əsarəti altında olmuş, əvvəlcə monqolların, sonra isə Teymurilər imperiyasının işğalları baş vermişdir. Bu işğal və basqılar zəminində bir sıra üsyanlar, etirazlar meydana gəlmişdi. Belə etiraz formalarından biri də mahiyyətində müəyyən demokratik ideya və azadlıq düşüncələrini əks etdirən, insanların, savadlı və ziyalı şəxslərin topladığı təriqət və cərəyanlar idi. Nə qədər ədəbi-bədii, fəlsəfi-estetik mahiyyət kəsb etməsindən asılı olmayaraq təriqətlər müəyyən mənada, bəzən rəmzi simvolik, bəzən isə birbaşa olaraq insanın daxili-mənəvi azadlığı ideyasını təbliğ edir və yayırdı. Bu prizmadan baxdıqda, orta əsrlər Azərbaycan mədəniyyətinin formalaşması və inkişafında mühüm rol oynayan təriqət və cərəyanların - ideya, fikir, əqidə generatorlarının cəmiyyətin ideoloji əsaslarının təşkil olunmasındakı rolunu görmək mümkündür. Məsələn, sufi-dərvişlər təkkə ocağında cəmləşərək, öz ayin, mərasim və ideyalarını icra və təbliğ edirdilər.

Və ya XIV əsrdə Azərbaycan ərazisində yaranan, daha sonra bir sıra ərazilərə də yayılan hürufilik təriqətinin mahiyyətində, əslində yadellilərə, zülm və əsarətə qarşı mübarizə, insan azadlığı və hüquqlarının əldə olunmasına çağırış idi. Bunu isə, Rey Oldenburqun vurğuladığı fransız və amerikan inqilabının, eləcə də ingilis maarifçiliyinin meydana gəlməsində mühüm rol oynayan kafe, qəhvəxana, meyxana kimi "üçüncü məkanlar"la müqayisə etmək mümkündür.

Bundan əlavə, əgər biz Azərbaycan folklor nümunələrinə, xüsusən nağıl və dastan süjetlərinə baxsaq görərik ki, burada insanların toplaşdığı, biri-biri ilə ünsiyyətə girdiyi, fikir mübadiləsi etdiyi məkanlardan biri də çayxanalar, aşxana, hamam və karvansaraylardır.

Bütün bu faktlar onu deməyə əsas verir ki, Rey Oldenburqun qeyd etdiyi xüsusi məkanlar, Azərbaycan mədəniyyətində də aktiv məkanlar kimi xüsusi əhəmiyyət kəsb etmiş, cəmiyyətin və ayrı-ayrı insan qruplarının toplaşdığı, cəmləşdiyi yerlər kimi yaddaşlarda əks olunmuşdur.

Çağdaş dövrümüzdə virtual texnologiyaların geniş tətbiq olunması, elektron informasiya resurslarına tələbatın artması kitabxana işini və kitabxanaçılıq peşəsini yeni bir mərhələyə transformasiya etmişdir. P.Laponun da vurğuladığı kimi, "kitabxanalar saxlanc yeri"-ndən "informasiyanın əldə olunma nöqtəsi"nə çevrilmişdir ki, bu da kitabxanaya müraciət edən şəxsin "oxucu"dan informasiya "istifadəçi"sinə çevrilməsinə gətirib çıxarmışdır.

Təbii ki, belə bir şəraitdə bir tərəfdən kitabxanaların üzərinə düşən vəzifələr, digər tərəfdən də kitabxanaların funksional mahiyyəti, fəlsəfi əhəmiyyəti dəyişir. Artıq kitabxanalar insanların intellektual inkişafına xidmət edən, onun informasiya ehtiyaclarını ödəyən, başqa sözlə desək, informasiya təhlükəsizliyini təmin edən yeni məkan kimi xarakterizə olunmalıdır.

**Arzu MƏMMƏDOVA,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin baş biblioqrafı*

## "Tərəqqi" texniki-humanitar liseyində ədəbi-bədii tədbir

Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Tərəqqi" texniki-humanitar liseyində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş "Tarixin bir günü, ya bir günün tarixi" mövzusunda ədəbi-bədii anım tədbiri keçirilib. Dövlət himninin ifası ilə başlayan tədbirdə öncə Xocalı qətliamında və azadlıq uğrunda mübarizələrdə həlak olan vətən oğul və qızlarının xatirəsi bir dəqiqəlik sükütla anılıb. Sonra aparıcılar Ləman və Fidan tədbiri açıb, "Bayatı Şiraz" muğamının sədaları altında bayatılar söyləyiblər.

Tədbirin iştirakçısı olan müəllimlər, valideynlər və şagirdlər daha sonra "Mən Xocalıyam" adlı kompozisiyanı dinləyiblər. Liseyin Azərbaycan və rus bölmələrindən olan istedadlı şagirdlərinin təqdim etdikləri ədəbi-bədii kompozisiya iştirakçılarda kövrək anlar yaşadıb. Şagirdlərdən Fuad, Kənan, Adəm, Bəybala, Elmira, Nigar, Alina və başqaları Xocalı faciəsi haqqında danışıb, soyqırımı zamanı ermənilərin törətdikləri vəhşilikləri sübut edən faktları dilə gətiriblər. Məktəblilərdən Selcan, Günel, Nigar, Vüsal, Vəfa, Sürəyya, Zəhra, Fatimə, Fidan, Ayna, Dəniz və b. Xocalı hadisələrinə həsr olunmuş "O gecə", "O qızın göz yaşları", "Laylay, Xocalım, laylay", "Ağlama, ana, ağlama", "Xocalı harayı" şeirlərini söyləyiblər.

Tədbir boyu Xocalı dəhşətlərini əks etdirən videomaterial və bu soyqırımın dünya dövlətləri tərəfindən tanınmasına həsr edilmiş slaydlar nümayiş olunub. Sonra aparıcılar Xocalı soyqırımının həmişə xalqımızın yaddaşında matəm rəmzi kimi qalacağını, Heydər Əliyev Fondunun xəttilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının nəticəsi olaraq getdikcə daha çox dövlətin bu faciəni soyqırım kimi tanıdığını bildiriblər. Qeyd olunub ki, ölkə Prezidenti İlham Əliyevin sərəncamına əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində başlanmış bərpa işləri və soydaşlarımızın öz yurd-yuvalarına dönməsi xalqımızda işğal olunmuş torpaqlarımızın tezliklə qaytarılacağına böyük ümidlər doğurub.

Sonda "Xocalı" filmindən mahnı səsləndirilib.

**Sevda YARMETOVA,**
*"Tərəqqi" texniki-humanitar liseyinin tarix müəllimi*

## "Demə, Səməd Vurğun gəldi-gedərdi"

Bakıdakı 247 nömrəli tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi Güllü Əzizovanın təşkilatçılığı ilə dahi Azərbaycan şairi Səməd Vurğuna həsr olunmuş "Demə, Səməd Vurğun gəldi-gedərdi" mövzusunda ədəbi-bədii kompozisiya keçirilib.

Öncə şairin yaradıcılığından və onun azərbaycançılıq, vətənpərvərlik məfkurəsindən doğan qürur hissindən söhbət açılıb. Şairin öz səsi ilə təqdim olunan şeiri iştirakçıları çox təsirləndirib. Daha sonra söz şagirdlərə verilib. Onların ifasında şairin "Vaqif", "Fərhad və Şirin" dramlarından, "Aygün" poemasından hazırlanmış səhnəciklər göstərilib. Doğma vətənlə, onun təbiəti, insan və onun əsrarəngiz duyğuları ilə bağlı şeirlər dinlənilib. Şagirdlərin çıxışları alqışlarla qarşılanıb. Dahi şairin əsərlərinin mötivləri əsasında hazırlanmış rəsm əsərləri, portretlər tədbir iştirakçılarının böyük marağına səbəb olub.



Tədbirdə Səməd Vurğunun ev-muzeyinin əməkdaşları çıxış edərək şagirdlərin məharətlə təqdim etdikləri şeir, mahnı və səhnəciklərin maraqlı olduğunu vurğulayıblar.

Məktəbin direktoru Nihal Hacıyeva şairin yaradıcılığından söz açaraq qeyd edib ki, Səməd Vurğun müasir və tarixi-əfsanəvi mövzularda əsərlər müəllifi kimi tanınıb. Şairin "Ölüm kürsüsü", "Qız qayası", "Dar ağacı", "Ölən məhəbbət", "Aslan qayası", "Üsyan", "Bəsti", "Ayın əfsanəsi" və "Bulaq əfsanəsi" əsərləri bu qəbildəndir. Ana dilimizin şeiriyyət və ahəngini dərindən duyan şair ədəbiyyatla xalq arasında möhkəm bağlılıq yaradaraq özü də bu birliyin bayraqdarına çevrilib. Şairin poeziyası multikulturalizmə, tolerantlığa və birliyə çağırış himni kimi səslənir. Bu mütərəqqi tendensiyaları bədii irsində mükəmməl şəkildə birləşdirməyi bacaran Səməd Vurğun ürəklərdə özünə əbədi heykəl ucaldıb.

Tədbir ulu öndər Heydər Əliyevin ifasında "Azərbaycan" şeirinin videoçarxının nümayişi ilə sona çatıb.

**Rəşad ZİYADOV,**
*"Azərbaycan müəllimi"*

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu

Azərbaycan Respublikası Təhsil Nazirliyi "Azərbaycan müəllimi" qəzeti

# "II YAZI" MÜSABİQƏSİ

## ELAN EDİR

Ölkənin təhsil müəssisələrində çalışan müəllimlər, pedaqoqlar tədris etdikləri fənlərlə bağlı fərdi pedaqoji təcrübələrini, müasir dərsin əsas meyarlarını özündə əks etdirən metodiki yazılarını təqdim etməklə müsabiqədə iştirak edə bilərlər. Yazılar 01 mart 2017-ci il tarixdən 31 mart 2017-ci il tarixinədək ***muallim@edu.gov.az*** elektron poçt ünvanında qəbul ediləcək. Təqdim olunan yazılar tanınmış pedaqoq, alim və təcrübəli müəllimlərdən ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Təşkilat Komitəsi tərəfindən keçiriləcək təntənəli mərasimdə qaliblərin qiymətli hədiyyə və diplomlarla mükafatlandırılması nəzərdə tutulur.

### Müsabiqənin əsas şərtləri:

İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (ad, soyad, əlaqə telefonu, çalışdığı müəssisənin adı və tutduğu vəzifə) qeyd etməlidir. Hər iştirakçı müsabiqəyə bir yazı təqdim edə bilər. Yazıların əvvəlində müsabiqə üçün hazırlandığı qeyd olunmalıdır.

**Əlaqə üçün:** (012) 538-51-41

**TƏŞKİLAT KOMİTƏSİ**

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Baş redaktor** Bayram Hüseynzadə — huseynzada@edu.gov.az, 538-21-66
**Baş redaktor müavini** Sarvan İbrahimov — s.ibrahimov@muallim.edu.az, 538-21-55
**Məsul katib** Elman Əbdülov — e.abdulov@muallim.edu.az, 510-68-73
**Elm və təhsil şöbəsi** Yusif Əliyev — y.aliyev@muallim.edu.az, 538-51-41
**Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev — o.mustafayev@muallim.edu.az, 538-67-41
**İnformasiya şöbəsi** Niyazi Rəhimov — n.rahimov@muallim.edu.az, 538-66-05
**Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova — s.kerimova@muallim.edu.az, 539-19-74
**Məktublar şöbəsi** Şakir Cəfərov — sh.cafarov@muallim.edu.az, 539-64-00
**Mühasibatlıq** 539-67-74
**Kompüter mərkəzi** 539-07-98
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6269, **Sifariş** 730

**Məsul növbətçi:** Y.Əliyev

# AzTU-nun tələbələri XIII Respublika universiadasının qalibləri sırasında

Azərbaycan Texniki Universitetinin (AzTU) tələbələri 2 komanda ilə XIII Respublika universiadasında iştirak ediblər. Yarışda AzTU-nu dama üzrə 4, şahmat üzrə isə 5 tələbə təmsil edib.

Dama oyununda birinciliyi əldə etmək üçün ümumilikdə ölkə üzrə universitetlərdən qatılan 15 komanda mübarizə aparıb. AzTU-nun tələbələri bu mübarizədə III yerə layiq görülüblər. I yeri Milli Aviasiya Akademiyasının, II yeri isə Tibb Universitetinin komandaları qazanıb.

Ölkə universitetlərindən 17 komandanın qatıldığı şahmat oyunlarında da AzTU-nun tələbələri xüsusi fəallığı ilə seçiliblər. Şahmat oyunlarında AzTU-nun komandası Azərbaycan Dövlət İqtisad Universitetinin komandasına məğlub olaraq ikinci yerdə qərarlaşıb. III yeri Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələri qazanıblar.

XIII Respublika universiadasında AzTU-nu məşqçi-müəllim Aydın Ağayevin rəhbərliyi ilə dama və şahmat oyunlarında xüsusi texnika və texnologiya, avtomatika və kompüter texnikası, həmçinin maşınqayırma və nəqliyyat fakültələrinin tələbələri təmsil ediblər.

**Mətbuat xidməti**

# "Narkomaniya ümumbəşəri bəladır"



Bakıdakı 229 nömrəli tam orta məktəbdə "Narkomaniya ümumbəşəri bəladır" adlı tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səslənib. Məktəbin biologiya müəllimi Gülər Əmirovanın rəhbərliyi ilə keçirilən tədbirdə Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Müşfiq Aslanov, Nizami Rayon Polis İdarəsinin yetkinlik yaşına çatmayan gənclərin işləri üzrə bölmənin rəisi, polis kapitanı Yaşar Həsənov, Nizami Rayon Polis İdarəsinin inspektoru, baş polis leytenantı Mehdi Seyidov, Narkoloji dispanserin həkim-narkoloqu Asif Kəngərli, Nizami Rayon Polis İdarəsinin veteranlar şurasının üzvləri Firdovsi Bayramov, Fərhad Bağırov iştirak ediblər.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Fəridə Bağırova açaraq bildirib ki, ölkənin hər yerində narkomaniyaya qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkomanlığa düçar olmuş şəxslərin sağlam həyata qaytarılması, qanunvericiliyin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı qarşıya ciddi vəzifələr qoyulub. Biz müasir dövrün ən qorxulu, ən böyük bəlalarından olan narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizədə bir olmalıyıq.

Tədbirin aparıcıları qeyd edib ki, narkomaniya ilə mübarizə həm də hər bir vətəndaşın mənəvi borcudur. Narkomaniyaya qarşı mübarizədə daha səmərəli nəticələrə nail olmaq, gəncləri bu bəladan qorumaq, onlarda sağlam həyat tərzini formalaşdırmaq üçün hamı birgə mübarizə aparmalı, yeniyetmə və gənclər arasında maarifləndirmə işləri daim diqqət mərkəzində saxlanılmalı, bu sahədə milli-mənəvi dəyərlərin təbliğinə xüsusi fikir verilməlidir.

Çıxış edənlər gənclərin asudə vaxtının səmərəli təşkilindən, idmançılarımızın qazandıqları uğurlardan danışıb, şagirdləri savadlı və sağlam vətən övladı olmağa səsləyiblər.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb. Narkomaniyanın fəsadları ilə bağlı videoçarx nümayiş olunub.

**Rəşad ZİYADOV,** *"Azərbaycan müəllimi"*

# Etibarsız sayılır

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Zeynalov Orxan Araz oğluna verilmiş B-195265 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2002-ci ildə Mehdiyev Əsəd Mehdi oğluna verilmiş A-101780 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Məmmədova Zülfiyyə Rafiq qızına verilmiş A-107106 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Qurbanzadə Filurə Faiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Neftçala Peşə Məktəbi** tərəfindən 2007-ci ildə Səyidov Dilavər Çingiz oğluna verilmiş BB-019297 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayonu** Xanlıq kənd 2 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Kərimova (Orucova) Dilşad Faiq qızına verilmiş A-149727 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad Peşə Liseyi** tərəfindən 2007-ci ildə Nuriyev Natiq Zeynal oğluna verilmiş BB-024024 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 3 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Həmidli Orxan Vüqar oğluna verilmiş A-431401 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** Kiçik Dəhnə kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Talıbov Ramin Sabir oğluna verilmiş 200 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2000-ci ildə Qasımova Aynurə Sabir qızına verilmiş A-042893 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2014-cü ildə Həndəmova Ayşən Rüstəm qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1982-ci ildə Təhməzov Durmuş Oruc oğluna verilmiş ИВ-I-049508 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Texnikumu** tərəfindən (Balakən şöbəsi) 2007-ci ildə İbrahimova Mətanət Elxan qızına verilmiş BB-II-050033 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Müslümova (Əliyeva) Könül Əhməd qızına verilmiş B-090717 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 2016-cı ildə Məmmədova Nərgiz Məhəbbət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayonu** Minəxorlu kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Hacıyeva Aytəkin İnqilab qızına verilmiş 036255 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2000-ci ildə Seyidova Fatimə Mirhüseyn qızına verilmiş B-047212 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli axşam məktəbini 2003-cü ildə bitirmiş Musayev Şahin İsa oğluna verilmiş 650281 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Universiteti** tərəfindən 1981-ci ildə Abbasova Əminə Abbas qızına verilmiş ЖВ-041826 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Məmmədova Rəhilə Qalib qızına verilmiş B-689722 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Məişət Xidməti Kolleci** tərəfindən 2003-cü ildə Muxtarova Firəngiz Rizağa qızına verilmiş AB-II-094424 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayonu** Qoruqbağı kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Hüseynova Güladə Xan qızına verilmiş A-465413 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Samux şəhər** 1 nömrəli liseyi 2004-cü ildə bitirmiş Yusibova Əminə Nəriman qızına verilmiş B-0949611 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Bədən Tərbiyəsi İnstitutu (indiki ADBTİA)** tərəfindən 1991-ci ildə Yefimova Nina Anatolyevnaya verilmiş ФВ-I-083405 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Fizika-riyaziyyat və informatika təmayüllü liseyi** 2011-ci ildə bitirmiş Cəfərova Nuranə Elçin qızına verilmiş A-005438 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Günəhir kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Miriyev Elməddin Mirzəhüseyn oğluna verilmiş B-064455 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayonu** Şəkərbəy kənd tam orta məktəbinin IX sinfini 1998-ci ildə bitirmiş Allahverdiyeva Yeganə Sənhan qızına verilmiş 087307 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 297 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Hüseynzadə Nicat Əsgər oğluna verilmiş B-487489 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 5 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Heydərova Ülkər Gülalı qızına verilmiş A-550142 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Zaidova Şölə Eldar qızına verilmiş 635465 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2010-cu ildə Mahmudov Elnur Zahid oğluna verilmiş BB-061496 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Seyidbazar kənd tam orta məktəbini 1986-cı ildə bitirmiş Bağırova Şaxanım Adınaqulu qızına verilmiş 226569 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Soyuqbulaq kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Mirzəyev Rəcəb Vidadi oğluna verilmiş 517389 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Babayev Elmir Elşad oğluna verilmiş B-512979 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 99 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hüseynova Əsmanə Şirzad qızına verilmiş B-183468 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Türkədi kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Əlizadə Vəfa Qaroğlan qızına verilmiş A-232313 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2000-ci ildə Məmmədov Natiq Namaz oğluna verilmiş AB-039410 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 58 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Mübariz Cavanşir oğluna verilmiş B-019223 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 54 nömrəli **Texniki Peşə Məktəbi** tərəfindən 1994-cü ildə İsmayılov Sərvər Rəsul oğluna verilmiş AB-076049 nömrəli diplom və diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 48 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Qurbanova Şəhanə Qara qızına verilmiş B-019486 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Politexnik Texnikumu** tərəfindən 1992-ci ildə Babayev Samir Əli oğluna verilmiş PT-I-110677 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Xasməmmədli Zeynəb Etibar qızına verilmiş A-033846 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 291 nömrəli Araz Ekologiya Liseyini 2010-cu ildə bitirmiş İsmayılzadə Muxtar Nüsrət oğluna verilmiş 675605 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayonu** Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Mehdiyev Rəşad Məhərrəm oğluna verilmiş A-649759 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 48 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Bağırov Oqtay Pərviz oğluna verilmiş A-505324 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Camalzadə Fəqan Bəhruz oğluna verilmiş A-151614 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 263 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Cərullayeva Tünzalə Arif qızına verilmiş 597445 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli Peşə Liseyi tərəfindən 2014-cü ildə Osmanova Nigar Canbulad qızına verilmiş A-055711 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2016-cı ildə Bəşirzadə Şəhla Nicat qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Nuriyeva Esmira Həsən qızına verilmiş A-063991 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 32 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Şıxəliyeva Güldəstə Rasim qızına verilmiş A-515552 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# İNGİLİS DİLİNİ ÖYRƏNƏNLƏR ÜÇÜN

BRITISH COUNCIL

LearnEnglish

# Myths and legends – Southern Europe (Greece

by Ian Betteridge

## Activity 1

Before you read, complete the sentences with words from the box.

| | | |
|---|---|---|
| **a.** determined | **b.** eventually | **c.** furious |
| **d.** hideous | **e.** labyrinth | **f.** ball of string |

1. If something happens ........... then it happens at the end or after a long time.
2. If you are ........... to do something then you really want to do it and will not let anything stop you.
3. A ........... is a long, thin piece of material that you can use to tie things together, and that has been collected together like a ball.
4. If you are ........... then you are extremely angry.
5. Something that is extremely ugly or unpleasant is ........... .
6. A ........... is a place with a complicated design of walls and paths where it is easy to get lost.

## Theseus and the Minotaur

King Minos of Crete was a cruel man. Inside his palace there was a labyrinth and inside, at the heart of the labyrinth, lived a hideous monster called a Minotaur. It was part man, part bull and extremely strong. King Minos demanded that the people of Athens send their seven bravest sons and seven most beautiful daughters to Crete every seven years. Minos would lock them in the labyrinth and the Minotaur would eat them.

Theseus was the son of Aegeus, king of Athens. He was determined to help his people, so he went to speak to his father.

'I will hide a knife under my shirt and take a boat to Crete to kill the Minotaur,' he said. 'I will put a black flag on the boat and, after I defeat the monster, I will return with a white flag. Then you will know I have won.'

King Minos had a daughter called Ariadne. She was in charge of the labyrinth. When she saw Theseus, she fell immediately in love. Not wanting Theseus to die, Ariadne gave him a ball of string.

'Tie this string to the door of the labyrinth and you will never be lost,' she said.

Theseus did this and found the heart of the labyrinth. Then he took the knife out from under his shirt and fought the Minotaur. The battle lasted for three days but, eventually, Theseus won. He was exhausted but he used the string to find the entrance to the labyrinth.

King Minos was furious to see Theseus alive, so Theseus ran to the sea and jumped into his boat. He went so quickly that he forgot to change the colour of the flag. When King Aegeus saw the boat with the black flag, he threw himself into the sea and died.

## Activity 2

Decide if the following sentences are true, false, or not given, depending on the information in the text.

1. The Minotaur was good-looking.
2. Theseus's most beautiful daughter was eaten by the Minotaur.
3. Theseus planned to change the colour of the flag on his boat.
4. Ariadne was responsible for the labyrinth.
5. After he killed the Minotaur, Theseus was very hungry.



© Hannah Eaton/British Council

## Activity 3.1

In the story, we read, '*Minos would lock them in the labyrinth and the Minotaur would eat them*'. **Would** can be used like this to describe actions that happened many times in the past. It is similar to 'used to' but 'used to' can describe actions or states, and 'would' can only describe actions.

For example:

both '*We used to practise fighting*' and '*We would practise fighting*' are correct. 'Fight' is an action verb.

'*I used to live in Athens*' is correct, but '*I would live in Athens*' is incorrect. 'Live' is a stative verb.

Look at the verbs (1–4) and decide if they are a) action verbs or b) stative verbs.

1. to be
2. to practise
3. to demand
4. to live

## Activity 3.2

Now read Ariadne's story and choose the correct way to fill the gaps (1–4).

**a.** 'used to'
**b.** either 'used to' or 'would'

I (1) ........... live on the island of Crete. My father, King Minos, was very cruel. Every seven years, he (2) ........... demand that Athens send young people to feed to the Minotaur. One day, a man called Theseus came to Crete. He (3) ........... be so handsome, and he (4) ........... practise fighting every day. He killed the Minotaur and went home. I never saw him again.

## Activity 4

Stories in Ancient Greece often had a sad ending. Is the same thing true in stories from your country? Do you prefer happy endings or sad endings? Why?

## Answers

**Activity 1**
1. b; 2. a; 3. f; 4. c; 5. d; 6. e

**Activity 2**
1. False; 2. Not given; 3. True; 4. True; 5. Not given

**Activity 3.1**
1. b; 2. a; 3. a; 4. b

**Activity 3.2**
1. a; 2. b; 3. a; 4. b

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017